Xalqın qəzeti!

# Xalq qəzeti

№ 102 (30506) 17 may 2024-cü il, cümə

Gündəlik ictimai-siyasi qəzeti

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az

## Fransanın imperialist iddiaları həddini aşır



Səhifə ⇨ 6

# Azərbaycan–Belarus münasibətlərinin dinamik inkişafı məmnunluq doğurur

## Belarus Prezidenti Aleksandr Lukaşenkonun rəsmi qarşılanma mərasimi





**Azərbaycan Respublikasına dövlət səfərinə gələn Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun mayın 16-da rəsmi qarşılanma mərasimi olub.**

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Belarus Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidenti İlham Əliyev Belarus Prezidenti Aleksandr Lukaşenkonu qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Belarus Prezidentinə raport verdi.

Belarus Respublikasının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirildi.

Azərbaycan nümayəndə heyəti Belarus Prezidentinə, Belarus nümayəndə heyəti isə Azərbaycan Prezidentinə təqdim olundu.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və Belarus Prezidenti Aleksandr Lukaşenkonun qarşısından keçdi.

Dövlət başçıları rəsmi foto çəkdirdilər.

## Gürcüstan və Ermənistanda yaşananlar fonunda Azərbaycan nümunəsi

### Yaxud Qərbin ikili standartlar siyasətinin Cənubi Qafqaz gündəmi

**Qərbin ikili standartlar siyasəti Ermənistanda və Gürcüstanda baş verən proseslər fonunda özünün ən pik həddinə çatıb desək,– yanılmarıq. Avropanın və ABŞ-ın aparıcı media orqanları elə rəy formalaşdırırlar ki, guya, Ermənistanda baş verənlər hakimiyyətə qarşı üsyandır, Gürcüstanda yaşananlar isə xalq azadlıq hərəkatı.**

Əlbəttə, biz bilavasitə Gürcüstandakı prosesləri təhlil etmək niyyətindən uzağıq. Eləcə də həmin proseslərin motivindən əhatəli söz açmaq, detallara varmaq da istəmirik. Əslində, Cənubi Qafqazdakı etirazların Ermənistan plasdarmı da bir o qədər maraqlı olmazdı. Ancaq burada Azərbaycanla sülh prosesi ilə bağlı durum olduğundan, istər-istəməz, həssaslıq yaranır.

Elə isə Ermənistanda və Gürcüstanda yaşananların oxşar motivlərinə diqqət yetirək. Əlbəttə ki, bu məsələdə Qərbin ikili standartlar siyasətinin də ayrı-ayrı təzahür formalarına nəzər salacağıq. O siyasətin ki, onunla Azərbaycan müstəqilliyini əldə etdiyi ilk gündən qarşılaşıb. Ölkəmizə yönələn bu siyasət otuz ildən artıq bir müddətdir davam edir və bu gün də aktuallığını qoruyur.



Ümumən, Qərbin öz maraqları naminə həyata keçirdiyi ikili standartlar siyasəti fonundakı destruktiv yanaşmanın Ermənistanı və Gürcüstanı saldığı durum göz önündədir. Bu, o deməkdir hazırda Azərbaycan deyil, məhz bu iki dövlət həmin siyasətdən əziyyət çəkirlər. Ölkəmiz isə özündə müqavimət formalaşdırıb. Müqavimət nəticəsində nəyə nail olunub, bu barədə yazının sonunda. İndi isə mətləbə keçək.

**Birinci məqam.** Bəzi müşahidəçilər son illərdə postsovet ölkələrindəki etirazlara nəzər salarkən, tanış universal izahat sxemi təklif etməkdən çəkinmirlər. İstənilən küçə aksiyasını ya "rəngli inqilab" və ya buna cəhd adlandıran fikirlər üzərində dayansaq, hər şey aydın olacaq. Lakin bu yanaşma ilə heç nə müəyyənləşmir. Əksinə, ən maraqlı, belə demək mümkünsə, maddi hissə gözdən kənarda qalır və situasiyanı adekvat qiymətləndirməyə mane olur.

O zaman bu məsələyə diqqət yetirək: Ermənistanda etiraz nəyədir, Gürcüstanda nəyə? Gürcüstanda insanlar xarici agentlərlə bağlı qanunvericiliyin qəbulundan narazılıq bildirirlər. Halbuki, ABŞ-nin özündə belə bu sayaq qanunlar var. Üstəlik, Qərbin xüsusi xidmət orqanlarının Gürcüstanın daxili işlərinə qarışmalarına dair faktlar yetərincədir. Bu mənzərəyə parlamentli idarəçilik quruluşuna malik ölkədəki hakimiyyətin prezident üsul idarəsi ilə yaşadığı böhranı əlavə etsək, Qərbin hansı cinahı dəstəklədiyini nəzərə alsaq, kifayət qədər aydın mənzərə yaranar.

Ermənistanda mövcud xüsusda problem yoxdur. Ölkə tamamilə Qərbpərəst siyasət yürüdən baş nazir Nikol Paşinyanın rəhbərlik etdiyi sistemdədir. O sistemin Azərbaycanla sülh prosesinə pozitiv yanaşdığına dair siqnallar var və müsbət meyillərin sayı artmaqdadır. Burada məsələ yalnız onda deyil ki, rəsmi İrəvan konstruktiv mövqe tutur. Başlıca məqam onun konstruktivlikdən başqa yolunun qalmamasıdır. Əslində, Ermənistan kimi, Qərb də bu baxımdan eyni durumdadır.

İkili standartlar siyasətindən bəhrələnən Qərb 2020-ci ildən ötən dövr ərzində çox çalışdı ki, Ermənistanı Cənubi Qafqazda İkinci Qarabağ müharibəsindən sonra yaranmış reallıqlardan sığortalasın. Amma buna nail ola bilmədi. İndi kilsə müxalifətinin başlatdığı aksiya həm də nəinki Paşinyan və komandasının, eləcə də onun arxasında dayanan Qərbin Azərbaycana diplomatik-siyasi və hərbi cinahda məğlubiyyətinin nəticəsidir. Ermənistandakı müxaliflər bu məğlubiyyətə görə təzminat istəyirlər və tələb edirlər ki, hazırkı iqtidar getsin. Əslində, öz aləmlərində haqlıdırlar. Bu haqqın böyük haqla, ədalətlə əlaqəsi var və ya yoxdur, başqa söhbətin mövzusudur...

**İkinci məqam.** İrəvanda və Tbilisidə yaşananlarda oxşarlıq varmı? Fikrimizcə, oxşarlıq və ümumilik danılmazdır. Həm birinci, həm də ikinci halda küçə aksiyalarının iştirakçıları və onların əleyhdarları milli-dövlət kimliyi axtarışı ilə məşğuldurlar.

Təsəvvür formalaşıb ki, Ermənistan hakimiyyəti realizmin xeyrinə tarixilikdən uzaqlaşmağa çalışır ki, bu, praktikada Ermənistan SSR-ə bərabər olan kompakt respublikanın xeyrinə müxtəlif variasiyalardakı "böyük Ermənistan" layihəsindən imtina deməkdir. Bu seçim, istər-istəməz, xarici oyunçulara – ilk növbədə, Azərbaycana və Türkiyəyə güzəştlərin həcmi məsələsini gündəmə gətirir. Belə yanaşma Ermənistan dövlətçiliyindən tam imtinanın qarşısını alan formuldur. Ancaq, görünür, erməni dövlətçiliyinin mövcudluğunu istəməyənlər də var...

**(ardı 8-ci səhifədə)**

## Dincliyi pozan kim oldu?



Səhifə ⇨ 8

## Məkanı səhv salmış "Keyhan"



Səhifə ⇨ 8

## Paşinyan daha bir sınaqdan çıxmış kimi görünür



Səhifə ⇨ 9

## Türk–erməni münasibətlərində tarixi gerçəklər



Səhifə ⇨ 5

## Qarabağ və Şərqi Zəngəzurun "yaşıl dünya"sı genişlənir



Səhifə ⇨ 7

# Prezidentlərin təkbətək görüşü



Mayın 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko ilə təkbətək görüşü olub.

# Geniş tərkibdə görüş



Mayın 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko ilə geniş tərkibdə görüşü keçirilib.

**Görüşdə çıxış edən Prezident İlham Əliyev dedi:**

- Hörmətli Aleksandr Qriqoryeviç.

Hörmətli qonaqlar.

Sizi bir daha Azərbaycanda salamlayıram. Çox şadam ki, mənim dəvətimi qəbul etmisiniz və ölkəmizə dövlət səfərinə gəlmisiniz.

Bir çox məsələlər - ikitərəfli gündəlik, regional və beynəlxalq məsələlər üzrə ətraflı danışdıq. Münasibətlərimizin strateji xarakterini bir daha təsdiq etdik. Ölkələrimiz arasında etimada, qarşılıqlı hörmətə, dostluğa və əməkdaşlığa əsaslanan kreativ tərəfdaşlığı çox yüksək qiymətləndiririk. Bu münasibətlər zamanın sınağından çıxıb və zənnimcə, Belarus ilə Azərbaycanın etibarlı dost olmaları heç kimdə şübhə doğurmur. Bu, dövlətlərarası münasibətlərimizin əsasıdır, çünki yalnız qarşılıqlı etimad şəraitində həmişə bütün vəziyyətlərdə ikitərəfli dəstəyə arxalanaraq irəliləmək mümkündür.

Nümayəndə heyətlərinin üzvləri dünən görüşüblər və bildiyimə görə, təmaslar çox səmərəli, müsbət olub. Həlli vacib olan çoxlu məsələlər var. Qarşılıqlı fəaliyyətimizin perspektivlərinə baxdıqda böyük potensialı, əmtəə dövriyyəsinin artmasını və sənaye kooperasiyasının, kənd təsərrüfatında əməkdaşlığın genişləndirilməsini görürük. Əlbəttə ki, biz azad edilmiş ərazilərin bərpasında Belarus şirkətlərinin, müəssisələrinin iştirakına şad olardıq. Nümayəndə heyətlərinin üzvləri bu məsələni də müzakirə ediblər. Nümayəndə heyətlərinin tərkibi də çox mətləblərdən xəbər verir. Məhz gündəlikdə olan məsələlərdən danışılıb. Amma, əlbəttə, nümayəndə heyətlərinin üzvlərinin cavabdeh olduqları məsələlərlə kifayətlənmək olmaz. Belə ki, əməkdaşlığımız yetərincə çoxplanlıdır, yaxşı keçmişə və yaxşı gələcəyə malikdir.

Aleksandr Qriqoryeviç, bir daha Sizi salamlayıram. Sizə dost ölkə olan Azərbaycanda yaxşı vaxt keçirməyinizi arzulayıram.

***

**Prezident Aleksandr Lukaşenko dedi:**

- İlham Heydər oğlu, çox sağ olun. Həqiqətən bizim bağlı mövzumuz yoxdur. Bizdə hər şey açıqdır. Biz müzakirə aparırıq, hətta kimsə hansısa məsələlər barədə eşidirsə, onlar münasibətlərimizin necə olduğu barədə düşünürlər. Münasibətlər çox səmimi, çox yaxındır, biz qardaş kimi ünsiyyət qururuq. Dünyanı eyni şəkildə anlayır, onun haraya doğru getdiyini başa düşürük. Bilirsiniz, Sizə təkbətək görüş zamanı Heydər Əliyev haqqında danışmışdım, kaş ki, o, Azərbaycanın necə inkişaf etdiyini və uğurlarını görəydi. Mən bir daha düşündüm və müharibədən əvvəl, Sizin azadlıq müharibənizdən öncə söhbətimizi xatırladım. Həmin vaxt biz nahar süfrəsi arxasında ikilikdə fəlsəfi fikir yürüdürdük və belə nəticəyə gəldik ki, müharibədə qələbə çalmaq olar. Bu vacibdir, Qələbəni qoruyub saxlamaq daha vacibdir. Üçüncüsü isə, Sizin də bu mövzuya toxunduğunuz kimi, biz ümumi fikrə gəldik ki, müharibədən sonra ən ağır dövr başlayacaq, azad etdiyiniz torpaqları dirçəltməyə, bərpa etməyə başlamaq lazım gələcək. Həmin ağır dövr gəlib çatdı, bu torpaqları dirçəltmək, insanları artıq qaytarmaq lazımdır, onların bəziləri şəhərdə anadan olub, problemlər ola bilər və sair. Qələbə çaldınız və onu qoruyub saxladınız. İndi dirçəliş dövrüdür. Bu, zaman, böyük zəhmət tələb edir, beş və ola bilər ki, on il ərzində həmin işlər yerinə yetirilməlidir.

İlham Heydər oğlu, ona görə də biz kömək göstərə və bu prosesdə iştirak edə bilərik. Sizin kifayət qədər köməkçiləriniz var, amma biz bir dost kimi bu prosesdə texnika, aqroşəhərciklər, iş yerləri ilə iştirak edə bilərik. İnsanları köçürmək, qaytarmaq olar, amma bunun üçün mənzillər, iş yerləri lazımdır. Bizim müəyyən texnologiyalarımız var, Sizin mütəxəssisləriniz, nazirləriniz bu texnologiyalara yaxşı bələddirlər. Əgər işə yarayarsa, texnikamız burada olar və işləyər.

# Azərbaycan-Belarus sənədləri imzalanıb



Mayın 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun iştirakı ilə Azərbaycan-Belarus sənədlərinin imzalanması mərasimi olub.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırov və Belarus Respublikası Dövlət Gömrük Komitəsinin sədri Vladimir Orlovski "Azərbaycan Respublikası Hökuməti ilə Belarus Respublikası Hökuməti arasında malların mənşəyinin sertifikatlaşdırılmasının elektron sisteminin qarşılıqlı tətbiqi haqqında Protokol"u imzaladılar.

Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri Məcnun Məmmədov və Belarus Respublikasının kənd təsərrüfatı və ərzaq naziri Sergey Bartoş "Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında bitki karantini və mühafizəsi sahəsində əməkdaşlıq haqqında 2007-ci il 2 may tarixli Sazişə əlavə və dəyişikliklər edilməsinə dair Protokol"u və "Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında 2007-ci il 2 may tarixli Sazişə əlavə və dəyişikliklər edilməsinə dair Protokol"u imzaladılar.

Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Belarus Respublikasının xarici işlər naziri Sergey Aleynik "Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi ilə Belarus Respublikasının İdman və Turizm Nazirliyi arasında turizm sahəsində əməkdaşlığın inkişafına dair 2024-2025-ci illər üzrə Tədbirlər Planı"nı imzaladılar.

Azərbaycan Respublikasının iqtisadiyyat naziri Mikayıl Cabbarov və Belarus Respublikasının antiinhisar tənzimləmə və ticarət naziri Aleksey Boqdanov "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Belarus Respublikasının Antiinhisar Tənzimləmə və Ticarət Nazirliyi arasında rəqabət siyasəti, dövlət satınalmaları, istehlakçı hüquqlarının müdafiəsi və reklam fəaliyyəti sahələrində qarşılıqlı anlaşma və əməkdaşlıq haqqında Memorandum"u imzaladılar.

Azərbaycan Respublikasının iqtisadiyyat naziri Mikayıl Cabbarov və Belarus Respublikasının "Milli İnvestisiya və Özəlləşdirmə Mərkəzi" Dövlət Müəssisəsinin direktoru Dmitri Krasovski "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi ilə Belarus Respublikasının İqtisadiyyat Nazirliyinin "İnvestisiya və Özəlləşdirmə Milli Agentliyi" Dövlət Müəssisəsi arasında Anlaşma Memorandumu"nu imzaladılar.

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov və Minsk Şəhər İcra Komitəsinin sədri Vladimir Kuxaryov "Bakı şəhəri (Azərbaycan Respublikası) ilə Minsk şəhəri (Belarus Respublikası) arasında qardaşlaşma əlaqələrinin qurulmasına dair Memorandum"u imzaladılar.

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov və Qomel Şəhər İcra Komitəsinin sədri Vladimir Privalov "Gəncə şəhəri (Azərbaycan Respublikası) ilə Qomel şəhəri (Belarus Respublikası) arasında qardaşlaşma əlaqələrinin qurulmasına dair Anlaşma Memorandumu"nu imzaladılar.

Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev və Qrodno şəhər İcra Komitəsinin sədri Andrey Xmel "Qəbələ şəhəri (Azərbaycan Respublikası) ilə Qrodno şəhəri (Belarus Respublikası) arasında qardaşlaşma əlaqələrinin qurulmasına dair Anlaşma Memorandumu"nu imzaladılar.

# Liderlər mətbuata bəyanatlarla çıxış ediblər



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko mətbuata bəyanatlarla çıxış ediblər. Əvvəlcə Azərbaycan Prezidenti İlham Əliyev mətbuata bəyanatla çıxış etdi.

## Prezident İlham Əliyevin bəyanatı

- Hörmətli Aleksandr Qriqoryeviç.

Hörmətli qonaqlar.

Əziz dostlar.

Bu gün biz Azərbaycana dövlət səfəri ilə gəlmiş əziz qonağı, böyük dostumuz Aleksandr Qriqoryeviç Lukaşenkonu qəbul edirik. Aparılan danışıqlar - təkbətək və geniş tərkibdə görüşlər ölkələrimizin mehriban dostlar olduğunu bir daha əyani şəkildə nümayiş etdirir. Bu gün münasibətlərimizin son illərdə inkişafını müfəssəl şəkildə təhlil etdik və bu münasibətlərin dinamik inkişafını məmnuniyyətlə qeyd etdik, həmçinin daha da mühüm olanı - gələcəkdə qarşılıqlı fəaliyyət yollarını müəyyənləşdirdik. Razılığa gəldik ki, yaxın vaxtlarda Minskdə keçiriləcək Hökumətlərarası Komissiyanın növbəti iclasına qədər müvafiq dövlət strukturlarına verilmiş tapşırıqlar müfəssəl şəkildə təhlil olunacaq və onların icra müddəti üzrə konkret addımlar, həmçinin qarşılıqlı iqtisadi-ticari əməkdaşlıq potensialını daha da artırmaq üçün həmin tapşırıqların verildiyi məsul şəxslər və strukturlar müəyyən ediləcək.

Mən məktub göndərmişəm, lakin bu gün bir daha Aleksandr Qriqoryeviçi noyabrda Bakıda keçiriləcək iqlim sammitində iştirak etməyə şəxsən dəvət etmişəm. Həmin vaxta qədər müvafiq tapşırıqlar verilib, biz onların yerinə yetirilməsi üzrə məruzələri dinləyəcəyik. Bu gün müzakirə etdiyimiz məsələlərin hamısı kifayət qədər konkret xarakter daşıyır. İlk növbədə, söhbət sənaye kooperasiyasından, Belarusda, Azərbaycanda birgə istehsalın təşkili və artıq bir çox illər öncə yaradılmış birgə istehsal potensialının artırılmasından gedir. Bu, ilk növbədə, maşınqayırmadır. Həmçinin hərbi-sənaye kompleksində, kənd təsərrüfatında, nəqliyyatda əlaqələrin inkişafı məsələləri, başqa sözlə desək, ölkələrimizin iqtisadiyyatının inkişafı üçün praktiki əhəmiyyət daşıyacaq məsələlər geniş şəkildə müzakirə olundu.

Belarus nümayəndə heyətinin üzvləri artıq dünəndən Bakıdadır və azərbaycanlı həmkarları ilə danışıqlar aparıblar. Bu, bir daha göstərir ki, hər iki tərəf Belarus Prezidentinin dövlət səfərinə məsuliyyətlə yanaşaraq, sonradan dövlət başçılarının təsdiqinə təqdim ediləcək bir çox məsələləri əvvəlcədən müzakirə edib və razılaşdırıblar. Zənnimcə, məhz əməkdaşlığın bu səmərəli forması daha düzgündür və konkret nəticəyə yönəlib. Beləliklə, əminəm ki, gələcəkdə, həm də çox uzaq olmayan gələcəkdə münasibətlərimizin yeni hüdudlarını, yeni müəssisələri, yeni iş yerlərini, həmçinin əməkdaşlığın yeni istiqamətlərini görəcəyik. Mən artıq bu barədə danışmışam, bir daha demək istəyirəm ki, Belarus şirkətlərini Qarabağ və Şərqi Zəngəzur bölgələrinin bərpasında fəal iştirak etməyə dəvət etmişəm. Hazırda gördüyümüz və həyata keçirəcəyimiz işlərin miqyası çox genişdir.

Demək olar ki, ərazini sıfırdan bərpa etmək lazım gəlir, müqayisə üçün deyim ki, Livanın bütün ərazisi, üstəgəl bütün bu ərazinin 50 faizi qədər sahəni. Bütün bunları, sadəcə, daşın daş üstündə qalmadığı ərazidə görüləcək işləri təsəvvür etmək üçün söylədim. İşğal illərində hər şey dağıdılıb. İnfrastrukturu, yaşayış sahələrini, ictimai binaları, tarixi abidələri və digərlərini sıfırdan bərpa etmək lazım gəlir. Ona görə də Belarus şirkətlərini bu prosesə fəal qoşulmağa dəvət edirik.

Bu gün, həmçinin konkret tapşırıqlar verilib. Belarusun çox yaxşı şəhərsalma təcrübəsi, müasir texnologiyaları, - bu barədə də danışdıq, - aqroşəhərciklərin tikintisi təcrübəsi var. Əlbəttə, bizim birinci dərəcəli vəzifəmiz keçmiş məcburi köçkünləri tikiləcək doğma evlərinə mümkün qədər tez qaytarmaqdır. Həmçinin onları müvafiq işlə təmin etmək lazımdır ki, azad olunmuş ərazilərə qayıdanlar da yüksək əməkhaqqı olan işlərdə çalışsınlar.

Biz bu gün, həmçinin regionumuzda MDB məkanında təhlükəsizliklə bağlı məsələləri müzakirə etdik. Mən Aleksandr Qriqoryeviçə Cənubi Qafqaz regionunda postmünaqişə şəraiti haqqında məlumat verdim. Təbii ki, dünya siyasətinin aktual məsələləri üzrə də fikir mübadiləsi apardıq. Dünyada vəziyyət sürətlə və bir qayda olaraq mənfi istiqamətdə dəyişir. Yeni münaqişələr, yeni qeyri-sabitlik ocaqları yaranır. Təəssüf ki, bir qayda olaraq mövcud münaqişələr öz həllini tapmır. Cənubi Qafqazda Azərbaycanın beynəlxalq hüquqa, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə, BMT-nin Nizamnaməsinə və bütün dünya ictimaiyyətinin bu gün tanıdığı beynəlxalq humanitar hüquqa tam uyğun olaraq hərbi-siyasi yolla həll etdiyi münaqişə istisna olmaqla.

Əlbəttə ki, diskussiyalar üçün mövzu olduqca çoxdur. Biz Aleksandr Qriqoryeviçlə artıq son 20 ildə fəal işləyirik. Bu illər ərzində müxtəlif şəraitlərdə həmişə dəyərlərimizə - xeyirxahlığa, ləyaqətə, münasibətlərdə dürüstlüyə və nəticəyə hədəflənməyə sadiqliyimizi qoruyub saxlamışıq. Düşünürəm ki, ölkələrimizin rəhbərləri arasında etimada əsaslanan münasibətlər təbii olaraq bütün digər dövlət qulluqçularına impuls verir ki, onlar, həmçinin öz aralarında ünsiyyət saxlasınlar, çalışsınlar, dostluq etsinlər, öz ölkələrinin rifahı və ölkələrimiz arasında dostluq münasibətlərinin möhkəmləndirilməsi naminə fəaliyyət göstərsinlər. Zənnimcə, bu gün bu münasibətlərin dostluq xarakteri daşıması əyani şəkildə nümayiş etdirilir.

Aleksandr Qriqoryeviç, bir daha minnətdarlıq hissi ilə demək istəyirəm ki, Sizin səfərinizi dostluq və hörmət əlaməti kimi qəbul edirəm. Ötən illərdə biz bir neçə qarşılıqlı – rəsmi və işgüzar səfərlər etmişik. Amma dövlət səfəri həm forma, həm də məzmun etibarilə həmişə fərqlidir. Sizi salamlamağıma şadam. Sizə və dost, qardaş Belarus xalqına yeni uğurlar və qələbələr arzulayıram. Sağ olun.

***

Sonra Belarus Prezidenti Aleksandr Lukaşenko bəyanatla çıxış etdi.

## Prezident Aleksandr Lukaşenkonun bəyanatı

- İlham Heydər oğlu, Belarus xalqının və mənim ünvanıma söylədiyiniz xoş sözlərə görə çox sağ olun. Biz bunu qiymətləndiririk.

Geniş tərkibdə danışıqlarımızın əvvəlində söylədim ki, Azərbaycan son illər böyük nailiyyətlər əldə edib. Hər şeydən əvvəl özünün əsas problemini – uzun müddət səhraya çevrilmiş torpaqların qaytarılmasını həll edib. İlham Heydər oğlu deyir ki, bu torpaqları dirçəltmək, hansısa yeniliklər etmək lazımdır. Amma orada vəziyyət hələ pisdir, dirçəlişdən əvvəl bir çox şeyləri təmizləmək lazımdır. Bu, az iş deyil. Çünki bu, keçmişin ağır fəsadlarıdır, amma torpaqlar qaytarılıb və onları dirçəltmək lazımdır. Bu, Azərbaycanın həll edəcəyi daha uzunmüddətli ağır problem və vəzifədir.

Mən hələ müharibədən əvvəl İlham Heydər oğlu ilə bu problemi müzakirə etdiyimiz vaxtları xatırlatdım. Həmin vaxt o mənə deyirdi ki, qarşıda insanları qaytarmağın lazım olacağı çox ağır dövr durur. Siz çox düzgün kurs götürmüsünüz. İnsanları qaytarmaq azdır, onları yaxşı, rahat evlərdə yerləşdirmək lazımdır, çünki bir çoxları artıq şəhərlərdə anadan olublar. Amma bu da azdır. Yeni iş yerləri yaratmaq lazımdır. Mən ilk dəfə belə bir həcm barədə eşitdim ki, bu, Livanın bütün ərazisi, üstəgəl bütün bu ərazinin 50 faizi qədər sahədir. İlham Heydər oğlu, bu torpaqları dirçəltmək üçün hələ uşaqlar da çox iş görməli olacaqlar.

Mən bunu ona görə söylədim ki, biz sizə qardaş və çox dost ölkəyik, təkcə İlham Heydər oğlu ilə köhnə dostlar deyilik, bizim Heydər Əliyev ilə də yaxşı münasibətlərimiz var idi. Uzun müddət olmasa da, onunla çox səmimi şəkildə çalışırdıq. Mən hələ sovet dövründə bu insana böyük hörmət bəsləyirdim. İlham Heydər oğluna tez-tez deyirəm ki, təbiət nadir hallarda övlada atanın istedadını bəxş edir. Siz çox işlər görmüsünüz. Bu gün ona birbaşa dedim ki, siz cənnətdə yaşayırsınız. Sizin təbiətiniz cənnətdir. Torpaqlarınızı qaytarmağınız və onu dirçəltməyiniz əsrlər boyu, uzun illər yaddaşlarda qalacaq. Bütün bunları ona görə deyirəm ki, əgər həmin torpaqların dirçəldilməsi üzrə bu böyük prosesdə bizə yer tapılarsa, onda bu yükün altına girməyə hazırıq və bu, sizin üçün sərfəli olacaq. Məsuliyyətlə bildirirəm ki, biz bunu böyük məmnuniyyətlə və dünyada heç kimin edə bilməyəcəyi səviyyədə edəcəyik. Çünki Belarusun və Azərbaycanın qardaş xalqları arasında dərin hörmət və münasibətlər var. Azərbaycan Prezidentinin əvvəldə söylədiyi sözlərə diqqət yetirmənizi xahiş edirəm. Bizim irəlilədiyimiz və təxminən 400 milyon dollar əmtəə dövriyyəsinə çatdırdığımız bir yol xəritəmiz var. Razılığa gəlmişik ki, bu yol xəritəsi Hökumətlərarası Komissiyanın Minskdə keçiriləcək növbəti iclasında bugünkü razılaşmalar və nazirlərimizin burada iki gün ərzində çalışdıqları, hələ üzərində işləyəcəkləri məsələlər nəzərə alınmaqla aktuallaşdırılacaq. Bəzi məsələlər artıq köhnəlib, yeni problemlər meydana çıxır. Bütün bunlar həmin planda öz əksini tapacaq. Burada iqlim üzrə beynəlxalq konfrans keçirildikdə, çox güman ki, mən orada iştirak edəcəyəm, bunu planlaşdırıram. Biz İlham Heydər oğlu ilə daha məhdud tərkibdə və yenidən görüşəcəyik. Görüşdə Hökumətlərarası Komissiyamızın həmsədrləri bu xəritənin nədən ibarət olması, hansı işlərin görüldüyü barədə məruzə edəcəklər. Biz nazirlərin xəritəni tərtib etmələrini gözləməyəcəyik, bu işə yeni ildən başlayacağıq. Hansısa məsələlər üzrə belə də olacaq. Amma bir sıra məsələlər var ki, onları işləyib hazırlamaq deyil, sabahdan başlamaq lazımdır. Biz kompleks mineral gübrələrin birgə istehsalı üzrə razılaşdıq. Burada gecikməyin mənası yoxdur. Kompleks qarışıq gübrələr istehsal etmək və Azərbaycanın hər hansı gübrə ilə bağlı xahiş etməməsi üçün daxili bazardan başlamaq, onu burada istehsal etmək lazımdır. Bizim texnologiyalarımız var, bunu həyata keçirməyə və bütün regionu təmin etməyə hazırıq. Region isə çox böyükdür – İran, Pakistan, Hindistan. Onlar böyük miqdarda mineral gübrələr tələb edir. Biz onlara kompleks şəkildə gübrə təklif edəcəyik. Ona görə də məsələ bu cürdür – artıq həll etməyə başlamaq və noyabra qədər irəli getmək lazımdır. Qarşıya bu cür vəzifələr qoyulub.

Biz bütün məsələləri müzakirə etdik. Bağlı mövzular olmadı. Bu, təkcə texnika və MT3 deyil, MAZ texnikasının birgə istehsalı, yanğınsöndürən texnikasının birgə istehsalı, lift avadanlığının, xüsusən sovet binalarında dəyişdirilməli olan köhnə liftlərin hissələrinin birgə istehsalıdır. Biz azərbaycanlı dostlarımızla bu texnikanı birgə istehsal etməyə hazırıq. Prezident xahiş etdi ki, biz dəmir yolu hərəkət texnikasının – həm platformaların, həm də çənlərin istehsalına diqqət yetirək. Bizim yaxşı təcrübəmiz var. Bunları istehsal edən şirkətlərimiz, zavodlarımız mövcuddur. Bu texnikanın burada birgə istehsalını təşkil etməyə hazırıq. Kənd təsərrüfatında buraya cins mal-qara, hər şeydən əvvəl, süd məhsullarına, iribuynuzlu mal-qara ətinə tələbatı tam təmin etmək üçün tədarüklə bağlı böyük proqramlarımız var. Biz bu mal-qaranı sizə tədarük edəcəyik. Bundan başqa, Sizin azad etdiyiniz ərazilərdə xüsusən aqrar torpaqlarda Belarus təcrübəsi üzrə aqroşəhərciklər və bütün infrastrukturu yaratmağa, iş yerləri açmağa, yəni, komplekslər tikməyə, həmçinin fermer təsərrüfatları yaratmağa hazırıq. Venesueladan başlayaraq, bizim belə bir təcrübəmiz var. Amma bura Venesuela deyil, yaxındır, eyni dildə danışırıq, bir-birimizi başa düşürük. Ona görə də həmin torpaqlarda sizin üçün, ilk növbədə, iş yerləri olan aqroşəhərcik tikəcəyik. Baxarsınız, sizə uyğun olarsa, biz onların sayını artırarıq.

(ardı 3-cü səhifədə)

# “Caspian Agro” və “InterFood Azerbaijan” sərgiləri ilə tanışlıq

**Mayın 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko Bakı Ekspo Mərkəzində XVII Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı - “Caspian Agro” və XXIX Azərbaycan Beynəlxalq Qida Sənayesi - “InterFood Azerbaijan” sərgiləri ilə tanış olublar.**



Kənd təsərrüfatı naziri Məcnun Məmmədov dövlət başçılarına sərgilərlə bağlı məlumat verdi.

Bildirildi ki, Bakı Ekspo Mərkəzinin bütün dörd zalını və açıq sahəsini əhatə edən sərgilərə ümumilikdə 38 ölkədən 500-yə yaxın şirkət qatılıb. Regionun ən böyük kənd təsərrüfatı sərgisi olan “Caspian Agro” kənd təsərrüfatı texnikası, obyektləri və avadanlıqları, suvarma sistemləri, qablaşdırma, bu sahədə innovasiya texnologiyaları, heyvandarlıq, quşçuluq, istixana, yemlər, baytarlıq, bitkiçilik, gübrə, həmçinin meyvə və tərəvəzlərin yetişdirilməsi sahələrini əhatə edir. “InterFood Azerbaijan” sərgisində isə dondurulmuş qidalar və yarımfabrikatlar, qənnadı və un məhsulları, konservləşdirilmiş qidalar, ət və süd məmulatları, meyvə-tərəvəzlər, yağ məhsulları, şirələr, çay, sağlam qidalar, eləcə də meyvə-tərəvəz emalı üçün avadanlıqlar, paketlər və bir sıra digər məhsullar təqdim olunur.

Azərbaycan və Belarus prezidentləri sərgilərlə tanış oldular.

Belarus Respublikasının Milli Qrupunun qida məhsulları stendləri ilə tanış olan dövlət başçılarının diqqətinə çatdırıldı ki, stendlərdə 40-a yaxın şirkət, o cümlədən “Gomselmash”, “Brestmiasomolprom” zavodları, Slutsk pendir fabriki, Minsk süd kombinatı, Qrodno ət-qablaşdırma, Volkovysk və Mogilev ət emalı zavodları, “Belvetfarma”, “Belqospişçeprom”, “Belinterexpo”, “Bresteysky pekar”, “Bremor”, “Brestmeat”, “Brestmiasomolprom”, “Slodych”, “Spartak”, “Algon”, “Grodno azot” və digər şirkətlər öz məhsullarını təqdim edir.

**Kənd təsərrüfatı naziri Məcnun Məmmədov:** Bu il burada Belarusun ən böyük milli pavilyonu təmsil olunur.

**Belarus Ticarət və Sənaye Palatasının sədri Mixail Myatlikov:** Hər vaxtınız xeyir. İcazə verin, sərgidəki Belarus ekspozisiyasını təqdim edim. Bu il sərgidə kənd təsərrüfatı texnikasından tutmuş ət, süd, neft-kimya, qənnadı sənayesinə qədər olmaqla 40 müəssisə iştirak edir. İcazənizlə, sərgidəki pavilyonumuzla tanışlığa məhz bu ekspozisiyadan başlayaq.

Belarusun “Slodıç” qənnadı fabrikinin baş direktoru Aleksandr Neçay: Hər vaxtınız xeyir. Bu gün biz Belarus Dövlət Qida Sənayesi Konsernini təmsil edirik. Sərgidə bizim sahəyə aid 10 müəssisə, o cümlədən qənnadı sahəsinə aid 4 müəssisə iştirak edir. Buraya maraq doğuran bir sıra yeni məhsullarımızı gətirmişik. Aleksandr Qriqoryeviç, Sizin göstərişinizə əsasən tərkibində quru süd olan məmulatlar istehsal edilib və bazara çıxarılıb. Bu məhsullar peçenyelərdir. Həmçinin qənnadı fabriki yeni növ məhsullar - karamel, jeleli konfetlər təqdim edir. Bu məhsullar uşaqlar tərəfindən çox sevilir.

Həmçinin sərgidə bizim qənnadı sənayemizin ən iri istehsalçılarından biri olan “Kommunarka” da iştirak edir. O, şokolad istehsalı ilə məşğul olur. Biz bu sərgiyə şokoladlı batonların yeni seriyasını gətirmişik, həmçinin ənənəvi məhsullarımızı da təqdim etmişik. Bundan başqa, bizim “Spartak” qənnadı fabrikimiz də var. O, qənnadı sənayemizdə böyüklüyünə görə ikincidir və sərgidə yenə də tərkibində şəkər olmayan məhsullarla çıxış edir. Biz, prinsip etibarilə, əsasən şəkərsiz məhsullara üstünlük veririk.

**Prezident Aleksandr Lukaşenko:** Bizim iki qənnadı şirkətimiz var. “Spartak” və “Kommunarka” əsas şirkətlərdir, digərləri də var.

**Aleksandr Neçay:** Biz həm də tərkibində şəkər olmayan məhsul istehsal etmişik. Bu məmulat peçenyedir. Bu məhsul zülalı yaxşı həzm etməyən insanlar üçün nəzərdə tutulub. “Spartak” şirkəti də əsasən tərkibində şəkər olmayan məhsullar seriyası hazırlamağa başlayıb. Bu məhsullar müxtəlifdir, onların arasında həm vafli, həm konfetlər, həm şokoladlar, həm də digər məhsullar var.

**Məcnun Məmmədov:** Cənab Prezident, Sizə şərabçılıq və bal istehsalı üzrə ixtisaslaşmış iki ailə biznesini təqdim etmək istərdim. Onlar balı Yaponiyaya ixrac ediblər.

**Prezident İlham Əliyev:** Yaponiyaya? Afərin. Hansı rayondan?

**Sərginin iştirakçısı:** Saatlı rayonu, bizim kiçik ailə təsərrüfatımız var.

**Prezident İlham Əliyev:** Afərin.

**Prezident Aleksandr Lukaşenko:** Bunlar kiçik təsərrüfatlardır, xüsusilə bal istehsal edirlər. Afərin.

**Mixail Myatlikov:** Bazara çıxarıblar, artıq bərk pendir növünü dequstasiya üçün özləri ilə gətiriblər.

**Prezident İlham Əliyev:** Məhsullar artıq burada satılır?

**Mixail Myatlikov:** Bəli. Məhsulların yeni seriyası da məhz bərk pendir növlərindən ibarətdir. “Belneftexim” konserni, gübrələr, yağlar, qablaşdırma materialları təqdim olunur. Bu, plastik şüşələr üçün preformaların xammalıdır.

**Prezident Aleksandr Lukaşenko:** Daha doğrusu, biz neft emalı işini genişləndiririk. Neft emalı indi çox böyük perspektivə malikdir.

**Prezident İlham Əliyev:** Sizin iki zavodunuz var.

**Prezident Aleksandr Lukaşenko:** Bəli.

**Mixail Myatlikov:** “Turovski” süd kombinatı bazarda təmsil olunur. Lakin yeniləri də artıq fəaliyyətə başlayıb.

**Prezident Aleksandr Lukaşenko:** Bunlar bizim ən nəhəng müəssisələrimizdir. Ən böyük şirkət sayılır. “MTZ”, “Qomselmaş” – traktorlar və avtomobillər istehsal edir. Prezident dəfələrlə “MAZ” barədə danışıb.

**Minsk avtomobil zavodunun baş direktoru Valeri İvankoviç:** Bizdə xeyli istehsal xətti mövcuddur. Kompleks tullantıların yığılması üçün maşınlarımız var. Hesab edirəm ki, onlara böyük tələbat var. Gəncə avtomobil zavodunda biz avtomobillərin müştərək yığılması müəssisəsini yarada bilərik. Biz şassi tədarük edərik, iş yerini siz təmin edərsiniz. Sizin mütəxəssislər qurğuların yığılmasını təmin edərlər, təcrübə və biliklərdən isə birgə istifadə olunar.

**Prezident Aleksandr Lukaşenko:** Prezident bu təklifi dəstəkləyir.

**Valeri İvankoviç:** Buna görə təşəkkür edirəm. Çox sağ olun.

**Mixail Myatlikov:** Milli musiqi alətində musiqili dəstək.

**Prezident Aleksandr Lukaşenko:** Simbal. Çox gözəldir.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Mixail Myatlikov:** Bizim müəssisəmiz məşhurdur – “Santa Bremor” adlanır. Yelena, buyurun, söz sizindir.

**Prezident Aleksandr Lukaşenko:** Yaxşı şirkətdir.

**“Savuşkin produkt” müəssisənin baş direktorunun müavini Yelena Babkina:** Xoş gördük, “Bremor” şirkəti bu sərgidə 2007-ci ildən təmsil olunur. Çoxprofilli şirkət olmasına baxmayaraq, burada balıq və dəniz məhsullarını təqdim edir. Başa düşürəm ki, Azərbaycanı dəniz məhsulları ilə təəccübləndirmək çətindir. Lakin biz çalışırıq ki, tələbatın daha çox olduğu dəniz məhsullarının istehsalı ilə məşğul olaq.

**Prezident Aleksandr Lukaşenko:** Sadəcə, burada bu texnologiyalar üzrə işə başlamaq lazımdır. Sizin texnologiyalarınız yaxşıdır.

**Yelena Babkina:** Bəli, əlbəttə. Ticarət distribütorumuz da var. Şirkətimiz 2007-ci ildən bəri eyni distribütorla işləyir. Biz ticarət şəbəkələrində təmsil olunuruq, inkişaf edirik. Ötən il biz hətta 1 milyon dollar dəyərində balıq məhsulları satmağa nail olmuşuq. İki-üç ildən sonra ticarət dövriyyəmizin həcmini iki dəfə artırmağı planlaşdırırıq.

Ötən il “Savuşkin produkt” şirkəti 4 milyon 600 min dollar həcmində süd məhsulları tədarük edib. Bu il isə ilk rübün nəticələrinə əsasən, inkişaf sürətimiz əhəmiyyətli dərəcədə artıb. Biz sarı pendirlərin istehsal həcmini genişləndirməyi, təzə pendirin istehsalını planlaşdırırıq. Bu Mozzarella pendiridir. Bizdə geniş çeşiddə pendir növləri var. Azərbaycanda istehsal edilən təzə pendirdən, daha doğrusu, süzmə pendirdən tutmuş, sarı pendirə, o cümlədən uzun müddət ərzində hazır vəziyyətə gələn pendirə qədər hazırlayırıq.

**Prezident İlham Əliyev:** Biz sizin məhsulları yaxşı tanıyırıq.

**Yelena Babkina:** Bəli, “Savuşkin” və “Brest-Litovsk” ticarət markalarımız var. Bu ilin ilk rübünün nəticələrinə əsasən, biz istehsalı əhəmiyyətli dərəcədə artırmışıq. Ötən illə müqayisədə bu ilin birinci rübündə ticarət dövriyyəmiz 70 faiz artıb. Buna görə də, hesab edirəm ki, heç də pis işləmirik. Həm də xoşagələn haldır ki, insanlar sərgiyə gələrək bizim məhsulların dadına baxırlar və belə deyirlər: “Biz sizin məhsulu alırıq”. Bu, möhtəşəmdir.

**Mixail Myatlikov:** Qrodnensk vilayəti “Qrodnensk” ət kombinatı ilə təmsil olunur.

**Kombinatın təmsilçisi Veronika Romanoviç:** Biz 2016-cı ildən Azərbaycan Respublikasına hazır kolbasa məhsullarının tədarükünü həyata keçiririk. Bu il isə halal dana əti üzrə satış bazarımızı açmışıq.

**Prezident Aleksandr Lukaşenko:** Sovet İttifaqında ən yaxşı vilayət hesab olunurdu. Onlar indi də öz fəaliyyətlərini davam etdirirlər.

**Prezident İlham Əliyev:** Bunlar isə steyk məmulatlarıdır, elədirmi?

**Veronika Romanoviç:** Ev üsulu ilə hazırlanır. Bu, bizim yeni məhsulumuzdur. Ümid edirəm ki, bu məhsulları tezliklə Sizin bazara da tədarük edəcəyik. Sağ olun.

**Prezident İlham Əliyev:** Uğurlar arzu edirəm.

*

Yerli istehsal və ixracat, ailə təsərrüfatı stendi ilə tanışlıq zamanı bildirildi ki, bu stenddə “FA Valley” və “Bal10” şirkətlərinin məhsulları təqdim edilir. “FA Valley” şirkətinin istehsal etdiyi şərablar 100 faiz “Sangiovese” şərablarıdır. Şərabların hazırlanması prosesində yalnız yerli mayalardan istifadə olunur. Məhsullar başqa xarici ölkələrdə də təqdim edilir. “Bal10” şirkəti isə Azərbaycanda yerli sahibkar tərəfindən Aran zonasında yetişən biyan bitkisindən hazırlanan bal məhsulları istehsal edir. Şirkətin məhsulları Qətərdə və Malayziyada təqdim olunur.

Sərgidə yer alan şirkətlərdən biri də Azərbaycanda fəaliyyət göstərən “MAN-AGRO” MMC-dir. Şirkət kənd təsərrüfatı sahəsində bir neçə istiqamətdə yerli və xarici bazarlara çıxmağı bacarıb. Ümumilikdə 360 hektara yaxın müxtəlif çeşidli tumlu və çəyirdəkli meyvə bağlarına sahib olan şirkət həmin meyvələrin saxlanmasını və satışını, eləcə də meyvə tinglərinin yetişdirilməsini, inkişafını və yeni sortların alınmasını, ağaclar üçün gübrə və digər dərmanların satışını həyata keçirir. Fəaliyyəti ölkəmizin bütün ərazisini əhatə edən şirkətin, ümumilikdə, 10 min ton tutuma malik soyuducu anbarları var. Şirkətin ixrac istiqamətləri Rusiya, Belarus, BƏƏ, Qətər və Maldiv adalarıdır.

“Absheron Olive Garden” MMC 700 hektarlıq zeytun bağları ilə yanaşı, həm də ölkəmizdə, eləcə də bütövlükdə regionda ən böyük və müasir zeytun yağı emalı və süfrəlik zeytun məhsulları istehsalı zavodlarından ibarətdir. İllik 35 min ton xam zeytun qəbul etmək gücündə olan zavodda soyuq sıxım üsulu ilə “Extra Virgin” zeytun yağları istehsal edilir. Süfrəlik zeytun istehsalı zavodunda isə yaşıl, qara, çəyirdəkli, çəyirdəksiz, dilimlənmiş, içlikli və s. növ süfrəlik zeytun məhsullarının istehsalı üçün şərait mövcuddur. İstehsal olunan məhsullar daxili bazara çıxarılmaqla yanaşı, Rusiya, İsrail, Kanada, Türkiyə və İspaniyaya ixrac edilir.

Dövlət başçılarına Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinin stendləri haqqında da ətraflı məlumat verildi. Bildirildi ki, ölkəmizdə həyata keçirilən aqrar islahatlar kənd təsərrüfatının inkişafını gücləndirir. Bu məqsədlə dövlət tərəfindən əhəmiyyətli dəstək tədbirləri həyata keçirilir. Bu il ölkəmizin COP29-a ev sahibliyi etməsi, Prezident İlham Əliyev tərəfindən 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan olunması ilə əlaqədar sərgilərdə ətraf mühitin qorunması, yaşıl enerji, resurslardan səmərəli istifadə və orqanik istehsal prinsiplərinə əsaslanan müasir kənd təsərrüfatı istehsal vasitələrinin nümayişinə daha çox yer ayrılıb. Kənd Təsərrüfatı Nazirliyi iqlim dəyişikliyinin təsirlərini minimuma endirmək və iqlim risklərinin qiymətləndirilməsi istiqamətində fəal təşəbbüslər irəli sürür.

2014-cü ildə fəaliyyətə başlayan “Agro Dairy” MMC Azərbaycanda kənd təsərrüfatı sahəsində qabaqcıl şirkətlərdəndir. Şirkətin məqsədi müasir texnologiyaların, innovativ həllərin tətbiqi ilə Azərbaycanın kənd təsərrüfatı sektorunda köklü dəyişikliklər etməkdir. Şirkət əsasən buğda, arpa və qarğıdalı kimi dənli bitkilərin becərilməsini, həmçinin yonca və şəkər çuğundurunun yetişdirilməsini həyata keçirir.

Sonra Azərbaycan və Belarus prezidentləri Bakı Ekspo Mərkəzinin açıq sahəsindəki stendlərlə tanış oldular.

Məlumat verildi ki, “Gəncə avtomobil zavodu” İstehsalat Birliyi müxtəlif modifikasiyalı Belarus traktorları, MAZ və KamAZ markalı yük avtomobilləri, müxtəlif təyinatlı qoşqular, ekskavatorlar, xüsusi traktorlar, digər texnika və avadanlıqlar istehsal edir.

Belarus milli stendinin açıq sahədəki pavilyonunda iki şirkət - “Gomselmash” və Minsk avtomobil zavodu (MAZ) təmsil olunur. MAZ Şərqi Avropada sərnişin, xüsusi, kommunal və qoşqu avtomobillərinin istehsalı üzrə aparıcı müəssisədir. Ən böyük kənd təsərrüfatı texnikası istehsalçılarından olan “Gomselmash”ın kombaynları bir sıra ölkələrə ixrac olunur.

Azərbaycanın sərgidə təmsil olunan “Agrosystems” şirkəti aqrobiznes nümayəndələri üçün innovativ həll yolları təqdim edir. Ölkəmizdə istehsal edilən “AGROMAX 10 000 TUN” hidrosoyutma aparatı keyfiyyəti, yüksək soyutma gücü, münasib qiyməti və aşağı enerji sərfiyyatına görə dünya bazarında digər nümunələrdən fərqlənir. Soyutma gücü saatda 10 ton təşkil edən bu texnologiya sayəsində məhsulların ömrü üç dəfə artır. Meyvə və tərəvəzlərin yığılması üçün nəzərdə tutulmuş hidravlik “AGROLAF-4000” platforması 3,5 metr hündürlüyə qədər qalxır. Bu platforma 8 nəfərin iş prosesində səmərəliliyini və rahatlığını təmin etməyə imkan verir. Zədələnmədən fındıq məhsulunu toplamaq üçün yaradılmış innovativ qurğu isə fındıq yığımı prosesini daha səmərəli və sürətlə həyata keçirmək imkanı yaradır.

Qeyd edək ki, mayın 17-dək davam edəcək sərgilərin təqdimat zonasında Kənd Təsərrüfatı Nazirliyinin təşkilatçılığı ilə Beynəlxalq Aqrar İnnovasiyalar Forumu təşkil olunacaq. Həmçinin bu il ilk dəfə olaraq, “Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində Aqrar İnnovasiya Mərkəzinin təşkilatçılığı ilə “GreenAgroHack” hakaton yarışması da keçiriləcək.

# Liderlər mətbuata bəyanatlarla çıxış ediblər

(əvvəli 2-ci səhifədə)

Belə ki, bu gün Prezidentə bizim böyük sərvətimizin – meşələrimizin olduğunu söylədim. Bizdə o qədər taxta-şalban var ki... Bu, Azərbaycanda qıtdır. Bu məsələdə təbiət bizi mükafatlandırıb. Biz orada sizin üçün evlər yaratmağa hazırıq. Belarusda taxta evlər təcrübəsi geniş yayılıb. Evi hissələrlə vaqonlarda gətiririk, bir həftə ərzində bünövrəsi üzərində tikib qurtarırıq. Biz Belarusda bu cür edirik. Əgər sizə uyğun gələrsə, biz tədarük edə və sizin dirçəldilən ərazilərdə belə evlər tikə bilərik. Bir sözlə, çox böyük planımız var. Biz işləməyə davam edəcəyik.

Əczaçılığa, dərmanlara gəldikdə isə biz lap elə sabahdan sizin çox ehtiyac duyduğunuz dərmanları tədarük etməyə və burada Belarus texnologiyası əsasında dərman və preparatlar üçün birgə istehsalat qurmağa hazırıq. Bu da çox böyük proqramdır və Azərbaycanda heç kimə işləməyə mane olmur. Biz burada heç kimlə ziddiyyət yaratmırıq, hətta heç kimlə rəqabət də aparmırıq. Halbuki rəqabət olmalıdır.

Bir sözlə, çox iş görə bilərik. Həm humanitar sahədə, həm də idmanda. Siz ölkədə MDB Oyunlarını qəbul edəcəksiniz. Biz də qoşulacağıq, həm də axı bu Oyunları biz Sizinlə birgə xilas etmişik. Əgər Belarus və Azərbaycan olmasaydı, yəqin ki, bu Oyunlar artıq süquta uğrayardı. Biz onu xilas etdik. Ötən Oyunlar bizim ölkədə keçirildi, bu dəfə isə estafeti siz bizdən qəbul etdiniz. Bir vaxtlar Avropa Oyunlarının estafetini də biz sizdən qəbul etmişdik. Ona görə də, təcrübəmiz böyükdür. Sizinlə idman, səhiyyə, təhsil, o cümlədən, əvvəllər TPM adlandırdığımız texniki peşə məktəblərimizin təcrübəsi sahəsində əməkdaşlıq edəcəyik. Biz burada texniki peşə təhsili verən obyektlərin təşəkkül tapmasına və yeni əsaslarla yaradılmasına kömək etməyə hazırıq. Bizim bu sahədə təcrübəmiz böyükdür. Həm də biz onları sovet vaxtından bəri qoruyub saxlamışıq. Bu gün isə peşə ixtisaslarına həm bizim ölkədə, həm Rusiyada, həm digər MBD ölkələrində, həm də Azərbaycanda böyük tələbat var. İlham Heydər oğlu bu işlə məşğul olmağımızı bizdən xahiş edib. Biz də sizin mütəxəssislərlə birlikdə bu işi mütləq birlikdə həyata keçirəcəyik.

Bəli, biz regionlarımızda təhlükəsizlik məsələlərini müzakirə etmişik. İlham Heydər oğlu burada baş verənlərlə bağlı mənə ətraflı məlumat verdi, qeyri-sabit regiondur, Tanrıya şükür olsun ki, burada Azərbaycanın timsalında olduqca güclü, normal lider ölkə mövcuddur. Siz Qafqaz regionunu nəzarətdə saxlamağa qadirsiniz. Bu, artıq təkcə Azərbaycana görə məsuliyyət daşımaq demək deyil, Siz artıq bütün Qafqazdakı vəziyyətə cavabdehsiniz, biz - Qafqazda yaşamayan xalqlar buna çox böyük ümid bəsləyirik. Ona görə də bu, sizin üçün əlavə yük deməkdir, halbuki öz problemləriniz də var, lakin yenə də, nə etmək olar. Zaman Sizi seçib, bizdə belə deyirlər və Siz lider olaraq Qafqaz regionuna görə məsuliyyət daşıyırsınız.

Mən bizim regionda Ukraynadakı münaqişə ilə bağlı nə baş verdiyi barədə məlumat verdim. Həm də ətraflı şəkildə. Bununla bağlı qiymətləndirmələrimiz, baxış bucaqlarımız həm yaxındır, həm də üst-üstə düşür. Bizim mövqeyimizi Siz bilirsiniz. Bizə indi orada heç də asan deyil, ancaq biz orada sülh olması üçün əlimizdən gələni edəcəyik. Biz bu istiqamətdə hərəkət edəcəyik. Bu məsələdə Azərbaycanın müharibədən sonrakı quruculuqla, sülh quruculuğu ilə bağlı təcrübəsi bizim region üçün də çox vacibdir. Biz bir-birimizlə etimad əsasında söhbət edirik. Bizim nə şəxsi, nə də dövlətlərarası planda gizli sirrimiz yoxdur. Bu isə ölkələrimizin nazirlərinin də artıq bu notlar üzərində danışmağa başlamasına və danışmasına xidmət edir. Buna görə də, mən şəxsən burada səfərdə olan hökumət nümayəndələrimizdən bu ölkədən azərbaycanlı tərəfdaşları ilə quracaqları əməkdaşlıq proqramı ilə ayrılacaqlarını gözləyirəm. Xoşagələn hal odur ki, ticarət dövriyyəmiz 400 milyona yaxındır və bu gün artıq azərbaycanlı nazirlərin təşəbbüsü ilə bu rəqəmi 1 milyarda çatdırmaq niyyətindəyik. Bu, çox böyük addım olacaq. Ola bilsin ki, biz bunu iki mərhələdə həyata keçirəcəyik. Əvvəlcə ticarət dövriyyəmizin 500 milyona çatdırılmasına, il ərzində isə digər yarısını əldə etməyə müvəffəq olarıq. Müəyyən vaxtdan sonra biz bu rəqəmi 1 milyarda çatdıracağıq. Bunun üçün əlimizdən gələni edəcəyik. Əgər məsələn, Azərbaycanda da istehsal edilən məhsulu dost olmayan ölkələrdən satın alırıqsa biz heç nəyə baxmayaraq dərhal ondan imtina etməli və buradan almalıyıq. Eynilə, Azərbaycan da bizə qarşı bu cür addım atacaq. İlham Heydər oğlu, mən Sizi Belarusa dəvət edirəm.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Prezident Aleksandr Lukaşenko:** Noyabrda Sizin ölkəyə gələcəyəm, müzakirə edərik, Siz də Belarusa səfər edəcəksiniz. Bir-birimizin ölkəsinə tez-tez səfər etməyimizə baxmayaraq, danışdığımız kimi, Sizin bizim ölkəyə səfərinizi hazırlayacaq Baş nazirinizi respublikamızda görməyə şad olacağıq. Ən başlıcası isə dost kimi və mənim şəxsən dostum kimi Sizə və qardaş Azərbaycan xalqına bu ağır dirçəliş dövrünü itkilərsiz başa vurmağı və qarşınıza qoyduğunuz planları yerinə yetirməyi arzu edirəm. Əminəm ki, Siz bunu edəcəksiniz, həm də istərdim ki, tez edəsiniz, Siz bunu bacarırsınız. Siz bütün dünyaya göstərdiniz ki, Sizdən əvvəlki nəsillərin dövründə həll olunmayan ən mürəkkəb məsələləri həll etməyi bacarırsınız. Sizə xoşbəxtlik və uğur arzulayıram.

**Prezident İlham Əliyev:** Sağ olun.

# Ali qonağın şərəfinə dövlət ziyafəti verilib



**Mayın 16-da Bakıda, “Gülüstan” sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun şərəfinə dövlət ziyafəti verilib.**

Ziyafətdə Azərbaycan və Belarus musiqilərindən ibarət konsert proqramı təqdim olunub.

# Şəhidlərin xatirəsinə ehtiram



**Azərbaycan Respublikasında dövlət səfərində olan Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko mayın 16-da Şəhidlər xiyabanını ziyarət edib.**

Prezident Aleksandr Lukaşenko Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad edib, “Əbədi məşəl” abidəsinin önünə əklil qoyub.

*AZƏRTAC*

# Heydər Əliyev Fondu əməkdaşlarının təltif edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq, Heydər Əliyev Fondunun 20 illiyi münasibətilə **qərara alıram:**

Azərbaycanın ictimai və mədəni həyatında səmərəli fəaliyyətlərinə görə Heydər Əliyev Fondunun aşağıdakı əməkdaşları təltif edilsinlər:

### 3-cü dərəcəli "Əmək" ordeni ilə

Əliyeva Afət Əlixan qızı
Əliyeva Gülşən Şəfa qızı

### "Tərəqqi" medalı ilə

Abdullayev Məhəmməd İzzət oğlu
Aslanov Ceyhun Xeyrulla oğlu
Ələkbərov Rüfət Nazim oğlu
Əliyeva Ülviyyə Kamal qızı
Həsənova Ayan Hümmət qızı
Kərimov Rəşad Əziz oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 16 may 2024-cü il**

# "Azərbaycan və Rusiya: dostluğun tərənnümü"





**Moskvadakı "Qelikon-opera"nın səhnəsində "Azərbaycan və Rusiya: dostluğun tərənnümü" adlı konsert olub.**

Azərbaycanın Rusiyadakı səfirliyinin dəstəyi ilə Heydər Əliyev Fondunun təşkil etdiyi konsertdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov, Rusiya ictimaiyyətinin nümayəndələri, tanınmış mədəniyyət xadimləri, Azərbaycan diasporunun görkəmli təmsilçiləri iştirak ediblər.

Tədbiri açan Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya, Fondun Rusiya nümayəndəliyinin rəhbəri Leyla Əliyevaya, "Qelikon-opera"nın rəhbərliyinə konsertin təşkilinə görə təşəkkürünü bildirib.

Səfir deyib: "Bu yaxınlarda Bakıda 110 ölkənin iştirakı ilə ümumdünya forumu keçirilib. Rusiya Federasiyası ən böyük və yüksək səviyyəli nümayəndə heyəti ilə təmsil olunurdu. Bizim çoxlu planlarımız, çox yaxşı ideyalarımız var və əminəm ki, onlar həyata keçiriləcək".

Rusiya Prezidentinin beynəlxalq mədəni əməkdaşlıq üzrə xüsusi nümayəndəsi Mixail Şvıdkoy bu yaxınlarda Moskvada Rusiya Prezidenti Vladimir Putinin və Azərbaycan Prezidenti İlham Əliyevin görüşünü xatırladaraq deyib: "Bu görüş daha çox Baykal-Amur Magistralı layihəsinin uğurunu təmin edən insanlardan biri olan Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsinə həsr olunmuşdu. Azərbaycan torpağı bizə Mstislav Rostropoviç, Polad Bülbüloğlu, Qara Qarayev və Tahir Salahovu bəxş edib. Böyük şəxsiyyətlərimiz Azərbaycanda rus mədəniyyətini təmsil edirdilər. Bizim ortaq tariximiz var və ümid edirəm ki, ümumi gözəl gələcəyimiz olacaq".

"Azərbaycan və Rusiya: dostluğun tərənnümü" axşamı konsert proqramı ilə davam etdirilib. Tamaşaçılar "Qelikon-opera"nın səhnəsində "dostluq" məfhumunun musiqi təcəssümünü gördülər. Azərbaycan və Rusiyanın ifaçılıq sənətinin istedadlı və məşhur ustaları bəstəkarların dünyaşöhrətli əsərlərini təqdim etdilər.

Moskva səhnəsində Azərbaycanın Xalq artistləri Elçin Əzizov, Yusif Eyvazov, Dinara Əliyeva, Əvəz Abdulla, Murad Adıgözəlzadə, respublikanın Əməkdar artistləri Elnarə Məmmədova, Emil Əfrasiyab, Ramil Qasımov, İlham Nəzərov və başqaları çıxış ediblər. Onları Xalq artisti Yalçın Adıgözəlov və gənc dirijor Murtuza Bülbülün rəhbərlik etdikləri "Qelikon-opera" orkestri müşayiət edib.

Konsertdə Azərbaycan bəstəkarlarının, həmçinin Rusiya və Avropa bəstəkarlarının da əsərləri səsləndirilib. Tədbir Elçin Əzizovun və konsertin bütün iştirakçılarının ifasında Müslüm Maqomayevin "Baharlı yurdum – Azərbaycan" mahnısı ilə başa çatıb.

***AZƏRTAC***

# Tuvalu, Tonqa Krallığı və Baham Adaları Birliyi rəsmilərinin Bakı Kommünikesi

**Xəbər verildiyi kimi, mayın 13-də Tuvalunun general-qubernatoru Falani Tofinqa, Tonqa Krallığının Baş naziri Savaleni Siaosi Ofa Ki Vahafolau və Baham Adaları Birliyinin xarici işlər naziri Mitçel Frederik Audley qlobal iqlim məsələlərini, o cümlədən hər üç ölkənin COP29-la bağlı prioritetlərini müzakirə etmək məqsədilə Azərbaycanda səfərdə olublar. Prezident İlham Əliyev tərəfindən qəbul edilən nümayəndə heyəti Azərbaycanı COP29 Sədrliyi münasibətilə təbrik edərək, bu şərəfli və məsuliyyətli vəzifədə ölkəmizin səylərini dəstəklədiklərini bildiriblər.**

Coğrafi yerləşməsinə görə iqlim dəyişikliyinin təsirinə ən çox məruz qalan ölkələr sırasında olan üç dövlətin rəsmiləri görüşdən sonra Bakı Kommünikesini qəbul ediblər.

Kommünikedə COP29 Sədrliyi çərçivəsində inkişaf etməkdə olan kiçik ada dövlətlərinin üzləşdiyi problemlərə göstərilən diqqətə görə Prezident İlham Əliyevə təşəkkür bildirilir, COP29-un inklüziv, şəffaf və neytral platforma olacağına əminlik ifadə edilir.

İqlim dəyişikliyinin qaçılmaz təsirlərinin insanların yaşayışı, təhlükəsizliyi və rifahı üçün Dayanıqlı İnkişaf Məqsədlərinin, BMT-nin İqlim dəyişmələri haqqında Çərçivə Konvensiyasının və Paris sazişinin məqsədlərinin həyata keçirilməsinə birbaşa təhdid olduğu bildirilir.

İqlim davamlılığının artırılması məqsədilə sülhün, yardımın və bərpanın gücləndirilməsinin vacibliyi vurğulanaraq, bu məsələlərə Azərbaycanın inklüziv yanaşması alqışlanır.

Kommünikedə, həmçinin qlobal istiləşmə fonunda ekzistensial təhlükəsi getdikcə artan kiçik ada dövlətləri ilə COP29 çərçivəsində aparılan əməkdaşlıq və dialoq təqdir olunaraq, iqlim dəyişikliyinə qarşı dayanıqlılığın artırılması, təcili qlobal tədbirlərin görülməsi və həmrəyliyin gücləndirilməsinə çağırış edilir.

# Ulu öndər Heydər Əliyevin məzarını ziyarət

**Azərbaycanda dövlət səfərində olan Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko mayın 16-da Fəxri xiyabana gələrək xalqımızın Ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib.**



Belarus Prezidenti Ulu öndər Heydər Əliyevin məzarı önünə əklil [illegible]

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.

# Milli Məclisin Sədri Cenevrədə

**Mayın 16-da Parlamentlərarası İttifaqın İsveçrənin Cenevrə şəhərində yerləşən mənzil-qərargahında Parlament Sədrlərinin 6-cı Dünya Konfransının Təşkilat Komitəsinin 1-ci iclası işə başlayıb.**



Milli Məclisin Sədri Sahibə Qafarova iclasda çıxış edib. O deyib ki, bundan əvvəl keçirilmiş 5 konfransda beynəlxalq əməkdaşlığın parlament ölçüsünün gücləndirilməsi əsas müzakirə mövzularından biri olub. Hazırda parlament diplomatiyasının və əməkdaşlığının əvvəlki illərlə müqayisədə miqyasını genişləndirdiyini bildirən spiker parlamentlərin həm ikitərəfli, həm də beynəlxalq təşkilatlarda əməkdaşlıq etdiklərini və yeni mexanizmlər yaratdığını diqqətə çatdırıb. Bu mənada Parlamentlərarası İttifaqın çox mühüm və birləşdirici platforma olduğu qeyd edilib.

Parlamentlərarası İttifaqın, xüsusilə, BMT ilə əməkdaşlığının hazırda parlament əməkdaşlığının nə qədər əhəmiyyətli səviyyəyə gəlib çatdığının bariz göstəricisi olduğunu deyən Spiker növbəti konfransda BMT ilə Parlamentlərarası İttifaq arasında praktiki əməkdaşlığın necə gücləndiriləcəyi ilə bağlı məsələlərin nəzərdən keçiriləcəyinə əminliyini bildirib. O deyib ki, bu çərçivədə əməkdaşlığın daha sistemli, institusional və praktiki olması diqqətə alınmalıdır. Bu, təbii ki, ümumi çağırışlarla mübarizədə parlamentlərin iştirak səviyyəsini artıracaq.

BMT-də islahatların aparılmasının vacibliyini vurğulayan S.Qafarova deyib ki, dünyamızın üzləşdiyi çağırışları nəzərə alsaq, çoxtərəfli mexanizmlər birgə səylərin, həllərin irəli sürülməsində mühüm rol oynayır. Lakin biz hamımız etiraf edirik ki, bu mexanizmlər, həmçinin çoxtərəfli sistem daha güclü, daha effektiv və inklüziv olmalıdır. Təəssüf ki, bugünkü vəziyyət tələblərimizə tam cavab vermir.

İclas digər parlament sədrlərinin çıxışları ilə davam edib.

***Ə.BƏDƏLOV***
***XQ***

# Baş prokuror Düşənbədə işgüzar səfərdə

**Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Tacikistan Respublikasının Baş prokuroru Yusuf Raxmonun dəvətilə İqtisadi Əməkdaşlıq Təşkilatına (İƏT) üzv dövlətlərin baş prokurorlarının 5-ci iclasında iştirak etmək məqsədilə Düşənbə şəhərində işgüzar səfərədir.**



Səfər çərçivəsində nümayəndə heyətlərinin rəhbərləri Tacikistan Prezidenti Emomali Raxmon tərəfindən qəbul ediliblər.

Sonra İƏT-ə üzv dövlətlərin baş prokurorlarının 5-ci iclası keçirilib. Tacikistanın Baş prokuroru Yusuf Raxmon qonaqları salamlayaraq tədbirin əhəmiyyətini və beynəlxalq əməkdaşlığın mahiyyətini qeyd edib.

Baş prokuror Kamran Əliyev çıxışında Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən hüquq islahatları çərçivəsində prokurorluq orqanlarının fəaliyyətinin müasirləşdirilməsi istiqamətində aparılan köklü islahatlar barədə danışaraq terrorçuluğa və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə mövzusunda çıxış edib. Ölkəmizin terrorçuluğa qarşı mübarizə üzrə mövcud 12 beynəlxalq konvensiyaya qoşulduğunu, həmçinin milli qanunvericiliyin mövcud beynəlxalq standartlara uyğunlaşdırıldığını bildirib.

Eyni zamanda, Kamran Əliyev cari ilin sentyabr ayında ölkəmizin Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu İllik Konfransı və Ümumi Yığıncağına, noyabr ayında isə dünyanın ən mötəbər beynəlxalq tədbirlərindən biri olan BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına - COP29-a ev sahibliyi edəcəyini bildirib.

Yüksək səviyyəli iclasda İƏT-in Baş katibi, Türkiyə, Özbəkistan, İran, Qazaxıstan, Tacikistan, Pakistan, Qırğızıstan, Türkmənistan və qonaq qismində dəvət olunmuş Səudiyyə Ərəbistanı Krallığının prokurorluq orqanlarının rəhbərləri iştirak ediblər.

# Azərbaycan XİN: Fransa qarayaxma kampaniyasını dayandırmalıdır

**Fransa tərəfinin Azərbaycana qarşı təhqiramiz ifadələrini bir daha qətiyyətlə pisləyir və ermənilərin kütləvi şəkildə qətlə yetirilməsi kimi qəbuledilməz ittihamlarla ölkəmiz əleyhinə apardığı qarayaxma kampaniyasını dayandırmağı tələb edirik.**

Bu sözlər Xarici İşlər Nazirliyinin Mətbuat xidmətinin rəhbəri Ayxan Hacızadənin Fransanın daxili işlər naziri Jeral Darmanənin mayın 16-da "France-2" telekanalına müsahibəsində Azərbaycana qarşı səsləndirdiyi iddialara dair şərhində yer alıb.

Ayxan Hacızadə bildirib ki, Jeral Darmanənin ölkəmizə qarşı və Azərbaycanla Yeni Kaledoniyanın müstəqillik tərəfdarlarının liderləri arasında iddia olunan münasibətlərə dair səsləndirdiyi növbəti əsassız fikirləri tamamilə rədd edirik.

Fransanın daxili işlər naziri Azərbaycanı Yeni Kaledoniyada müstəqillik tərəfdarının etirazlarını dəstəkləməkdə ittiham etmək əvəzinə, ölkəsinin bu cür etirazlara səbəb olan dənizaşırı bölgələri ilə bağlı uğursuz siyasətinə diqqət yönəltməlidir.

"Biz bir daha Fransanı ölkəmizə qarşı əsassız iddiaları dayandırmağa çağırırıq", - deyə A.Hacızadə vurğulayıb.

# Bakı Təşəbbüs Qrupu və 14 hərəkatın Yeni Kaledoniyaya dəstəyi

**Bakı Təşəbbüs Qrupu və Fransanın son koloniyaları olan Kanaki (Yeni Kaledoniya), Maohi Nui (Fransız Polineziyası), Fransız Qvianası, Martinika, Qvadelupa və Korsikada müstəqillik uğrunda mübarizə aparan 14 siyasi hərəkat birgə bəyanat yayıb.**

Bəyanatda Fransa hökumətinin Yeni Kaledoniyada seçki kütləsinin genişləndirilməsinin lehinə qanunsuz dəyişikliyin zorla tətbiq edilməsi pislənilib, müstəqillik uğrunda ədalətli mübarizəsində kanak xalqına tam dəstək ifadə olunub.

Sənəddə Yeni Kaledoniyanın bu gün od-alov içərisində olması, o cümlədən son günlər ərzində 150-yə yaxın insanın həbs edilməsinin və 3 nəfərin qətlə yetirilməsinə görə məsuliyyətin Fransa hökumətinin üzərində olduğu vurğulanır.

Eyni zamanda, Fransaya müstəmləkə siyasətini dayandırmaq və Kanak xalqına öz taleyini sərbəst həll etmək, beynəlxalq ictimaiyyətə isə kanak xalqının azlığa çevrilməsinə aparan bu iyrənc müstəmləkəçilik təcrübəsinə göz yummamaq üçün çağırış edilir.

Bəyanata qoşulanlar həyəcan təbili çalaraq BMT Təhlükəsizlik Şurasının toplaşaraq Fransa tərəfindən beynəlxalq hüququn pozulmasının pislənilməsini tələb ediblər.

# Ermənistanın ekoloji cinayətlərini əks etdirən xəritə

**Ermənistanın qanunsuz dağ-mədən sənayesi əleyhinə mübarizəyə qalxan QHT-ləri birləşdirən "Environmental Protection First" Koalisiyası mayın 16-da Bakı Biznes Mərkəzində "Ermənistan Respublikasının mineral xammal resursları" adlı xəritəni ictimaiyyətə təqdim edib.**

Koalisiyaya daxil olan "Azərbaycan Kartoqrafları" İctimai Birliyi xəritəni Azərbaycan, ingilis və erməni dillərində hazırlayıb. Kartoqrafik əsər layihəsinin donoru Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyidir. Ekoloji vəsait Ermənistanın dağ-mədən sənayesinin ətraf mühitə mənfi təsirlərini ifşa etmək üçün mühüm məlumatları əks etdirir. Xəritədən aydın görünür ki, qonşu ölkənin ətraf mühitə ən çox zərər vuran əsas dağ-mədən sənayesi müəssisələri bilərəkdən Qərbi Zəngəzur bölgəsində - Azərbaycan ilə həmsərhəd, transsərhəd çaylara yaxın ərazilərdə cəmləşdirilib.

Mərasimində "Azərbaycan Kartoqrafları" İctimai Birliyinin sədri Müqabil Bayramov, bildirib ki, Ermənistan Espoo Konvensiyasından irəli gələn öhdəliyinə əsasən, transsərhəd ərazilərdə həyata keçirilən mədən işlərinə görə Azərbaycan dövlətindən icazə almalıdır. "Environmental Protection First" (EPF) Koalisiyasının həmtəsisçisi, Sahibkarlığa və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondunun sədri Sabit Bağırov, Geologiya və Geofizika İnstitutunun şöbə rəhbəri, Tələt Kəngərli, "AzerGold" QSC-nin İdarə Heyəti sədrinin geoloji məsələlər üzrə müşaviri Şahbəddin Musayev, Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında İctimai Şuranın sədri Amin Məmmədov, Tarix və Etnologiya İnstitutunun elmi işçisi Nazim Mustafa Ermənistanın sənaye müəssisələrinin ölkəmiz üçün törətdiyi kəskin ekoloji təhlükənin müxtəlif yönlərini açıqlayıblar, yeni xəritənin bu cinayəti ifşa etməkdə gərəkli vəasait olduğunu qeyd ediblər.

QHT-lər Ermənistanın dağ-mədən sənayesi müəssisələrində ekoloji monitorinqlərin aparılmasını vacib sayıblar. "Environmental Protection First" Koalisiyası bəyan edib ki, Ermənistanın və digər xarici ölkələrin ekologiya və səhiyyə sahəsində fəaliyyət göstərən vətəndaş cəmiyyəti təşkilatları, beynəlxalq qurumlarla birgə Ermənistanın dağ-mədən müəssisələrində ekoloji monitorinqlər aparmağa hazırdır.

***XQ***

# AMEA-nın yeniləşmə kursu: dövlətçilik və müasirlik kontekstində

## (fəlsəfi yanaşma)

IV MƏQALƏ



Əlbəttə, Azərbaycanda elm adamları arasında ünsiyyət həmişə olmuşdur və onlar ümumilikdə bir-birinin əsərlərini oxuyurlar. Eyni zamanda, indi aktual olan bu prosesin sistemləşdirilməsi, məqsədyönlü olması və Azərbaycan elmində məktəblərin inkişafını təmin etməyin optimal üsullarının tapılmasıdır. Çünki elmi fəaliyyət həm dünya miqyasında getdikcə daha çox kollektiv yaradıcı komanda kimi inkişaf edir, həm də AMEA-nın yeniləşmə kursunun mahiyyəti daha çox müxtəlif elm sahələri arasında əlaqələrin yeni səviyyəyə yüksəldilməsini tələb edir. Bunun sırf elmi idrakın daxili inkişaf məntiqi ilə sıx bağlılığı vardır. Lakin burada həm də AMEA-nın tədqiqat strategiyasını ölkənin strateji inkişaf kursu çərçivəsində müəyyən etməsi ciddi rol oynayır. Bu məqsədə çatmağın yolu həm ayrı-ayrı elm sahələrinin özlərində, həm də müxtəlif elm sahələrinin qarşılıqlı əlaqəsində elmi təcrübələrin paylaşılmasının ciddi yer tutması ilə əlaqəlidir.

Məsələnin bu aspektinin aktuallığı AMEA Rəyasət Heyətinin son iclasında müzakirə olunan mövzuların fonunda daha aydın görünür. İclasda AMEA-nın gələn il olacaq 80 illik yubileyi ilə bağlı məsələlər müzakirə olunmuşdur.

### Yubiley qarşısında

AMEA prezidentinin məruzəsindən aydın olur ki, təşkilat qarşıdakı yubileyə elmi tədqiqatlarda və elmi-təşkilati işlərdə yeniliklərlə hazırlaşır. Burada tədqiqat institutlarında həyata keçirilən struktur dəyişiklikləri və idarəetmədə təkmilləşdirilmə prosesinin aparılması ilə yanaşı, Azərbaycan elmində böyük xidmətləri olmuş alimlərin yaradıcılığına həsr edilmiş tədbirlərin keçirilməsi də ciddi yer tutur. Bunlarla yanaşı, AMEA-nın 80 illik fəaliyyətinin müxtəlif aspektlərinin araşdırılmasına həsr edilmiş əsərlərin hazırlanması planlaşdırılmışdır.

Bu proseslərin AMEA-da strukturlaşma və idarəetmənin inkişaf etdirilməsi fonunda həyata keçirilməsi də maraq doğurur. Məsələn, AMEA prezidenti təşkilatda elmi fəaliyyətin nəticələrinin elektron formada ifadəsi sayəsində dünyanın müxtəlif elm mərkəzləri ilə əlaqələrin yeni səviyyəyə yüksəldilməsinə ciddi fikir verir. Bu prosesi şərti oalarq "Elektron Akademiya", "Elektron elm" və "Elektron kitabxana" adlandırsaq, bütövlükdə, elmi fəaliyyətin təşkilinin dünya standartlarına uyğun həyata keçirməsini görərik. Deməli, AMEA-nın fəaliyyəti vaxtında dünya elmi dairələrinə aydın olacaq və bu da, şübhəsiz ki, Azərbaycan elminin dünya elminə inteqrasiyasına yeni təkan verəcək.

Bununla yanaşı, AMEA müxtəlif elm mərkəzləri ilə əlaqələrin inkişafına diqqəti daha da artırmağı qərarlaşdırıb. Məsələn, Türkiyənin TÜBİTAK təşkilatı ilə əməkdaşlıq artıq yeni səviyyəyə yüksəldilir – Azərbaycan elmi jurnallarının beynəlxalq indeksləşməsini ortaq həyata keçirmək kimi maraqlı proqram həyata keçirilir. Bu, Azərbaycan alimlərinin daxili jurnallarda elmi məqalələrinin dərc olunması prosesinə yeni stimul verəcəkdir.

AMEA rəhbərliyinin nəzərdə tutduğu digər məsələ təşkilatın 80 illiyinə həsr ediləcək konfransların, "dəyirmi masa"ların, yubileylərin, xarici elmi təşkilatlarla müxtəlif mövzulara həsr edilmiş elmi tədbirlərin keçirilməsi ilə bağlıdır. Bu da olduqca vacib addımdır, çünki Azərbaycan alimlərinin elmi təcrübələri paylaşmaq imkanları xeyli artır, ayrı-ayrı elm sahələrinin aparıcı tədqiqatçıları ilə ünsiyyət imkanları genişlənir.

Həmin kontekstdə dünyada tanınmış alimlərlə, o cümlədən, Nobel mükafatına layiq görülmüş yaradıcı insanlarla birbaşa görüşlərin təşkil edilməsi çox təqdirəlayiqdir. Bununla bağlı AMEA prezidenti, akademik İsa Həbibbəylinin tanınmış türk alim, Nobel mükafatı laureatı Əziz Səncəri AMEA-ya dəvət etməsi və onunla bir neçə gün gənc alimlərin ünsiyyətdə olmasının planlaşdırılması kollektiv tərəfindən xüsusi razılıqla qarşılanmışdır.

Nəhayət, AMEA Rəyasət Heyətinin son iclasında qurumun 80 illik yubileyi ərəfəsində bir neçə Azərbaycan aliminin yubiley tədbirlərini keçirməklə bağlı hazırlanmış proqram diqqəti çəkir. Orada ardıcıl olaraq müxtəlif elm sahələrində çalışmış alimlərimizin yaradıcılığı ilə tanışlığın nəzərdə tutulması çox vacibdir.

Bu faktları vurğulamağımız bir qədər standart və hesabat xarakterli görünə bilər. Lakin belə deyildir. Çünki həmin faktlar AMEA-nın yeniləşmə kursunun çox vacib bir istiqaməti – elmi fəaliyyətin təşkili və Azərbaycan tədqiqatçılarının aldıqları nəticələrin beynəlxalq miqyasa zamanında çatdırılmasının fəlsəfi dərki ilə əlaqəlidir. Ayrıca, AMEA rəhbərliyinin yeniləşmə prosesi çərçivəsində həyata keçirməyi nəzərdə tutduğu elmi fəaliyyət və araşdırma proqramlarının ölkənin stareji inkişaf kursu ilə bağlılığının fəlsəfəsi xüsusi əhəmiyyət kəsb edir. Nəhayət, bu məsələlərin adekvat təhlili AMEA-nın maliyyələşməsində ciddi yeniliklərin olması zərurətini aydınlaşdıracaqdır.

### Elmin "elektronlaşdırılması"

"Elektronlaşdırma" məcazdır. Hələ XX əsrin ikinci yarısında Marşal Maklüyen "elektron mədəniyyət" növündən bəhs edirdi. Bu ifadə rəqəmsallaşma, İnternet və kompüterləşmənin cəmiyyətlərin həyatına geniş və dərindən daxil olması ilə kommunikasiyanın yeni növünün meydana gəlməsini əks etdirir. Kommunikasiyanın bu yeni növü sürətlə elm sahəsinə tətbiq edildi. İndi beynəlxalq indeksləşmiş jurnallar statusunda olan elmi dərgilər məhz bu proses nəticəsində vahid informasiya-təbliğat sistemində birləşdirildi.

Hazırda dünya üzrə elmi fəaliyyət və onun nəticələrinin paylaşılmasının kommunikasiya aspekti əsas olaraq kollektiv kommunikasiya yolu ilə baş verir. Bu zaman, tədqiqatın təşkili ilə alınan nəticələrin birbaşa tətbiqi məsafəsi zamanca çox qısalmışdır. Məzmunca təşkil etməklə tədqiqat yaradıcılığı, demək olar ki, birləşmişdir. Ona görə də alınan biliyin məzmunu elmi fəaliyyətin təşkili və təşviqi ilə birbaşa bağlıdır.

Çox dərinə getməyək. Alınan nəticə belədir: müasir mərhələdə hansısa ölkənin elmi camiyəsi dünya miqyasında yerini tutmaq istəyirsə, mütləq elmi fəaliyyətin təşkilini və araşdırma-yaradıcı prosesin özünü, alınan biliklərin ifadə və təqdimat formasını "elektronlaşdırmalıdır". AMEA rəhbəri məhz məsələnin bu tərəfini Rəyasət Heyətinin son iclasında israrla vurğuladı. Burada "elektronlaşma"nın taktikası, strategiyası, reallaşma metodları ilə gözlənilən nəticələrin əlaqəsinin fəlsəfi-sinergetik izahı maraqlı olardı.

Ümumi səviyyədə elmin və ya akademiyanın elektronlaşması avtomatik olaraq elmi kitabxananın da elektronlaşmasını tələb edir. Çünki informasiyaların əlçatanlığını ancaq elektron kitabxana vaxtında və dolğun təmn edə bilər. Bu məqam AMEA rəhbərliyi tərəfindən ciddi surətdə nəzərə alınır.

Elektronlaşma elmi tədqiqatın təşkili ilə yanaşı, yaradcılığın ümumi mənzərəsini və onun müxtəlif yeniləşmə ssenarilərini görməyə geniş imkanlar verir. Dünya elmi praktikasında bu məqsədlə kifayət qədər modellər qurulmuşdur. Həmin üsulla AMEA elmin təşkili ilə tədqiqatın aparılmasının prioritet istiqamətlərini dinamik olaraq həm müəyyənləşdirə, həm də çevik yeniləşdirə bilər.

Elektronlaşma Azərbaycanda alimlərin elmi yaradıcılığının nəticələrini paylaşmaqda keyfiyyət dəyişikliyi edəcəkdir. Buna şübhə yoxdur. Çünki vahid kommunkasiya məkanının rəqəmsal forması avtomatik olaraq hər hansı elmi informasiyanı almağa şərait yaradacaqdır. Bu da elmi biliklərin yaradılması ilə onların paylaşmasını vahid sistemə birləşdirməyə və sürətli paylaşmağa baza yaradacaqdır.

Nəhayət, elektronlaşma AMEA-nın beynəlxalq miqyasa elmi çıxışını aniləşdirəcəkdir. Burada aparılan tədqiqatlar və alınan nəticələr sistemə bağlı olan istənilən subyektə anında çatacaqdır. İndi biz Bakıda Avstraliya, Cənubi Amerika və ya Yaponiyada aparılan tədqiqat haqqında necə sürətli xəbərdar ola biliriksə, AMEA sistemli şəkildə bu prosesin Azərbaycan alimlərinə də aid olmasını təşkil edir. Bu, həqiqi mənada yeniləşmənin mühüm bir aspektidir. Son zamanlar Azərbaycan alimlərinin beynəlxalq elektron şəbəkədə əsərlərinə tez-tez rast gəlirik və maraqla tanış oluruq. Həmin prosesdə AMEA-nın elektron elm yaratmaq xətti həlledici rol oynamaqdadır! Bu məqamı təşkilatın yeniləşməsinin elmi tərəfinin vacib bir istiqaməti kimi qəbul edə bilərik! Onun başqa bir əhəmiyyətli aspekti də mövcuddur.

### Elm mərkəzləri ilə əlaqələr

İndi hər bir elmi təşkilat üçün başqa təşkilatlarla əlaqələr strateji xarakter daşıyır. AMEA-nın yeniləşmə kursunda bu istiqamət prioritetlərdən biridir. Müşahidələr göstərir ki, AMEA rəhbərliyi bu məsələyə iki aspektdə yanaşır. Birincisi, sırf elmi inkişaf kontekstidir. Burada, bütövlükdə, elmi araşdırmaların daha təkmil olması üçün təcrübə paylaşımı ön sıradadır. İkinci aspekt elmi əlaqələrin inişafı nəticəsində alınan nəticələrin ölkənin strateji inkişaf kursuna xidmətə istiqamətləndirməklə bağlıdır.

AMEA bu prosesi həm yeni səviyyəyə yüksəltmişdir, həm də ona konkret istiqamət və məzmun vermişdir. Bu o deməkdir ki, kimsə AMEA-nın öncəki dövrlərdə beynəlxalq əlaqələrinin olduğuna şübhə etmir. Əksinə, bu, daim olmuşdur. Lakin burada əsas məsələ işin təşkili və elmi məqsədlə yanaşı, əlaqələrə elə məzmun verməkdən ibarətdir ki, bütövlükdə, Azərbaycanın strateji inkişafına uyğun olsun.

Bu tezisin işığında AMEA-nın ilk növbədə türk dövlətlərinin elmi təşkilatları ilə daha sıx əlaqələrə və sonrakı mərhələdə inteqrasiyaya çalışması nümunəvi seçimdir. AMEA-nın Türkiyəni beynəlxalq sistemlərə bağlı olan elmi təşkilatlar ilə əlaqələri yenidən qurması digər türk dövlətləri üçün də bir səsləniş, dəvət və əməkdaşlıq modelidir. Azərbaycan siyasətdə və iqtisadiyyatda olduğu kimi, elmdə də Türk dünyasının inteqrasiyasının aparıcı ölkəsidir! Ancaq beynəlxalq elmi əlaqələr əsla bununla məhdudlaşmır.

Əksinə, həmin sistem vasitəsilə dünyanın bütün ölkələri üzrə elmi əlaqələrin yeni səviyyəsinə çıxış əldə etmək işi sürətlənir. Deməli, AMEA-nın yeniləşmə kursunda beynəlxalq elmi əlaqələrin sürətlənməsi ayrıca yer tutur. Bu məqamda bir daha AMEA-da elmi fəaliyyətın təşkilinin və tədqiqatların nəticələrinin paylaşılmasının elektronlaşmasının əhəmiyyəti və aktuallığı aydın olur. Şübhə yoxdur ki, digər istiqamətlərlə yanaşı, bu aspekt də AMEA-nın 80 illik yubileyinə yaxşı bir töhfə olacaqdır.

Müxtəlif elmi mərkəzlərlə əlaqələrin genişlənməsi, dərinləşməsi və yenidən məzmunlaşması kontekstində Azərbaycan elmi jurnallarının beynəlxalq indeksləşməsinin Türkiyə ilə ortaq həyata keçirilməsi vacib bir yenilikdir. Eyni zamanda, Azərbaycan elminin dünyada daha yüksək səviyyədə tanıdılması üçün yeni fürsətdir.

**(ardı var)**

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

# Türk–erməni münasibətlərində tarixi gerçəklər

I YAZI

Bu gün Ermənistanla Türkiyə arasında münasibətlərdən danışarkən bəzi tarixi gerçəkləri diqqətə çatdırmaq önəmlidir. Necə oldu ki, tarixi Azərbaycan torpaqlarında erməni dövləti ortaya çıxdı? Ermənilərin belə bir düşüncəsi var idimi? Bu dövlətin ortaya çıxmasında hansı maraqlar rol oynadı? 1917-cil il Rus inqilablarının və Birinci Dünya müharibəsi dövrünün gəlişmələrinə nəzər salsaq, Cənubi Qafqazda ermənilərə aid bir dövlət yaratmaq planının yalnız həmin siyasi olayların nəticəsində baş verdiyini görə bilərik. Ona qədər erməni siyasi fikrində və düşüncəsində burada bir dövlət qurmaq planı olmamışdı. Öndə gələn erməni siyasi təşkilatları Şərqi Anadolu ərazilərində bir dövlətə sahib olmaq mübarizəsi verirdilər. Rusiya da bu ideyaya dəstək verirdi.

Erməni İnqilabçı Federasiyası (EİF) - Daşnaksutyun üzvü Ruben Ter-Minassyan yazır ki, 1917-ci ilə qədər heç bir erməni partiyası İrəvan quberniyasını Rusiyadan ayırıb Ermənistana çevirməyə çalışmamışdı. Onun sözlərinə görə, Ararat Ermənistanının yaradılması ideyası erməni partiyaları, ümumilikdə erməni xalqı tərəfindən Rusiyada, yəni Cənubi Qafqazda deyil, Türkiyədə qurulması planlaşdırılırdı. 1914-cü ildə Ərzurumda keçirilən Daşnaksutyun Partiyasının Konqresi zamanı mərkəzi Eçmiadzin olan Ermənistanın yaradılması təklif edilsə də, ermənilər Şərqi Anadoluda bir dövlət istəyirdilər. Bu Konqresdə "İttihat və Tərəqqqi" üzvləri Bahaəddin Şakir, Ömər Naci və Hilmi bəy iştirak etmişdilər.



Mayın 28-i Ermənistanın müstəqilliyinin elan edildiyi və ya Ermənistan Respublikasının yarandığı gün hesab olunur. Amma həmin gün ermənilər müstəqil dövlət elan etməkdən çəkinir və bu addımı atmağa qorxurdular. Çünki varlığı çox qısa müddət sürən Zaqafqaziya Federativ Respublikasına daxil edilən və "ermənilərə aid edilən ərazilərdə" erməni əhali azlıqda idi və belə bir əraziyə iddia etmək gələcək dövləti burada yaratmaq çətinliyi yaradacaqdı.

1918-ci il mayın 26-da Tiflisdə Zaqafqaziya Seymi (ermənilərin, gürcülərin, müsəlmanların (indiki Azərbaycan türklərinin) parlament-qanunverici orqanı son iclasını keçirdi və burada gürcü menşeviklərinin Zaqafqaziya Federativ Respublikasının buraxılması təklifi qəbul edildi. Həmin gün axşam saatlarında Gürcüstan Milli Şurası Gürcüstanın müstəqilliyini elan etdi. Mayın 26-da səhər bir neçə həftə mövcud olmuş Zaqafqaziya Federativ Respublikası ləğv edildi. Həmin gün Gürcüstan və iki gün sonra Azərbaycan Demokratik Respublikası elan olundu. Ermənilər eyni addımı atmağa tərəddüd etdilər. Ermənistanın sonuncu baş naziri Simon Vratsyan yazır ki, gürcülərin davranışı ermənilər üçün dəhşətli vəziyyət yaratdı. Ermənilər gürcülərin davranışlarında özlərinə qarşı məkrli sui-qəsd və xəyanət görürdülər. Vratsyan yazır ki, mayın 26-da axşam Tiflisdəki Erməni Milli Şurası böyük səs çoxluğu ilə Gürcüstanın müstəqilliyinə etiraz etmək qərarına gəldi.

Tiflisdəki Erməni Milli Şurası yalnız 1918-ci il mayın 30-da "müstəqillik" və "respublika" sözlərini qeyd etmədən Ermənistanın müstəqilliyini elan etdi. Mayın 26-da keçirilən sessiyada iştirak edən EİF-Daşnaksutyun üzvləri Avetis Aharonyan, Artaşes Babalyan, Ruben Ter-Minasyan, Sosialist İnqilabçılar və heç bir partiyaya bağlı olmayanlar müstəqilliyin qəti əleyhinə çıxmışdılar. Simon Vratsyanın fikrincə, Tiflisdəki Erməni Milli Şurası Ermənistanı müstəqil elan etməyə məcbur olub, "çünki o vaxt müstəqillik hamı tərəfindən dəhşətli perspektiv idi, erməni xalqını türklərə tabe etmək təhlükəsi kimi qəbul edilirdi".

Ermənistan Respublikasının elan edildiyi müstəqillik haqqında bəyannamə qısa bir mətndən ibarətdir. Hələ biz onu demirik ki, bu ərazilərə gəlib yerləşmiş erməni hərbi birlikləri də buna qarşı kəskin olaraq qarşı çıxırdılar. Onlardan biri də Andranik idi.

Həmin dövrdə bölgədə əsas söz sahibi Osmanlı dövləti idi. Mayın 28-də Erməni Milli Şurası ciddi müzakirələrdən sonra Osmanlı imperiyası ilə Ermənistan adından danışıqlar aparmaq və sülh bağlamaq üçün Batuma nümayəndə heyəti göndərmək qərarına gəldi. Beləliklə, Osmanlı Türkiyəsi ilə Ermənistanın ilk münasibətlərinin təməlləri atıldı.

1918-ci il mayın ortalarında Batumda başlayan danışıqlar zamanı erməni nümayəndələrə aydın idi ki, gürcülər Osmanlı imperiyası ilə sülh bağlamaqdan əlavə, onlardan müstəqilliklərini dəstəkləmələrini də xahiş edəcəklər. Batumda erməni nümayəndələrindən biri olan Aleksandr Hatisyan Gürcüstan lideri Noy Jordaniyaya dostlarını çətin zamanda qoyub getməyin yaxşı iş olmadığından şikayət edəndə, Gürcüstanın gələcək baş naziri belə cavab vermişdi: "Əgər siz aşağı yuvarlanırsınızsa, biz sizinlə enmək məcburiyyətində deyilik".

Vratsyan öz xatirələrində yazır: "1918-ci ilin mayında türklər İrəvanı və bütün Ermənistanı tuta bilərdilər, lakin bunu etmədilər, əksinə, iyunun 4-də Batumda yeni yaradılmış Ermənistan hökumətinin nümayəndələri ilə sülh müqaviləsi imzaladılar, beləliklə de-fakto Ermənistanın müstəqilliyini tanıdılar... Beləliklə, biz tarixin acı ironiyası ilə qarşılaşdıq, türklər Ermənistanın müstəqilliyinin ilk beynəlxalq səviyyədə tanınmasına nail oldular", əslində türklər Zaqafqaziyanın müstəqilliyini istəyirdilər ki, bölgə Rusiyadan ayrılsın və onlarla ruslar arasında bufer zonaya çevrilsin. Ermənistanla aparılan sonrakı danışıqlarda Osmanlı dövləti də, TBMM hökuməti də qonşuluq prinsiplərindən çıxış etməyə, yaranan mübahisələri həssaslıqla həll etməyə çalışmışdı. Erməni nümayəndələri ilə görüşdə Tələt paşa Ermənistanın 9 min kvadratkilometlik ərazidə elan olunmasını onların sərhədlərini genişləndirmək üçün səy göstərmələrinə, Türkiyə üçün əbədi təhlükəyə çevrilmələrinə səbəb olacağını bilirdi. Hatisyan kitabında yazır: "Tələt paşanın nöqteyi-nəzəri doğru çıxdı, türklər kiçik Ermənistan yaratdılar. Bundan sonra bir gün Ənvər paşa mənimlə görüşəndə öyünərək dedi: "Çox çətin bir məsələni həll etdim, Ermənistanı mən yaratdım, ermənilərin milli tələblərini yerinə yetirdim..."

Erməni Milli Şurası 28 mayda müstəqilliyini elan etməklə Türkiyənin daha öncə verdiyi ultimatumunu qəbul etmiş hesab edildi. Amma sual yaranırdı: ultimatumu kim qəbul edir, Ermənistan Milli Şurası, yoxsa Milli Şuradan ibarət Ermənistan hökuməti? Türkiyənin ultimatumu iki əsas maddədən ibarət idi: Ermənistanın müstəqilliyinin elan edilməsi və danışıqlar üçün Batuma nümayəndə heyətinin göndərilməsi. Tələblər yerinə yetirilmişdi. Həmin gün, yəni mayın 28-də Hatisyan, Kaçaznuni və Papacanyan Ermənistanın nümayəndələri kimi Batuma gedib türklərlə görüşdülər. Bu danışıqların nəticəsi olaraq iyunun 4-də ermənilərlə türklər arasında Barış və Dostluq Müqaviləsi imzalandı. Erməni tərəfdən onu EİF üzvləri Hovhannes Kaçaznuni və Aleksandr Hatisyan və Xalq Partiyasının üzvü Mikael Papacanyan imzaladılar.

Az sonra Osmanlı İmperiyasının İrəvanda səfirliyi, Gümrüdə isə konsulluğu açıldı. 1920-ci ildə Ermənistanın sovetləşməsinə baxmayaraq, türklər 1923-cü ilin oktyabrına qədər İrəvandakı səfirliyini, 1925-ci ilə qədər isə Gümrüdəki konsulluğu saxladılar. Öz növbəsində Ermənistanın İstanbulda diplomatik nümayəndəliyi var idi. Osmanlı İmperiyası Birinci Dünya müharibəsində məğlub olana qədər İrəvan və İstanbul bir-birləri ilə normal münasibətlərdə idilər.

Ermənistan tez-tez kömək üçün türklərə müraciət edirdi. Belə ki, 1918-ci ilin avqustunda Xəlil paşa Tiflisdən İrəvana gələndə onu daxili işlər naziri Aram Manukyanın evində baş nazir Hovhannes Kaçaznuni qonaq edib. Vandan Xəlil paşanı tanıyan Aram özü onun vasitəsilə aclıqdan əziyyət çəkən Ermənistan xalqı üçün buğda gətizdirə bildi. Xəlil paşanı o zaman Eçmiadzində bütün ermənilərin katolikosu qəbul etmişdi.

Həmin ilin iyun-oktyabr aylarında böyük bir erməni heyəti İstanbulda Osmanlı dövlətinin rəsmiləri ilə təmaslar qurdular, sentyabrda İstanbuldakı erməni nümayəndə heyəti Ənvər paşa və Tələt paşa vasitəsilə çalışdı ki, Azərbaycan Ermənistana neft və buğda göndərsin.

Erməni-türk münasibətləri hətta TBMM hökuməti dövründə də davam etdi. Lakin artıq 1920-ci ilin payızında Türkiyə-Ermənistan müharibəsi ilə bu diplomatik əlaqələr dayandırıldı. Kazım Qarabəkir paşanın başçılığı ilə türk qoşunları erməni işğalı altında olan Qarsı, daha sonra Aleksandropolu, indiki Gümrü şəhərini bir neçə həftə ərzində azad etdilər. 1920-ci il dekabrın 2-dən 3-nə keçən gecə Ermənistan artıq sovetləşəndə bir tərəfdən Aleksandr Xatisyan, digər tərəfdən Kazım Karabəkir paşa Aleksandropol paktını imzaladılar. Bu, iki ölkə arasında ilk müqavilə olmaqla yanaşı, Ermənistanın kapitulyasiya aktı kimi tarixə düşdü.

1921-ci ilin martında Moskva, oktyabrında Qars müqaviləsi imzalandı və bir il sonra ratifikasiya olundu və bu müqavilə ilə Ermənistan və Türkiyənin indiki sərhədləri çəkildi. SSRİ dövründə erməni- türk əlaqələri artıq mərkəzi sovet hakimiyyətinin nəzarətində idi.

*Qafar ÇAXMAQLI,*
*XQ-nin Türkiyə müxbiri*

# Edipşünas Makron, Yeni Kaledoniya və fransız neokolonializmi

## *Parisin müstəmləkəçilik siyasətindəki müasir və tarixi aspektlər*

**Psixoanaliz nöqteyi-nəzərindən Edip kompleksi kimi xarakterizə edilən bir durum var. Lakin burada söhbət Edip kompleksinin cəmiyyətin norma və nizamına meydan oxumasındakı əzmin dövlət siyasətinə çevrilməsindən gedir. Bu mənada E.Makronlu Fransanın da eyni yolda olduğunu söyləyə bilərik.**




Əlbəttə, ilk növbədə ölkənin daxilindəki duruma nəzər salaq. Belə demək mümkünsə, edipşünas Makron Fransanı yaman günə qoyub. Ancaq onun edipşünaslığı xaricə münasibətdə də özünü göstərir. Özü də son dərəcə iyrənc formada. Nəticədə bu gün Fransa dedikdə yada müstəmləkəçilik düşür.

Hazırda Parisin müstəmləkəçilik siyasətinin tüğyan etdiyi bölgələrdən biri Yeni Kaledoniyadır. Məlum olduğu kimi, bölgədə yenə ara qarışıb, Fransa ora əlavə qüvvələr göndərib. Xatırladaq ki, etirazlar iki gün əvvəl Parisdə qanunvericilər tərəfindən qəbul edilən və 10 ildir Yeni Kaledoniyada yaşayan fransızlara əyalət seçkilərində səs verməyə icazə verən yeni qanun layihəsi ilə bağlı yaranıb. Yerli liderlər bu addımı yerlilərin seçki mövqeyini zəiflədəcəyini bildirirlər və haqlıdırlar da. Görünür, Fransa öz vətəndaşlarının üstünlüyünə nail olmaqla, Yeni Kaledoniyanın seçki sistemini də öz əlinə almağı düşünür. Bu, işğal və müstəmləkəçiliyi leqallaşdırmaq cəhdidir.

***

Fransanın xarici işlər naziri Jerar Darmanin iddia edib ki, Azərbaycanın Yeni Kaledoniyadakı iğtişaşlarda əli var və burada daxili işlərə müdaxilə edir. Guya, orada ayağa qalxanlar ölkəmizlə hansısa məsələlərdə sövdələşməyə gediblər. Belə təəssürat yaranır ki, rəsmi Paris özünə sərf etməyən bütün durumlarda Bakıya ittiham yağdırmaq əzmindədir. Həqiqətən, Fransa adına yaraşmayan və gülünc durum var. Amma hazırkı ittiham dəst-xəttindəki rəzalət ilk dəfə deyil ki, yaşanır. Ötən il də oxşar ittihamı görmüşdük. Özü də iki dəfə.

AZƏRTAC-ın əməkdaşı Yeni Kaledoniyaya özünün peşə borcunu yerinə yetirmək üçün yollanmışdı. O, hava limanından geri qaytarılmış, jurnalistə təzyiq göstərilmiş və bildirilmişdi ki, guya, azərbaycanlı media təmsilçisinin məqsədi bölgədə iğtişaş yaratmaqdır. Sual olunur: Jurnalistin Yeni Kaledoniyaya sabitliyi pozmaq üçün getməsi ilə bağlı bir sübut var idimi? Görəsən, nəyə əsaslanaraq, belə bir qənaətə gəlinmişdi? Suallarımız ritorikdir. Çünki veriləcək cavab, təqdim ediləcək dəlil yoxdur. Sadəcə, ürkək Fransa hökuməti yaxşı başa düşür ki, müstəmləkədə saxladığı Yeni Kaledoniyada xalq azadlıq hərəkatının dünya ictimaiyyətinin diqqətinə çatdırılması ərazinin əldən çıxması ilə nəticələnəcək. Nigerdəki ssenarinin təkrarlanmasından qorxmuşdu. Buna görə də söz azadlığını boğmaq qərarına gəlmişdi ki, əsl həqiqətlər üzə çıxmasın.

***

Fransanın anti-Azərbaycan xətti ilə bağlı ötən il yaşanmış daha bir hadisəni də diqqətə çatdıraq. Sən demə, ölkədə Dezinformasiya ilə mübarizə qrupu adlı bir təşkilat var imiş və həmin qurum, guya, müəyyənləşdirmişdi ki, X sosial şəbəkəsinin bir azərbaycanlı istifadəçisi öz profilində Fransa polisinin etirazçılara qarşı şiddət tətbiqi ilə bağlı nə isə paylaşıb. O, iddia edib ki, insan hüquqlarının pozulduğu məmləkətdə Olimpiya oyunlarının keçirilməsi yolverilməzdir.

Demək çətindir ki, "Paris-2024"ün təşkilinə qarşı çıxan azərbaycanlı var, yoxsa həmin şəxs uydurmadır. Amma onun iddiasındakı məsələ yanlış deyildi. Bəlkə fransız polisi zorakılıq etmirdi? Əlbəttə edirdi! Bəlkə Paris Avropanın ən çirkli şəhərləri sırasında yer almır? Alır! Yoxsa, Fransada insan hüquqlarına tam etinasız mühit hökm sürmür? Vəziyyət tam olaraq belədir!

Ümumən, son illər Fransanın daxili siyasətinin müşahidəsi ölkədə istər insan hüquqlarının pozulması hallarının, istər polis zorakılığının, istərsə də rasizmin, islamofobiyanın yüksələn xətt üzrə inkişaf etdiyini göstərməkdədir. Cəmiyyətdə ciddi qütbləşmə var. Miqrantlara, qara dərililərə qarşı nalayiq rəftar adi hal alıb.

Digər tərəfdən, dünyanın nüfuzlu və ciddi media orqanlarının yaydıqları materiallarda paytaxt Paris də daxil olmaqla böyük şəhərlərdə antisanitariya probleminin artıq dözülməz həddə çatdığı göstərilir. Yəni, sözümüz odur ki, təkcə bir azərbaycanlı yox, hadisə və prosesləri izləyən istənilən şəxs bunları görür. Deməli, kimlərinsə belə məsələləri qabardaraq Fransanın dördilliyin ən nüfuzlu idman yarışının təşkilinə layiq olmadığını vurğulamasında tutarlı məntiq var.

***

Hazırda Yeni Kaledoniyada yaşananlara gəlincə, bölgə xalqı Fransanın müstəmləkəçilik zülmündən xilas olacağı günü səbirsizliklə gözləyir. Bu fikri Yeni Kaledoniyanın xarici məsələlər üzrə daimi müvəkkili Mikael Forrest Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun ötən ilin martında Bakıda keçirilmiş Zirvə görüşündə iştirakı əsnasında bildirmişdi. M.Forrest AZTV-yə müsahibəsində onu da demişdi ki, Azərbaycan Prezidenti İlham Əliyevin tədbirdəki çıxışı onlar üçün çox pozitiv mesaj olub. Daimi müvəkkil Yeni Kaledoniya xalqının onillərdir Fransa müstəmləkəsindən azad olmaq üçün mübarizə apardığını diqqətə çatdırmış və əlavə etmişdi ki, xalq Bandunq prinsiplərinə uyğun olaraq suverenlik hüquqlarının dəstəklənməsini istəyir. "Hesab edirik ki, illərdir xalqımızın hüquqları pozulub. Fransa və onun müstəmləkəçi siyasəti ilə bağlı bir sıra problemləri Bakı platformasından dünyaya çatdırmağı vacib sayırıq. Ərazi bütövlüyümüz və suverenliyimiz ilə bağlı yaranan maneələr aradan qaldırılmalıdır. Xalqımızın adından çıxış edərək bütün dünyaya Fransanın bizə yaşatdığı məhrumiyyətləri çatdırıram", – deyən cənab M.Forrestin vurğulamışdı ki, Fransa rəhbərliyinin qardaşlıqdan, xalqların dostluğundan danışması paradoksal haldır və reallıqdan çox uzaqdır.

***

Bəli, Fransanın söz azadlığından, bəşəri dəyər və prinsiplərdən danışması da paradoksaldır. Avtokrat Makronun prezidentliyi sayəsində ölkə bu barədə söz açmaq üçün bütün mənəvi hüquqlarını itirib. Çünki, əvvəldə də dediyimiz kimi, Fransa müasir neokolonializmin beşiyidir. O kolonializmin ki, tarixə əsaslanır. İşğalçılıq tarixinə. İşğalçılıq tarixi isə başlanğıcını XVI əsrdən götürüb. Yada salaq ki, fransızlar 1541-1543-cü illərdə Lavrentiyanı, 1589-1599-cu illərdə Floridanı qəsb ediblər. Bu sıraya Braziliyanı da əlavə etmək mümkündür. Fransızlar ölkənin yerli sakinlərini kütləvi şəkildə qətlə yetirərək, həmin əraziləri ələ keçiriblər.

XVII əsrin əvvəllərindən başlayaraq fransızlar Şimali Amerikanın işğalına girişiblər.1663-cü ildə Kanada, XVII əsrin 30-cu illərində Qvadelupa, Martinka və Haitinin bir hissəsi ələ keçirilib. Buradakı əhalinin böyük hissəsi öldürülüb və qul bazarlarında satılıb. XVII əsrdən etibarən fransızların işğalına məruz qalmış Afrikada isə vəziyyət daha dramatik şəkil alıb. Orada əhali zorla digər fransız kaloniyalarına köçürülüb və məcburi əməyə məruz qalıb.

XIX əsrin 30-cu illərində Fransanın yeni qəsbkarlıq siyasətinin hədəfi Əlcəzair olub. Buranın işğalı zamanı onminlərlə yerli sakin qətlə yetirilib. Fransızların qətliamlar dalğası 1831-ci ildə Tunisi, 1839-70-ci illərdə Qabonu, 1842-ci ildə Fil Dişi Sahilini, 1854-cü ildə Seneqalı əhatə edib. Onların qəsbkarlıq siyasətinin hədəfləri sırasında Markiz adaları, Cənubi Vyetnam (Koxinxin), Kamboca, Mərkəzi və Şimali Vyetnam, Madaqaskar adaları, Konqo, Nigeriya, Ubanqi, Şari, Çad gölü sahilləri, Sudan və Mərakeş də var.

Birinci dünya müharibəsindən sonra Fransaya məxsus qəsb edilmiş ərazilərin cərgəsinə Toqo, Kamerun, Suriya və Livan da əlavə olunub. 1920-1930-cu illərdə Suriya və Mərakeşdə başlanan milli azadlıq hərəkatları zamanı onminlərlə dinc insan fransız hərbçilər tərəfindən öldürülüb. İkinci dünya müharibəsindən sonra isə 1954-1958-ci illərdə Əlcəzairin milli azadlıq hərəkatında 300 mindən çox dinc sakinin, o cümlədən qadın və uşağın həyatına son qoyulub. Konkret olaraq Əlcəzair xalqına qarşı amansız soyqırımı siyasəti reallaşdırılıb. Lakin Əlcəzair kimi Kamerun, Toqo, Mali, Seneqal, Sudan, Madaqaskar, Benin, Nigeriya, Fil Dişi Sahili, Çad, Konqo, Qabon, Mavritaniya, Cibuti də fransız zülmündən qurtulmağı bacarıblar. Hazırda Renyunon, Sen-Pyer, Mikelon, Polineziya, Uollis, Futuna, Mayotta, Yeni Qebrid və haqqında söz açdığımız Yeni Kaledoniyada Fransanın əsarəti saxlanılır.

***

Sonda bir daha Edip kompleksi barədə. Bəli, prezident E.Makronun mənəvi dünyasındakı "zənginliyin" Fransanın idarəçilik sisteminə təsiri bu kompleksin olmazları çeynəmək ritorikasını dövlət siyasəti halına gətirib. Ona görə də Parisin qlobal məkana yanaşması quldarlıq və feodalizm dövrlərinin təzahürü kimi özünü göstərməkdədir. Belə bir durumda nəinki Fransanın, elə Avropanın özünün də Makron edipşünaslığından qurtulması vacibdir. "Köhnə qitə" haqqında söz açdığımız zərurəti dəyərləndirəcəkmi, yaxud necə dəyərləndirəcək, bunu əlahəzrət zaman göstərəcək.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Bakı Təşəbbüs Qrupunun videokonfrans təşəbbüsü

**Fransanın son müstəmləkələri olan Kanaki (Yeni Kaledoniya), Maohi Nui (Fransız Polineziyası), Fransız Qvianası, Martinika, Qvadelupa və Korsikada müstəqillik uğrunda mübarizə aparan siyasi hərəkatların nümayəndələri Bakı Təşəbbüs Qrupunun çağırışı ilə "Kanak xalqı ilə həmrəylik" adlı videokonfrans təşkil ediblər.**

Tədbirdə Yeni Kaledoniyadan olan nümayəndələr Fransa polisi və jandarma qüvvələri tərəfindən son günlər paytaxt Numeada və ətraf ərazilərdə törədilən vəhşiliklər barədə ətraflı məlumat veriblər.

Çıxışçılar kanak xalqına qarşı törədilən vəhşilikləri kəskin qınayıblar. Görüş iştirakçıları beynəlxalq ictimaiyyəti Fransanın ədalətsiz müstəmləkəçilik siyasətinə göz yummamağa, haqq səsini ucaltmağa, BMT-yə üzv dövlətləri Təhlükəsizlik Şurası vasitəsilə həyəcan təbili çalmağa, Fransa tərəfindən beynəlxalq hüququn norma və prinsiplərinin kobud şəkildə pozulmasının qarşısını almağa çağırış ediblər.

Bakı Təşəbbüs Qrupu öz növbəsində beynəlxalq ictimaiyyəti müstəmləkəçilikdən əziyyət çəkən regionların xalqları üçün "Birlik, Azadlıq və Müstəqillik" ideyası ətrafında birləşməyə, Fransa kolonializminə "Yox", müstəqillik uğrunda ədalətli mübarizəyə "Hə" deməyə çağırıb.

Videokonfrans çərçivəsində Fransanın müstəmləkəçilik siyasətindən əziyyət çəkən regionların müstəqillik çağırışlarını ehtiva edən flaşmob keçirilib.

***XQ***

**Fransa problemlərinin günahkalarını kənarda axtarır. Yalnış siyasət yürütdüyünü etiraf etmək əvəzinə rəsmi Paris Bakıya qarşı absurd iddialar irəli sürür. Belə ki, daxili işlər naziri Jerar Darmanin "France 2" telekanalına müsahibəsində Azərbaycanı Yeni Kaledoniyada iğtişaşlara "müdaxilə etməkdə" və ölkəsinin daxili işlərinə qarışmaqda ittiham edir. Təbii ki, Azərbaycanın cavabı özünü gecikdirmədi. Xarici İşlər Nazirliyi Fransanın bütün bu ittihamlarını qətiyyətlə pisləyərək, Parisin ölkəmizə qarşı apardığı qarayaxma kampaniyasını dayandırmağı tələb etdi.**

# Fransanın imperialist iddiaları həddini aşır

Dünya sürətlə dəyişir, amma bəzi ölkələr var ki, bu dəyişikliklərə uyğunlaşmaq istəmirlər. Belə ölkələrdən biri də Fransadır. Dünya müstəmləkə dövrünün geridə qaldığını düşünməyə başladığı bir vaxtda fransızlar bütün güclərini müstəmləkələrinin saxlanılmasına yönəldirlər. Özünü demokratiyanın beşiyi hesab edən Fransa bu gün ən çox müstəmləkəyə sahibdir. Böyük kəşflər dövründə Fransa xaricdəki ərazilərin öyrənilməsi və müstəmləkəçiliyi ilə məşğul olan üçüncü Avropa ölkəsi (Portuqaliya və İspaniyadan sonra) olmuşdu. Formal olaraq Fransa 1960-cı illərdə müstəmləkələrini azad etmişdi, lakin Paris onların iqtisadiyyatına və inkişafına mənfi təsir göstərməkdə davam edir. Fransız siyasətçiləri elə bir iqtisadi və sosial şərait yaradıblar ki, keçmiş müstəmləkələri Parisi lazımi resurslarla təmin etməyə borclu qalsınlar. Üstəlik, koloniyalara bu münasibət istənilən ideoloji yönümlü siyasətçilər üçün xarakterikdir. Hazırkı prezident Emmanuel Makron da istisna deyil.

Rəsmi Paris uzun müddət keçmiş müstəmləkələri ilə "Fransafrika" adlanan qeyri-rəsmi qəyyumluq və himayəçilik sistemi əsasında əlaqələr qururdu. Onun yaradıcısı siyasətçi və diplomat Jak Fokkarr hesab olunur. Həmkarları və jurnalistlər onu "Cənab Afrika" adlandırırdılar ki, bu da onun qitə ilə qarşılıqlı əlaqədəki rolunu yaxşı göstərir. "Fransafrika" razılaşmalarına əsasən, Fransa bölgədə və yerli bazarlarda təbii ehtiyatların çıxarılması üçün müstəsna hüquqlar əldə etmişdi. Üstəlik, bu sömürücü sistem Fokkar və onun həmkarlarının Afrika dövlətlərinin liderləri ilə şəxsi əlaqələrinə əsaslanırdı. Müqavilələr rüşvətxorluq, korrupsiya və digər qanunsuz əməliyyatlardan istifadə olunmadan bağlanırdı. Bu səbəbdən sistem beynəlxalq ictimaiyyət tərəfindən mütəmadi olaraq tənqid olunurdu.

Amma bütün haqlı ittihamlar Fransa hökumətini narahat etmir. Sadəcə, Emmanuel Makron müstəmləkə ölkələrindən bəzi "kosmetik üzrxahlıq" etməsilə "fərqləndi". Məsələn, o,1994-cü ildə Ruandada Tutsi soyqırımı zamanı fransız əsgərlərinin qəddarlığına və cinayətlərinə görə üzrxahlığını bildirdi. Makron, həmçinin 1954-1962-ci illər müharibəsi zamanı Fransa tərəfində vuruşan, münaqişə bitdikdən sonra ölkədən təxliyə edilə bilməyən əlcəzairlilərdən üzr istədi. Lakin bu cür jestlər Yelisey sarayının ümumi xəttini dəyişmir. Əksinə, onların gələcəkdə regionda Fransa hegemonluğuna dəstək verməyə hazır olan yeni loyal qruplar əldə etməyə yönəldiyini hamı bilir.

Lakin son zamanlar keçmiş müstəmləkə ölkələri Fransaya qapını göstərirlər. Belə ölkələrin sayı gündən-günə artır. Eyni sözləri Yeni Kaledoniya barədə də demək olar. Ada sakinləri artıq Fransadan müstəqillik tələb edirlər. Lakin digər etnik qruplara azadlıq tələb edən Paris Yeni Kaledoniya sakinlərinə fərqli münasibət bəsləyir. Azad yaşamaq istəyən yerli sakinlərinə qarşı repressiya siyasəti aparır. Təbii ki, Makron hökumətinin belə zalım siyasəti adada ciddi narazılıqla qarşılanır. Son günlər Fransanın işğalı altında olan bu ərazidə ciddi etiraz aksiyaları keçirilir. Son məlumatlara görə, hüquq-mühafizə orqanları ilə toqquşmalarda ölən və yaralananlar da var. Yerli sakinlərin narazılığını yatırmaq üçün Paris adaya qoşun yeridib. Belə görünür, Paris Əlcəzairdə, Ruandada və digər müstəmləkələrində törətdiyi cinayətləri Yeni Kaledoniyada da təkrarlamaq istəyir.

Bəs yerli xalqı qəzəbləndirən nədir? Xatırladaq ki, etirazlar mayın 15-də Parisdə qanunvericilər tərəfindən qəbul edilən və 10 ildir Yeni Kaledoniyada yaşayan fransızlara əyalət seçkilərində səs verməyə icazə verən yeni qanun layihəsi ilə bağlı yaranıb. Yerli liderlər bu addımın kanakların seçki mövqeyini zəiflədəcəyini bildirirlər. Əslində, kanakilər haqlıdırlar, çünki uzun illərdir ki, Fransa Yeni Kaledoniyanı müstəmləkəsi kimi əsarətində saxlamaq, habelə adanın yerli sakinləri olan kanakları assimiliasiya etmək üçün kənardan minlərlə miqrantı qanunsuz yolla adaya yerləşdirir. Müstəqillik tərəfdarı olan kanakları azlığa çevirmək və miqrantların hesabına Fransa işğalını davam etdirmək üçün Makron hökuməti Yeni Kaledoniya Konqresinin və xalqının iradəsinə zidd olaraq bu ölkənin seçki qanunvericiliyini dəyişmək qərarına gəlib. Fransa hökuməti miqrantlara səs hüququ verməklə ölkənin əsarətdə saxlanılmasına dair referendumda üstünlük qazanmağa çalışır.

Öncə qeyd etməyə zəruridir ki, yeni xalq mərkəzi hökumət ilə problemi dialoq yolu ilə həll etməyə çalışırdı. Müstəqillik tərəfdarları Parisi seçki sayının qanunsuz genişləndirilməsinə dair qanun layihəsinin gündəmdən götürməyə çağırırdı. Ancaq bütün bu çağırışları Paris qulaqardına vurdu. Halbuki müstəqillik tərəfdarları xəbərdarlıq edirdilər ki, sözügedən qanun layihəsinin məcburi şəkildə qəbul edilməsi pis nəticələnə bilər. Belə görünür, fransızları adada dəyişən siyasi ab-havanı duymağa imperializm dikbaşlığı mane oldu, Paris vətəndaşlarının narazılıqlarını dinləmək əvəzinə adaya qoşun yeritməyə üstünlük verdi. Bunun nəticəsində də 10-a yaxın qurbanın və 200-ə yaxın yaralının olduğu bildirilir. Görəsən qoşunlarını Kaledoniyaya göndərən Fransa hansı məqsədi güdür? Nüvə silahına malik olması ilə qürrələnən, BMT TŞ-nin üzvü olan Fransa adaya qoşun göndərməklə silahsız və əliyalın kanaklardan özünü qorumaq istəyir?

İndi Fransa ordunun Yeni Kaledoniyada törətdiyi vəhşilikləri dünya ictimaiyyətindən gizlətməyə çalışır. Bunun üçün TikTok sosial şəbəkəsinə çıxışı bloklayıb. "Azad fransız mediası" küçədə güllənənən kanakları göstərməkdən, yerli əhaliyə qarşı törədilən vəhşilikləri işıqlandırmaqdan imtina edir. Yeni Kaledoniya xalqı informasiya blokadası tətbiq etmək üçün bütün internetin kəsilə biləcəyindən, ordunun həmin an adada törədə biləcəyi vəhşiliklərdən narahatdır. Ancaq Fransa öz əməllərini gizlədə bilməyib. Belə ki, BMT-nin Dekolonizasiya üzrə Xüsusi Komitəsinin ildə bir dəfə təşkil edilən regional tədbirində hazırda iştirak edən Yeni Kaledoniyanın BMT-dəki nümayəndəsi Paris tərəfindən ölkəsində törədilən qırğınlar barədə BMT-nin üzv ölkələrini məlumatlandırıb. Qətlə yetirilənlər arasında gənclərin olduğunu qeyd edib.



Əlbəttə ki, bütün bu destruktiv siyasət beynəlxalq ictimaiyyəti də narahat etməlidir. Artıq Bakı Təşəbbüs Qrupu və Fransanın son koloniyaları olan Kanaki (Yeni Kaledoniya), Maohi Nui (Fransız Polineziyası), Fransız Qvianası, Martinik, Qvadelupa və Korsikadakı müstəqillik uğrunda mübarizə aparan 14 siyasi hərəkat birgə Bəyanat yayıb. Bəyanatda Fransa hökumətinin Kanaki-Yeni Kaledoniyada seçki kütləsinin genişləndirilməsi lehinə qanunsuz dəyişikliyin zorla tətbiq edilməsi pislənilir, müstəqillik uğrunda ədalətli mübarizəsində Kanak xalqına tam dəstək ifadə olunur. Sənəddə Kanakinin bu gün alov içində olması, o cümlədən son günlər ərzində 150-yə yaxın insanın həbs edilməsi və 3 nəfərin qətlə yetirilməsinin məsuliyyətinin Fransa hökumətində olduğu qeyd olunur: "Kanak xalqının öz müqəddəratını təyinetmə hüququnu tapdalayan "insan hüquqları ölkəsi" adlanan Fransa dövlətinin Kanak xalqını öz torpağında azlıqda qoymaq üçün seçki elektoratını genişləndirmək məsələsindəki məqsədli istəyi mövcud vəziyyətin pisləşməsinə səbəb olur".

Amma olayların çərçivədən çıxaraq genişlənməsinə adekvat reaksiya verməyən Paris adada baş verən hadisələrdə Azərbaycanı günahlandırmağa çalışır. Fransa rəsmiləri, xüsusən də daxili işlər və dənizaşırı ərazilər naziri Jerard Darmanin rəhbərlik etdiyi Fransa jandarmalarının Yeni Kaledoniyada törətdiyi vəhşiliklərə haqq qazandıraraq, toqquşmaların səbəbi kimi xarici qüvvələri, o cümlədən Azərbaycanı göstərib. Adanın əsl sahibi olan kanakların fikirlərini dinləmək, onların istəklərinə hörmət etmək, ən əsası kolonial siyasətdən əl çəkmək əvəzinə başqa dövlətləri ittiham etmək riyakarlıqdır. Təbii ki, Azərbaycan Parisin ittihamlarına tutarlı cavab verib. Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Ayxan Hacızadənin Azərbaycana qarşı səsləndirilən iddialara dair şərhində bildirib ki, rəsmi Bakı ilk növbədə Fransa tərəfinin Azərbaycana qarşı təhqiramiz ifadələrini bir daha qətiyyətlə pisləyir və ermənilərin kütləvi şəkildə qətlə yetirilməsi kimi qəbuledilməz ittihamlarla Azərbaycana qarşı apardığı qarayaxma kampaniyasını dayandırmağı tələb edir.

A.Hacızadə vurğulayıb ki, Fransa daxili işlər nazirinin öz ölkəsinin uzun illər həyata keçirdiyi müstəmləkəçilik siyasətinin tərkib hissəsi kimi yerli xalqlara qarşı insanlıq əleyhinə cinayətlər törətməsini, milyonlarla günahsız insanın vəhşicəsinə qətlə yetirilməsi tarixini xatırlaması daha münasib olardı. XİN sözçüsü vurğulayıb ki, Fransanın daxili işlər naziri Azərbaycanı Yeni Kaledoniyada müstəqillik tərəfdarı etirazları dəstəkləməkdə ittiham etmək əvəzinə, ölkəsinin bu cür etirazlara səbəb olan dənizaşırı bölgələri ilə bağlı uğursuz siyasətinə diqqət yönəltməlidir.

Fransa hər zaman özünü başqalarına nümunə ölkə göstərməyə çalışır. Olmayan qondarma erməni soyqırımına görə Türkiyəni "öz keçmişilə barışmağa və soyqırımı tanımağa" çağırır. Halbuki arxiv sənədləri belə bir soyqırımın olmadığını təsdiqləyir və hamı da bilir ki, uydurma erməni soyqırımı böyük güclərin Türkiyəyə qarşı geosiyasi təzyiq alətinə çevrilib. Amma Fransanın heç də uzaq olmayan illərdə bir sıra xalqlara qarşı soyqırımı həyata keçirməsi dünyaya məlumdur. İndi fransızlar keçmişilə barışmağa, əsrlərdir əsarətdə saxladığı xalqlarlar normal və sivil münasibətlər qurmağa çalışmaq əvəzinə, yenə də kobud hərbi gücə üstünlük verir, siyasətində buraxdığı ciddi yalnışlıqlara görə baş qaldıran problemlərdə xarici qüvvələri, o cümlədən Azərbaycanı günahlandırmağa can atır. Azərbaycanın XİN-nin sözçüsünün də qeyd etdiyi kimi, Fransanın daxili işlər naziri Azərbaycanı Yeni Kaledoniyada müstəqillik tərəfdarı etirazlarını dəstəkləməkdə ittiham etmək əvəzinə, ölkəsinin bu cür etirazlara səbəb olan dənizaşırı bölgələri ilə bağlı uğursuz siyasətinə diqqət yönəltməlidir.

***S.ELAY***
***XQ***

## Pərakəndə ticarət – 17 milyard manat

**Cari ilin yanvar–aprel aylarında Azərbaycanda pərakəndə ticarət şəbəkəsində istehlakçılara 17 milyard manatlıq, o cümlədən 9,6 milyard manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 7,4 milyard manatlıq qeyri-ərzaq malları satılıb.**



Dövlət Statistika Komitəsinin məlumatına görə, 2023-cü ilin yanvar–aprel ayları ilə müqayisədə pərakəndə ticarət dövriyyəsi real ifadədə 3,3 faiz, o cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə 1,9 faiz, qeyri-ərzaq malları üzrə isə 5,1 faiz artıb.

Hesabat dövründə alıcıların pərakəndə ticarət şəbəkəsində aldıqları mallara xərclədiyi vəsaitin 51,2 faizi ərzaq məhsullarının, 5,2 faizi içkilər və tütün məmulatlarının, 13,4 faizi toxuculuq məhsulları, geyim və ayaqqabıların, 5,8 faizi avtomobil benzini və dizel yanacağının, 4,4 faizi elektrik malları və mebellərin, 2,4 faizi əczaçılıq məhsulları və tibbi ləvazimatların, 1,3 faizi kompüterlər, telekommunikasiya avadanlıqları və çap məhsullarının, 16,3 faizi isə digər qeyri-ərzaq mallarının alınmasına sərf olunub.

## Güzəştli kreditlərlə 1684 layihə

**Bu ilin yanvar–aprel aylarında İqtisadiyyat Nazirliyi yanında Sahibkarlığın İnkişafı Fondu tərəfindən sahibkarlara 61,3 milyon manat güzəştli kredit verilib.**



Sahibkarlığın İnkişafı Fondu sədrinin müşaviri Namiq Zeynalov bildirib ki, bu vəsait 1684 layihə üzrə ödənilib. Onun sözlərinə görə, həmin layihələrin reallaşdırılması nəticəsində 963 yeni iş yerinin yaradılması nəzərdə tutulur.

N.Zeynalov deyib ki, 2023-cü ildə fond tərəfindən ümumi dəyəri 459,9 milyon manat olan 3276 investisiya layihəsinin maliyyələşdirilməsinə 193,8 milyon manat güzəştli kredit verilib. Bu kreditlər hesabına 3 mindən çox yeni iş yeri açılıb. Verilmiş kreditlərin 46,4 faizi kənd təsərrüfatı məhsullarının istehsalı, 43 faizi sənaye məhsullarının istehsalı və emalı, 5,5 faizi xidmət sahələri, 4,5 faizi turizmin inkişafı layihələrinə yönəldilib. Güzəştli kreditlərin 72 faizi regionların, 28 faizi isə Bakı şəhəri və Abşeron iqtisadi rayonunun payına düşüb.

**XQ**

# Qarabağ və Şərqi Zəngəzurun "yaşıl dünya"sı genişlənir



**Azərbaycanın işğaldan azad edilən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında bərpaolunan enerji istehsalı üçün geniş imkanlar var. Mütəxəssislərin son hesablamalarına görə, sözügedən ərazilərdə 10 qiqavat həcmində günəş və külək enerjisi potensialı mövcuddur. Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin məlumatına görə, Qubadlı, Zəngilan, Cəbrayıl və Füzuli rayonları texniki potensialı 7200 meqavatdan çox olan günəş enerjisindən istifadə üçün əlverişli şəraitə malikdir. Bununla yanaşı, ilkin proqnozlara görə, Laçın və Kəlbəcər rayonlarının dağlıq ərazilərində külək enerjisinin texniki potensialı 2 min meqavat həcmində qiymətləndirilir. Kəlbəcər və Şuşa rayonlarında isə geotermal enerji mənbələrindən "yaşıl enerji" kimi istifadə olunması imkanları daha çox diqqət çəkir.**

Belə bir zənginliyi nəzərə alan ölkə Prezidenti İlham Əliyev Qarabağ və Şərqi Zəngəzurun 10 min kvadratkilometrlik ərazisini "yaşıl enerji" zonası elan edib. Dövlət başçısı "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması ilə bağlı tədbirlər haqqında" 2021-ci il 3 may tarixli Sərəncam imzalayıb. Sənədə əsasən, Nazirlər Kabineti tərəfindən "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində 2022–2026-cı illərdə "yaşıl enerji" zonasının yaradılması ilə bağlı Tədbirlər Planı" təsdiq edilib.

Ötən müddətdə işğaldan azad edilən ərazilərdə bir neçə su elektrik stansiyası inşa edilərək istismara verilib. Hökumətin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında günəş və külək elektrik stansiyalarının yaradılması ilə bağlı hazırladığı konsepsiyaya əsasən, həmin ərazilərdə istehlak edilən elektrik enerjisinin yalnız bərpaolunan enerji mənbələrindən alınacağı nəzərdə tutulub.

Prezident İlham Əliyevin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının hidroenerji potensialının yenidən tədqiqi barədə tapşırığına əsasən, "AzərEnerji" ASC tərəfindən işğal dövründə dağıdılan su elektrik stansiyalarından əlavə, ekoloji normalar daxilində yenilərinin tikintisi barədə hesabat hazırlanıb. Həmin hesabata əsasən, bölgədə ümumi gücü 467 MVt olan 72 kiçik su elektrik stansiyasının yaradılacağı nəzərdə tutulub.

"Azərenerji"nin Texniki İstehsalat İdarəsinin rəis müavini Muxtar Mahmudov mediaya açıqlamasında bildirib ki, Qarabağ və Şərqi Zəngəzurun dayanıqlı elektrik təchizatı infrastrukturunun yaradılması, həmçinin hidroenerji ehtiyatlarından səmərəli istifadə edilməsi istiqamətində tapşırıqlara əsaslanılaraq, regionun sərt, keçilməz iqlim və relyef şəraitinə rəğmən, 3 ildən az bir müddətdə ümumi gücü 226 MVt olan 28 su elektrik stansiyası (SES) yenidən qurulub və ya yeni tikilib.

Ümumi gücü 44 MVt olan 4 SES-də isə hazırda avadanlıqların quraşdırılması və sazlama işləri icra edilir. Nəticədə bütün region üzrə dayanıqlı elektrik təchizatı sxemi yaradılır və COP29 tədbirinin keçiriləcəyi, "Yaşıl dünya naminə həmrəylik ili" elan edilmiş 2024-cü ilin birinci yarısında ümumi gücü 270 MVt olan 32 SES-in istismara veriləcəyi nəzərdə tutulur. Bu stansiyalarda il ərzində 600 milyon kilovat/saatdan çox "yaşıl enerji"nin istehsal ediləcəyi planlaşdırılır. Bu da 160 milyon kubmetrdən artıq təbii qaza qənaət edilməsi, atmosferə atılan karbon qazının həcminin isə 330 min tondan çox azalması deməkdir. Bundan əlavə, ümumi gücü 37,5 MVt olan 6 kiçik su elektrik stansiyasının (KSES) 2025-ci ilin birinci yarısında istismara verilməsi gözlənilir.

Ölkənin enerji sistemi tarixində ilk dəfə Qarabağ və Şərqi Zəngəzur regionlarının elektrik enerjisi tələbatı 100 faiz "yaşıl enerji" hesabına təmin edilir və tələbatdan artıq qalan həcm ölkə enerji sisteminə ötürülür. Perspektiv layihələr də nəzərə alınarsa, işğaldan azad olunan rayonların ərazisində icra edilmiş və icrası gözlənilən "yaşıl enerji" layihələri, ümumilikdə, 1100 MVt təşkil edir ki, bu da regionun mövcud enerji tələbatından 12-15 dəfə çoxdur. Bölgənin 2040-cı il üçün ümumi güc tələbatı 1000 MVt proqnozlaşdırılır ki, bu da icra olunacaq "yaşıl enerji" layihələrinin həcmi nəzərə alınmaqla 20 il sonra Qarabağ və Şərqi Zəngəzurun tam olaraq "yaşıl enerji" ilə təmin ediləcəyi deməkdir.

Hesabatda daha sonra "Zabux" KSES-nin 2,8 MVt, "Qarıqışlaq" KSES-nin isə 4 MVt gücündə olduğu, il ərzində müvafiq olaraq 8-9 milyon, 11-12 milyon kilovat/saat "yaşıl enerji" istehsal ediləcəyi bildirilib. Qeyd edilib ki, həmin stansiyaların enerji sistemə inteqrasiyası üçün yeni yarımstansiyalar tikilib, 35 kV-luq yeni elektrik verilişi xətti çəkilib. Yeni optik kabel xətti çəkilməklə stansiyalar ölkə enerji sisteminin mərkəzləşmiş SCADA sisteminə inteqrasiya edilib. Nəticədə rəqəmsal qaydada açılıb-qoşulma, intellektual idarəetmə, operativ monitorinq və təhlil aparılması reallaşdırılmaqla yanaşı, stansiyalara Bakıdan nəzarətin əlçatanlığı təmin edilib.

Həkəri çayının sağ qolu olan Zabux çayı üzərində tikilən "Zabux" KSES vahid ölkə enerji sisteminə inteqrasiya olunub və burada istehsal edilən elektrik enerjisi həm Laçın rayonunda enerji tələbatına istifadə olunacaq, artıq qalan enerji isə ölkə enerji sisteminə ötürüləcək.

"Qarıqışlaq" KSES də adıçəkilən çay üzərində inşa edilib. Bu stansiya da ölkə enerji sisteminə inteqrasiya olunub. Həm "Zabux", həm də "Qarıqışlaq" stansiyalarında quraşdırılan ekoturbinlər hesabına çayda, ümumilikdə, 1,4 dəfə daha artıq ekoloji axımın saxlanılmasına şərait yaradılıb. Çay səviyyəsinin azalması halında isə avtomatik dayanması reallaşdırılıb. Sözügedən stansiyaların tikintisi prosesində yeni balıqötürücü, həmçinin liltutucu qurğular inşa edilməklə ekoloji təsirlər minimuma endirilib. Daşqınlar zamanı baş verə biləcək fəsadların qarşısı alınıb.

Sonda qeyd edək ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında "yaşıl enerji" zonasının yaradılması ilə əlaqədar dağ-mədən layihələrinin icrasına başlanılıb. Ağdam rayonunda Şahbulaq daş karxanası layihəsinə investisiya qoyuluşu məqsədilə Azərbaycan İnvestisiya Şirkəti (AİŞ) tərəfindən "Star Mining" MMC ilə birgə "Shahbulag Mining" MMC şirkəti təsis edilib və hazırda layihəyə 160-dan çox işçi cəlb olunub. Bundan əlavə, işğaldan azad olunmuş ərazilərin "yaşıl enerji" zonasına çevrilməsi və ölkəmizin bərpaolunan enerji potensialının inkişafı məqsədi ilə AİŞ, SOCAR və bp şirkətləri ilə Cəbrayıl rayonunda 240 MVt gücündə günəş paneli stansiyasının tikintisini nəzərdə tutan, AİŞ-in "Şəfəq" ("Sunrise") layihəsinə daxil olmaq niyyətini əks etdirən Qoşulma Sazişi imzalanıb. Layihədən əsas məqsəd "Səngəçal" terminalında qazdan alınan enerjini günəş enerjisi ilə əvəz etmək olub.

Naxçıvan Muxtar Respublikası isə əlverişli günəş radiasiyasına və yüksək bərpaolunan enerji potensialına malikdir. Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin şöbə müdiri Fəqan Abdurəhmanovun sözlərinə görə, burada ümumi gücü 39 MVt olan günəş elektrik stansiyaları fəaliyyət göstərir.

"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı"na əsasən, Naxçıvanda "Yaşıl enerji zonası"nın yaradılması nəzərdə tutulub. Eyni zamanda muxtar respublikada külək və günəş enerjisi üzrə 1500 MVt-lıq istehsal güclərinin xarici investisiya hesabına yaradılması və onun, təqribən, 1000 MVt-nın Türkiyə və Avropa istiqamətində ixracı qərara alınıb.

***Vaqif BAYRAMOV***
***XQ***

## İnvestisiya qoyuluşu 12 faiz artıb

**Bu ilin yanvar–aprel aylarında Azərbaycanda əsas kapitala 5 milyard 230,4 milyon manat məbləğində, yaxud əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 11,8 faiz çox investisiya yönəldilib.**

Dövlət Statistika Komitəsinin məlumatına görə, hesabat dövründə neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi 6,2 faiz, qeyri neft-qaz sektoruna yönəldilən investisiyaların həcmi isə 15,2 faiz artıb. İstifadə olunmuş investisiyanın



2 milyard 828,9 milyon manatı və ya 54,1 faizi məhsul istehsalı sahələrinə, 1 milyard 979,3 milyon manatı (37,8 faizi) xidmət sahələrinə, 422,2 milyon manatı (8,1 faizi) isə yaşayış evlərinin tikintisinə sərf olunub.

Cari ilin ilk rübündə əsas kapitala yönəldilmiş investisiyaların 4 milyard 210,1 milyon manatını və ya 80,5 faizini daxili investisiyalar təşkil edib. Əsas kapitala yönəldilmiş investisiyaların 3 milyard 687,6 milyon manatı və ya 70,5 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunub.

## Heyvandarlığa önəmli dəstək

**İqtisadiyyat Nazirliyi yanında Sahibkarlığın İnkişafı Fondu heyvandarlığın inkişafı layihəsinə 150 min manat güzəştli kredit ayırıb.**

İqtisadiyyat naziri Mikayıl Cabbarov bu barədə "X" sosial şəbəkəsindəki hesabında bildirib. Nazir kreditin sahibkar Müşfiq Həsənova ayrıldığını, layihənin İsmayıllı rayonunda icra olunacağını vurğulayıb.



Qeyd edək ki, hazırda yeni iqtisadi inkişaf mərhələsini yaşayan respublikamızda etibarlı ərzaq təhlükəsizliyinin gerçəkləşdirilməsi qarşıya strateji hədəf kimi qoyulur. Bu məqsədlə regionlarda aqrar sektorun ahəngdar inkişafını reallaşdırmaq, heyvandarlıq məhsullarının istehsalını artırmaq üçün məqsədyönlü tədbirlər həyata keçirilməsi diqqətdə saxlanılır. Heyvandarlıq təsərrüfatlarında intensiv metodların tətbiqinə, yem bazasının möhkəmləndirilməsinə, səmərəli satış mexanizminin qurulmasına, fermerlərə subsidiyaların verilməsi və ayrı-ayrı bölgələrdə aqrar layihələrin reallaşdırılmasına xüsusi önəm verilir.

**XQ**

# Azərbaycanın dünyaya aqrar təqdimatı

## Bakı sərgilərində 38 ölkədən 500-dək şirkət iştirak edir

**Son illər ölkəmizin aqrar sektorunda müşahidə olunan inkişaf meyilləri bu sahədə beynəlxalq əməkdaşlıq üçün də yaxşı imkanlar yaradır. Elə dünyanın qabaqcıl kənd təsərrüfatı ölkələrinin Azərbaycanın aqrar sektoruna, xüsusən də aqroparkların yaradılmasına sərmayə qoymağa maraq göstərmələri də bu baxımdan diqqət çəkir.**

Mayın 15-də Bakı Ekspo Mərkəzində öz işinə başlayan 17-ci Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı "Caspian Agro" və 29-cu Azərbaycan Beynəlxalq Qida Sənayesi "InterFood Azerbaijan" sərgiləri də əməkdaşlığın genişləndirilməsi baxımından yaxşı fürsət sayıla bilər. Regionun ən böyük sərgilərində 38 ölkədən 500-ə yaxın şirkətin iştirak etməsi, 12 ölkənin isə milli və regional stendlərlə təmsil olunması da bunu deməyə əsas verir.

Sərginin açılış mərasimində çıxış edən kənd təsərrüfatı naziri Məcnun Məmmədov Azərbaycanda aqrar sektorun inkişafına hərtərəfli diqqət və qayğı göstərildiyini, ötən müddətdə bu sahədə həyata keçirilən aqrar islahatların kənd təsərrüfatının inkişafını əhəmiyyətli dərəcədə gücləndirdiyini vurğulayıb. Qeyd olunub ki, ölkəmizdə keçiriləcək BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29), eləcə də Prezident İlham Əliyev tərəfindən 2024-cü il "Yaşıl dünya naminə həmrəylik ili" elan olunması ilə əlaqədar builki sərgidə ətraf mühitin qorunması, "yaşıl enerji", resurslardan səmərəli istifadə və orqanik istehsal prinsiplərinə əsaslanan müasir kənd təsərrüfatı istehsal vasitələrinin nümayişinə daha çox yer ayrılıb. M.Məmmədov, həmçinin deyib ki, Kənd Təsərrüfatı Nazirliyi olaraq iqlim dəyişkliyinin təsirlərini minimuma endirmək və fəaliyyətin təşkilində iqlim risklərinin qiymətləndirilməsi istiqamətində təşəbbüslər irəli sürülür.

Belarus Respublikası Baş nazirinin müavini İqor Petrişenko iki ölkə arasında kənd təsərrüfatı sahəsində əlaqələrin intensiv inkişaf etdiyini, ölkəsinin Azərbaycanla aqrar sahədə əməkdaşlığa önəm verdiyini diqqətə çatdırıb. Belarusun 42 şirkətinin sərgidə iştirak etdiyini deyən İqor Petrişenko bu sərgilərin hər iki ölkənin işgüzar dairələri arasında əməkdaşlığı daha da gücləndirəcəyini diqqətə çatdırıb.

Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli bildirib ki, son illər ölkəmizdə digər sahələrlə birgə qida təhlükəsizliyi sahəsində həyata keçirilən islahatlar, görülən işlər əhalinin daha təhlükəsiz qida məhsulları ilə təmin olunması ilə yanaşı, bu məhsulların beynəlxalq bazarlara çıxış imkanlarını da genişləndirib.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov çıxış edərək sərgilərin kiçik və orta biznes subyektlərinin (KOB) satış imkanlarının genişləndirilməsi, məhsul və xidmətlərinin tanıdılmasında önəmini qeyd edib. Qeyd olunub ki, kənd təsərrüfatı və qida sənayesi KOB subyektlərinin daha çox fəaliyyət göstərdiyi sektorlardandır. Onun dediyinə görə, agentlik bu sektorlarda fəaliyyət göstərən kiçik və orta biznes subyektlərini müxtəlif xidmətlər və mexanizmlər çərçivəsində dəstəkləyir.

Tədbirdə çıxış edən Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin (AZPROMO) icraçı direktoru Yusif Abdullayev rəhbərlik etdiyi qurumun qeyri-neft ixracının stimullaşdırılması çərçivəsində və "Made in Azerbaijan" brendinin ölkə xaricində tanıdılması məqsədilə sahibkarların beynəlxalq sərgi və yarmarkalarda vahid ölkə stendi ilə iştirakını təmin etdiyini diqqətə çatdırıb.

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) ölkəmizdəki nümayəndəsi



Muhammad Nasar Hayat sərginin Azərbaycanın aqrar-sənaye sektorunda görülən innovativ işlərin dünyaya nümayiş etdirmək üçün imkan yaratdığını qeyd edib. FAO rəsmisi aqrar sahədə qabaqcıl təcrübələrin ölkəmizdə tətbiqi və aqrar sahənin inkişafı istiqamətində tədbirlərə dəstək verməyə hazır olduqlarını bəyan edib.

Xatırladaq ki, ənənəvi sərgilər kənd təsərrüfatı və qida sənayesinin aparıcı iştirakçılarını, yerli və xarici ekspertləri, o cümlədən idxalçılar, ixracatçılar, kənd təsərrüfatı məhsullarının distribütorları, topdan və pərakəndə ticarət nümayəndələri, həmçinin fermerlər də daxil olmaqla minlərlə peşəkar ziyarətçi auditoriyasını bir araya toplayır. Yeri gəlmişkən, builki sərgilərdə Azərbaycanla yanaşı, Almaniya, Amerika, Belarus, Belçika, Çexiya, Çin, Cənubi Koreya, Estoniya, Əfqanıstan, İspaniya, Finlandiya, Fransa, Gürcüstan, Hindistan, İran, İsrail, İsveç, İsveçrə, İtaliya, İndoneziya, Latviya, Misir, Niderland, Özbəkistan, Pakistan, Polşa, Qazaxıstan, Rusiya, Serbiya, Slovakiya, Tailand, Türkiyə, Türkmənistan, Şri-Lanka, Venesuela, Yaponiya və Yunanıstandan olan şirkət iştirak edir. Ümumilikdə, kənd təsərrüfatı və qida sənayesi üçün xüsusi əhəmiyyət daşıyan sərgilərdə ötən illə müqayisədə 10 faiz artım müşahidə olunur. Ölkəmizə gəldikdə isə, iştirakçıların 30 faizindən çoxu "Made in Azerbaijan" brendi altında məhsullarını təqdim edən yerli şirkətlərdir.

Almaniya, Belarus Respublikası, Gürcüstan, Çex Respublikası, Əfqanıstan, İtaliya, Niderland Krallığı, Koreya, Polşa, Şri-Lanka, İndoneziya, Özbəkistan milli qrupları sərgidə kənd təsərrüfatı və qida sənayesi məhsullarını nümayiş etdirirlər. Bu il Türkmənistan və Venesuela sərgidə ilk dəfə iştirak edir. Sərgilərdə yeni ölkələrin iştirakı isə kənd təsərrüfatı sahəsində beynəlxalq əməkdaşlığın coğrafiyasını və miqyasını genişləndirir, təcrübə və texnologiyalar mübadiləsi üçün yeni perspektivlər açır.

"Caspian Agro" sərgisinin əsas bölmələrinə kənd təsərrüfatı texnikası, obyektləri və avadanlıqları, suvarma sistemi, qablaşdırma, kənd təsərrüfatında innovasiya texnologiyaları, heyvandarlıq və quşçuluq, istixana, yemlər, baytarlıq, bitkiçilik, gübrə, meyvə və tərəvəzlərin yetişdirilməsi daxildir.

"Caspian Agro" ilə yanaşı, Xəzər regionunda qida sənayesi nümayəndələrinin əsas görüş yeri olan 29-cu Azərbaycan Beynəlxalq Qida Sənayesi Sərgisi "InterFood Azerbaijan"da isə Belarus, Çin, Hindistan, İran, İtaliya, Polşa, Rusiya Federasiyası, Şri-Lanka, Tayland, Türkmənistan, Türkiyə və Venesueladan olan şirkətlər də təmsil olunurlar. Vahid platformada dondurulmuş qidalar və yarımfabrikatlar, qənnadı və un məhsulları, konservləşdirilmiş qidalar, ət məmulatları, süd məmulatları, meyvə-tərəvəzlər, yağ məhsulları, şirələr, çay, sağlam qidalar, eləcə də meyvə-tərəvəz emalı üçün avadanlıqlar, paketlər və bir sıra digər məhsullar təqdim edilir.

Göründüyü kimi, "Caspian Agro" və "InterFood Azerbaijan" sərgiləri kənd təsərrüfatı sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi ilə yanaşı, müasir texnika və texnologiyaların, eləcə də qabaqcıl təcrübənin ölkəmizə gətirilməsinə imkan yaradır. Ən başlıcası isə belə sərgilər iştirakçıların öz məhsullarının real satışını həyata keçirmək, şirkətləri üçün distribütorlar və nümayəndələr tapmaq baxımından əlverişli fürsət məkanı sayıla bilər.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Məkanı səhv salmış “Keyhan”

## *Tehranın Bakı–Tbilisi–Ceyhan kəmərinə əl uzatmaqda məqsəd nədir?*

**Tehran növbəti dəfə Bakını təhdid edir. Bölgədə söz və güc sahibi olan Azərbaycanın bostanına daş atanlar hələ də anlamaq istəmirlər ki, bizə dil uzatmaq münasibətlərimizə zərbə vurur. Bu qüvvələr, doğrudanmı, başa düşmürlər ki, Bakı–Tbilisi–Ceyhan neft kəmərinə qarşı təxribat törədən bu marşrutun qurulmasında və fəaliyyətində maraqlı olan böyük güclərin qəzəbinə tuş gələ bilər? Tehrandan bu xarakterli avantürist bəyanatlar səsləndirənlər bölgədə cərəyan edən böyük geosiyasi proseslərin nə ilə nəticələnəcəyini unutmamalıdırlar. Hər halda, bu gedişlə prosesin heç də İranın xeyrinə başa çatmayacağını göz önünə almaları məsləhətdir.**



“SEPAH” və ona bağlı mühafizəkar qanad Azərbaycan–İran münasibətlərini daimi gərginlikdə saxlamaqda maraqlıdır. Rəsmi Bakı İranla son ilyarımda soyumuş münasibətlərin istiləşməsi üçün lazımi addımları atsa da, qarşı tərəf yenə də təfriqəçi və məzhəbçi siyasətindən əl çəkmək istəmir. Keçən ilin yanvarında Azərbaycanın Tehrandakı səfirliyinə qarşı törədilən terrordan sonra İran, faktiki olaraq, ölkəmizin üzərinə “narkotik hücum əməliyyatı”na başlayıb. Sərhədçilərimiz, hüquq-mühafizə orqanlarımız tərəfindən, demək olar ki, hər gün Azərbaycana narkotik keçirmək istəyən bir neçə İran vətəndaşı yaxalanır. Amma cənub qonşumuz “ağ zəhər”li siyasətindən əl çəkmir.

İİR-in Ali dini rəhbəri Əli Xameneinin ofisinin əsas mətbu orqanı sayılan “Keyhan” qəzeti İsrail–Fələstin hərbi münaqişəsi ilə bağlı dərc etdiyi məqalədə Azərbaycana qarşı qərəzli və təhdidedici ifadələrə yol verib. Qəzetin Məsud Əkbəri imzalı əməkdaşı “Əgər etinasızlıq etsəniz, İsraildən sonra növbə sizdədir!” sərlövhəli məqaləsinin bir neçə yerində İsrail–Azərbaycan münasibətlərini hədəfə alıb. İsrailin enerji ehtiyaclarının yarıdan çoxunun Azərbaycan nefti hesabına təmin olunduğunu vurğulayan müəllif onu da yazır ki, Asiyadan Hind okeanı–Ədən körfəzi–Bab əl-Məndəb boğazı və Qırmızı dəniz marşrutu vasitəsilə İsrailin Eylat limanına mal daşınmalarının qarşısı husilər tərəfindən alınır: “Qeyd etdiyimiz başqa bir strateji marşrut da var ki, o da Bakı–Tiflis–Ceyhan kəməridir. Bu dəhlizin sıradan çıxarılması sionist rejimin iqtisadiyyatında ciddi böhrana səbəb ola bilər”.

Oxucularımıza xatırladaq ki, “Keyhan”ın baş redaktoru kəskin radikal mövqeyi ilə tanınan Hüseyn Şəriətmədari Əli Xameneinin birbaşa göstərişi ilə bu posta təyin olunub. Bu qəzetdə dərc olunan yazılar məhz Əli Xameneinin başçılıq etdiyi mühafizəkar qanadın – SEPAH və ETTELAAT-ın mövqeyini əks etdirir. Maraqlıdır ki, “Keyhan”nın bu təxribatçı çıxışına ilk reaksiya xaricdə fəaliyyət göstərən müxalif ekspertlərdən gəldi. Onlar qəzetin bu məqaləsini neft kəmərinə qarşı təxribata çağırışı kimi dəyərləndiriblər.

***

İranın özünün gərgin siyasi durumda olduğu bir dönəmdə Azərbaycanla münasibətləri normallaşdırmaq, onu yenidən qazanmaq əvəzinə, bu cür təxribatçı, yanlış siyasətə əl atmasının səbəbi nədir? Yəqin, əsas səbəb İran kimi teokrat rejimlərin yalnız belə, siyasi məntiqə sığmayan üsullarla hakimiyyətdə qala bilməsini düşünmələridir. İranın bir dövlət kimi forma və məzmunu 1979-cu ilin fevralında baş vermiş “yaşıl inqilabdan” dərhal sonra ortaya çıxmışdı. Açıq demək lazımdır ki, Orta əsrlərdən qalma təfəkkürlə indikindən fərqli idarəçilik sistemini gözləmək də sadəlövhlük olardı. İslam bayrağı altında, əslində, dinimizə uyğun olmayan əməlləri əlində silaha çevirmiş bu rejimin 45 il ərzində ayaqda qalmasına təəccüblənməmək olmur. Yəni, belə rejimlər mütləq hərdən qəzəblənməli, şişməli, daxildə və xaricdə ona qarşı gedənlərə hədə-qorxu gəlməlidir. Təzada diqqət yetirin: Qərbi söyən, başına əmmamə qoymuş ayətullaların övladları öz bizneslərini həmin Qərbdə qururlar, “barışmaz düşmən” ABŞ iqtisadiyyatına milyardlarla dollar sərmayə qoyurlar... Amma rejim İsrailin “sionist rejimini yer üzündən silməklə” hədələyir. Artıq hər kəsə məlumdur ki, İsrailin İranın Dəməşqdəki səfirliyinə hava zərbəsinin “qisası” kimi, Tehran məhz Tel-Əvivin “icazəsi ilə” onun “dərinliklərdəki hədəflərinə” birbaşa raket hücumu təşkil etdi. Üstəgəl, bu zaman çox öyündüyü silahlarının nəyə qadir olduğunu bütün dünya gördü...

**Milli Məclisin üzvü, politoloq Rasim Musabəyov hesab edir ki,** Tehranın son hərəkətlərinə heç cür haqq qazandırmaq olmaz. Bu yaxınlarda Azərbaycan və İran prezidentlərinin Xudafərin su bəndinin açılışı ilə bağlı görüşəcəklərini diqqətə çatdıran politoloq bu ərəfədə belə təxribatçı bəyanatların, yazıların Tehranın maraqlarına cavab vermədiyi qənaətindədir: “Belə hərəkətlər yolverilməzdir. Azərbaycan kifayət dərəcədə özünə arxayın bir dövlətdir. Həmin məqalənin müəllifi getsin içində yaşadığı rejimin aqibəti barədə düşünsün. İran xalqı molla rejimindən, SEPAH-dan çoxdan bezib. Öz problemləri ilə məşğul olmaq əvəzinə, sağa-sola əl uzatmaqla məşğuldur. Halbuki bu ölkənin vətəndaşları düşdükləri ağır vəziyyətdən çıxmağın yollarını axtarırlar. Aydın



məsələdir ki, belə cızma-qaraların Azərbaycana heç bir təsiri ola bilməz. Sadəcə olaraq, onlar növbəti dəfə özlərinin təxribatçı simalarını açıqlayıblar”.

Azərbaycanda Tehran rejimi ilə bağlı heç bir ümidə və illüziyaya yer qalmadığını deyən deputat bu səbəbdən ölkəmizin ünvanına səsləndirilən təhdid və iddiaların əks-təsirə deyil, sıfıra bərabər olduğu qənaətindədir.

***

Əslində, təəccüb doğuracaq heç nə baş vermir. İİR-in molla rejiminin Azərbaycana qarşı təhdid və hədə-qorxularına baxdıqda, tamamilə əmin olursan ki, Tehran ölkəmizə qarşı düşmənçilik, məzhəbçilik və aşağılama siyasətindən əl çəkməyib. Yenə də Azərbaycanı müttəfiqimiz və dostumuz İsraillə əməkdaşlıqda ittiham edir. Biz isə bunu gizlətmirik. Bəli, dünyanın ən güclü diasporuna, lobbiçiliyinə sahib yəhudilər Azərbaycana dünən də, bu gün də siyasi dəstəklərini əsirgəməyiblər. 44 günlük Vətən müharibəsində İsrail yenə bizim yanımızda idi. Fəqət rəsmi Tehran işğal altındakı torpaqlarımızdakı müsəlman məscidlərində ermənilərin donuz saxlamasına nəinki göz yumdu, onlara hər cür yardım etdi.

Tehrandakı molla rejiminin Bakı–Tbilisi–Ceyhan neft kəmərində hansısa terror aktını törədə biləcəyinə qətiyyən şübhə etmirik. Adı beynəlxalq terrorizmi dəstəkləyən ölkələrin siyahısında olan İran nəyi bacarmasa da, bunu yaxşı bacarır. İş o yerə çatıb ki, biz artıq cənubdan hər cür pisliyi gözləyirik. Məgər son 32 ildə onlar tərəfindən bunu görmədikmi? Cənubi Azərbaycanda yaşayan 40 milyonluq Azərbaycan türkündən çəkinən molla rejimi günlərin birində onların da, Şimali Azərbaycan kimi, öz müqəddəratını təyin edə biləcəyindən qorxur. Məhz bunun baş verməməsindaən ötrü müstəqil və suveren Azərbaycana qarşı hər cür təxribatlara baş vurur. Amma divarın qurtaran yeri olduğu kimi, bunun da bir sonu var.

***

Tehran rejimi Azərbaycanın İsrailə enerji daşıyıcıları verməsi ilə bağlı ittihamlarını daim gündəmdə saxlamaqla, geniş ictimaiyyətin Bakıya münasibətini özünün maraqlarına uyğun şəkildə formalaşdırmaq məqsədini güdür. Dini də siyasi alətə çevirən rejim, eyni zamanda, Azərbaycanın bir qədər sadəlövh inanclı kəsiminə təsir etməyə, məzhəbçilik siyasəti ilə onların dövlətə münasibətini istiqamətləndirməyə cəhd edir.

Digər tərəfdən, İran indiyə qədər fələstinlilərin hüquqlarının qorunması, Qüds məsələsində Fələstinin üstünlük əldə etməsi üçün heç bir şey etməyib. Köməyi o yana qalsın, bu gün Qəzza bölgəsində baş verən qanlı hadisələrin günahkarlarından biri də elə İrandır.

***İmran BƏDİRXANLI***
***XQ***

# Gürcüstan və Ermənistanda yaşananlar fonunda Azərbaycan nümunəsi

**(əvvəli 1-ci səhifədə)**

Gürcüstan hakimiyyəti isə ölkə konsepsiyasının xeyrinə Qərblə periferik qruplaşmaya əsaslanan münasibətlərdən əl çəkmək istəyir. Müxalifət üçün xarici və daxili siyasi qərbləşmə dünyəvi inancın analoquna çevrilib. Onu da qeyd etmək lazımdır ki, həm Ermənistanda, həm də Gürcüstanda indiyədək heç vaxt siyasi proseslərdə görünməyən insanlar etiraz aksiyalarına çıxırlar. Baqrat Qalstanyan erməni apostol kilsəsinin keşişidir, deputat və ya eks-nazir deyil. Tbilisidə isə belə demək mümkünsə, “köhnə ulduzlar” – eks-prezident Mixeil Saakaşvili tərəfdarları və müxtəlif “üçüncü qüvvələr” mitinq keçirirlər. Bununla belə, hərəkatda, bəlkə də, AvroAtlantik “dünyəvi inanc” istisna olmaqla, indiyədək partiyası və siyasi mənsubiyyəti olmayan gənclər də var.

**Üçüncü məqam.** Ermənistanda “ənənəçilər” küçələrə çıxıblar, Gürcüstanda isə “ənənəvilər” hökumətdə və hakim partiyada çalışırlar. Kompakt Qərbyönlü quruluşun tərəfdarları da küçələrdədir. Etirazlara Qərbin dəstəyi məsələsi üzərində dayanaq. Arxiyepiskop Baqratın arxasında Avropa fondlarını və ya USAID-i təsəvvür etmək çətindir. Ancaq bu, ən vacib şey deyil. Pul ikinci plandadır. Ona tələb “kompaktlıq” və “periferiya” arzusu olduqda yaranır. Yəni iki şəraitdə. Birincisi, münaqişələrdən yorğunluq nəticəsində kömək edəcək xaric amili olduqda. İkincisi, digər güc mərkəzlərindən gələn zəif siqnallar fonunda Qərb təchizatının üstünlüyü zamanı.

Bir məqam var ki, artıq onun haqqında da danışmağa ehtiyac duyulmaqdadır. Söhbət Rusiyanın Ermənistanda və Gürcüstanda iqtisadi və sosial təsirindən gedir. Bu təsir çox güclü olub və var. Lakin o, Moskvanın media sahəsindəki üstünlüyünə çevrilmir, ya da zəif çevirir. Nəticədə Qərb mediası ikili standartlar siyasətinin gerçək katalizatoru qismində çıxış edir. Baxın, Qərb mediası Gürcüstanda yaşananları xalqın demokratiya uğrunda mübarizəsi kimi təqdim edir. Ermənistanda isə sanki demokratiya qalib gəlib, hazırda əks-inqilabi proses gedir. Hər bir halda, ortada, obrazlı desək, bətnində siyasi təbəddülatlar bəsləyən Cənubi Qafqaz gündəmi var. Görəsən, bu məkanda dinclik olmamalıdırmı? Yaxud nə zaman yaranmalıdır? Mütləqdirmi ki, SSRİ bərpa olunsun və Qərb onun gücü ilə hesablaşaraq, mövcud müstəvidəki siyasi avantürizmindən kənar dayansın?

Sonda əvvəldə haqqında söz açdığımız məqama keçid alaq. Söhbət Azərbaycandan gedir. Bəli, ölkəmiz istisnadır. Sabitliyi, təhlükəsizliyi, güclü, qüdrətli və daim inkişaf etməsi, möhkəm, çevik və oturuşmuş dövlətçilik sistemi ilə nümunədir Azərbaycan. Dövlətçiliyin Azərbaycan modeli Qərbin ikili standartlar siyasətini, o cümlədən göstərdiyimiz məsələlər müstəvisində meydana çıxan problemlərlə üzləşməmək üçün immunitetdir. Elə bir immunitet ki, həm inkişafı təmin edir, həm də kənar təsirləri zamanında müəyyənləşdirərək neytrallaşdırır.

***Ə.CAHANGİROĞLU***
***XQ***

**Bəli, danılmaz həqiqətdir ki, hayların azərbaycanlılarla qonşu kimi dinc yanaşı yaşamaq deyil, müharibə təcrübəsi var. Həm də bu təcrübənin kökləri yüz, yüz əlli il bundan əvvəlki tarixə gedib çıxır. On doqquzuncu əsrin əvvəllərində Türkmənçay və Gülüstan müqavilələri ilə başlanan separatizm, işğalçılıq və etnik ayrıseçkilik siyasəti ilə neçə hay nəslinin beyni yuyuldu. Onlarda Azərbaycan türkləri ilə yanaşı və ya birgə yaşamağın qəbuledilməzliyi fobiyasını yaradan amillərdən çox danışmaq və yazmaq olar. Amma indi Ermənistan cəmiyyəti qüsurlarla zəngin keçmişi bir tərəfə qoyub, gələcəyini necə və kiminlə birgə qurmaq barədə düşünməlidir.**

# Dincliyi pozan kim oldu?

## *Qonşularla dinc yaşamaq düşüncəsini şovinizm və işğalçılıq mərəzinin əvəzlədiyi hay beyninin “şokaterapiya”ya ehtiyacı var*



“Ermənistan və Azərbaycanın dinc yanaşı yaşamaq təcrübəsi və anlayışı yoxdur”. Bu sözləri Avropa Yenidənqurma və İnkişaf Bankının İrəvanda keçirilən illik toplantısındakı çıxışında Nikol Paşinyan deyib. Baş nazlr əlavə edib: “Müstəqilliyin ilk günlərindən bu iki respublika qarşıdurma içərisindədir, siyasi danışıqlar və dinc prinsiplərlə yanaşı, mühüm ilkin şərt var: dinc yaşamağı öyrənmək. Bu, son dərəcə çətin prosesdir. Bunun nə olduğunu, necə göründüyünü nə biz, nə də Azərbaycan bilir”.

Yəni Ermənistan baş naziri iki qonşu ölkənin dinc yanaşı yaşamasının forma və prinsiplərini bilmədiyini açıqlayır. Əslində, o, haqqında danışdığı prosesin şərtlərini axtarmaqdansa, bu təzahürü doğuran səbəblərə nəzər salsaydı daha doğru olardı. Axı Nikol Paşinyan bu gün millətinin üzləşdiyi durumun səbəb deyil, nəticə olduğunu yaxşı bilir.

“Ermənistan və Azərbaycan üçün bir-biri ilə dinc yanaşı, sülh şəraitində yaşamaq yad bir fenomendir”. Bəli, 2024-cü ildə yaşanan reallıq Ermənistan baş nazirinin dediyindən ibarətdir. Amma sizi bu cahilliyə gətirib çıxaran “tarixi təcrübəniz” əsasında formalaşdırdığınız və içinizə gömdüyünüz etnik natamamlıq kompleksi, qonşunun malına, torpağına xor baxmağınız, “yersiz gəldi, yerli qaç” xəstə təxəyyülünüzdür. Burada araşdırmaya, dərin təhlilə ehtiyac duyulmur.

“Ermənistanla Azərbaycan arasında dinc həyat üçün alətlərə ehtiyac var. Bu vasitələrdən biri də İrəvanın təklif etdiyi “Dünyanın kəsişməsi” layihəsidir. Əhəmiyyətli məqam ondan ibarət ola bilər ki, Ermənistan və Azərbaycan bir-biri üçün avtomobil və dəmir yolları açsın, qarşılıqlı hörmət əsasında ərazi bütövlüyü və suverenliyinin tanınması ilə bir-birinin ərazisindən neft, qaz kəmərləri, elektrik xətləri və kabellər çəkmək imkanı olsun”, – Nikol Paşinyan çıxışında qeyd edib.

Belə yerdə deyirlər, “avazın yaxşı gəlir...”. Amma gərək ortada sülh müqaviləsi ola ki, Paşinyanın arzuları da həyata keçsin. Yəqin, Ermənistan baş naziri vaxtın onun ziyanına işlədiyinin fərqindədir. Bakı iki qonşu ölkə və xalq arasında öz haylarının yandırdığı körpüləri bərpa etməkdən ötrü Paşinyana vaxt da verir, imkan da. Qalır daxili və xarici təhdidləri adlamaq və konkret addımlar atmaq. O ki, qaldı cəmiyyətin rəyinin faydalı məcraya yönəlməsinə, pozduqları dincliyin yenidən bərqərar olmasına, bu məsələni zaman həll edəcək.

İndi bu sualın cavabını ermənilər düşünməlidir: əgər onlar bizimlə yanaşı, sülh şəraitində yaşamaq istəyirlərsə, beyinlərini dumanı hələ də çəkilməmiş “miatsum” tiryəkindən, qonşularına “nifrət patologiyası”ndan təmizləməli, Azərbaycan türkünə düşmən kimi baxmaq fobiyasından əl çəkməlidirlər. Hayastan cəmiyyəti, bir növ, “şokaterapiyaya” ehtiyac duyur. Amma, təəssüf ki, erməni xalqı, bütövlükdə, hələlik buna hazır deyil. “MPG/Gallup” Beynəlxalq Assosiasiyasının 1.100 erməni respondent arasında keçirdiyi rəy sorğusunun nəticələri də özlüyündə bu həqiqəti təsdiqləmiş oldu. “Sülh və təhlükəsizliyə təminat verilərsə azərbaycanlılarla birgə yaşamağa hazırsınızmı?” – sualına hay respondentlərin 81,8 faizi “yox” cavabını verib.

Bizim üçün bu sorğunun nəticələrini maraqlı edən məqamı odur ki, erməni respondentlərin 18,2 faizi onlara verilən suala “hə” cavabını deyib. Yəni hayların bir qismi artıq tarixi reallığı qəbul edir, şovinist düşüncədən azaddır və Azərbaycanla qonşuluq münasibətlərinin bərpasına tərəfdardır.

“Su çanağı suda sınar” deyiblər. Bu gün Ermənistan özünün rəmzi dövlətçiliyini qoruyub saxlamaq, dünyanın siyasi xəritəsindən silinmək istəmirsə, qayıdıb təbii qınına girməli, “miatsum”, “dənizdən–dənizə böyük Ermənistan” kimi sərsəm və utopik iddialardan birdəfəlik əl çəkməlidir. Həm də bunu xoşluqla, dinc yolla etməlidir. Əks–təqdirdə Azərbaycan bu məsələni məqbul saydığı üsulla həll etməli olacaq.

***İ.HƏSƏNQALA***
***XQ***

### Ekspert rəyi



**Arzu ABDULLAYEV, Naxçıvan Dövlət Universitetinin prorektoru, tarix üzrə fəlsəfə doktoru**

–Nikol Paşinyanın dünənki açıqlamasında müstəqillikdən bu günədək Azərbaycanla Ermənistanın dinc yanaşı yaşamaq təcrübəsinin olmadığını deyir. Ardınca qeyd edir ki, dinc yaşaya bilməməyimizdən bu gün çətin durumla üz-üzəyik və bundan necə qurtulacağımızı da bilmirik. Paşinyan bu sözləri deməklə, əslində, reallığı etiraf edir, təəssüf ki, məsələnin alt qatını, uzaqlaşmaya gətirib çıxaran amilləri dilə gətirmir. Bu amilləri Paşinyan, eləcə də Ermənistan hökuməti çox yaxşı anlayır, amma etiraf etmək istəmir. 1990-cı ilin mayında Ermənistanda keçirilən parlament seçkilərində Erməni hərəkatının qalib gəlməsi nəticəsində müharibəni təbliğ edən ifrat millətçi və şovinist qüvvələr hakimiyyətə yiyələndilər. Bu isə onların işğalçı müharibəyə başlamasını daha da sürətləndirdi. 2020-ci il noyabr ayına qədər Ermənistan hərbi təcavüz nəticəsində Azərbaycan torpaqlarının 20 faizi işğal altında saxladı. Birinci Qarabağ müharibəsində 20 mindən çox azərbaycanlı öldürülüb, 50 mindən çoxu isə əlil olub. İşğalçı Ermənistan BMT-nin qətnamələrinə heç vaxt məhəl qoymadı.

2018-ci ildə inqilab yolu ilə hakimiyyətə gələn Paşinyan və onun komandası sülhə gəlmək, işğal etdikləri torpaqların qaytarılması üçün nəinki təşəbbüs göstərmədi, əksinə, münaqişəni qızışdırmaqla məşğul oldu. Baş nazir 2019-cu il avqustun 5-də Xankəndidə “Qarabağ Ermənistandır və nöqtə” açıqlaması ilə əsl məqsədlərini aydın şəkildə göstərdi. Bu, artıq Bakının səbr kasasının daşması demək idi. 2020-ci il sentyabrın 27-də başlanan və 44 gün davam edən Vətən müharibəsi bütün sualların cavabını Zəfərimizlə verdi. 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatla kapitulyasiya ilə razılaşan İrəvan 2023-cü ilin sentyabrında “Dağlıq Qarabağ” adlı münaqişənin tarixin arxivinə göndərilməsi faktını da qəbul etdi.

Bütün bunları Paşinyan yaxşı anlayır. Onu da bilir ki, münaqişə dövründə Bakının xoşməramlı, sülhpərvər çağırışlarına İrəvanın cavabı adekvat olmayıb. Məgər qonşuluq münasibətləri yalnız bir tərəfin təşəbbüsü ilə bərpa edilir? Belə görünür ki, dinc yanaşı yaşamaq üçün reallıqla hesablaşmalı, irəli baxmalı olan Nikol Paşinyanda siyasi iradə çatmır. Sülh sazişinin imzalanması, kommunikasiyaların açılması, regional layihələrdə əməkdaşlıq daha çox rəsmi İrəvanın maraqlarına xidmət edir. Rəsmi Bakı bunu reallaşdırmaq üçün bütün addımları atır, İrəvana səmimi və dürüst qonşu olmağın yollarını göstərir.

# Azərbaycan–Belarus münasibətlərində yeni mərhələ



**Dünya birliyinin layiqli üzvünə çevrilən Azərbaycanın beynəlxalq aləmə inteqrasiyası getdikcə dərinləşir, inkişaf etmiş ölkələrlə müxtəlif sahələrdə əməkdaşlıq genişlənir. Respublikamızda həyata keçirilən qlobal enerji layihələri, eləcə də ölkəmizin beynəlxalq nəqliyyat qovşaqlarının mərkəzinə çevrilməsi bu prosesi daha da sürətləndirir.**

Son illər iqtisadi sahədə əldə olunmuş yüksək göstəricilər, enerji layihələrinin uğurla həyata keçirilməsi Azərbaycanı dünyanın inkişaf etmiş ən nüfuzlu dövlətləri üçün etibarlı tərəfdaşa çevirib. Bunun nəticəsidir ki, artıq Cənubi Qafqaz regionunun ən sabit və davamlı inkişaf edən bir ölkəsi kimi tanınan Azərbaycanla hərtərəfli əməkdaşlıq əlaqələrini daha da möhkəmləndirməyə xüsusi maraq göstərən dövlətlərin sırası genişlənib.

Əlverişli geosiyasi mövqeyi ilə fərqlənən Azərbaycan Respublikasının bu gün beynəlxalq enerji və nəqliyyat infrastrukturu layihələrinin mərkəzinə çevrilməsi ölkəmizə marağı artırır. Son illər Azərbaycanın postsovet məkanına daxil olan dost ölkələrlə də əlaqələrinin səviyyəsi yüksələn xətlə inkişaf edir. Bu baxımdan Azərbaycanın Belarusla mövcud əməkdaşlıq əlaqələri diqqəti daha çox çəkir. Respublikamızla adı çəkilən ölkə arasında mədəniyyət və humanitar sahələrlə yanaşı, ticarət və iqtisadi əməkdaşlıq istiqamətində də ildən-ilə irəliləyişlər nəzərə çarpır.

Onu da deyək ki, rəqabət, antiinhisar siyasəti, dövlət satınalmaları və istehlakçı hüquqlarının müdafiəsi sahələrində iki ölkə arasında əməkdaşlığın inkişaf etdirilməsinə, eləcə də müvafiq istiqamətlər üzrə qarşılıqlı təcrübə mübadiləsi imkanlarına xüsusi önəm verilib. Bu il iyulun 1-dən respublikamızda qüvvəyə minəcək Rəqabət Məcəlləsi, o cümlədən ilin əvvəlindən etibarən tətbiqinə başlanılan “Dövlət satınalmaları haqqında” yeni Qanun və rəqabət sahəsində xidmətlərin rəqəmsallaşdırılması istiqamətində atılan addımlar nəticəsində dost ölkə ilə iqtisadi əməkdaşlıq sürətlənib.

Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun respublikamıza dövlət səfəri çərçivəsində bu ölkənin nümayəndə heyəti ilə Azərbaycan rəsmilərinin görüşləri də səmərəliliyi ilə diqqət çəkib, həlli vacib olan bir sıra məsələlər geniş müzakirə olunub. Qarşılıqlı fəaliyyətin perspektivləri barədə söhbət açılarkən böyük potensiala malik əmtəə dövriyyəsinin artırılması, sənaye kooperasiyası və kənd təsərrüfatında əməkdaşlığın genişləndirilməsi zəruriliyi xüsusi vurğulanıb. Azərbaycanın azad edilmiş ərazilərin bərpasında Belarus şirkətlərinin, müəssisələrinin fəal iştirakı arzulanıb.

Belarus ilə Azərbaycan arasında geniş əməkdaşlıq əlaqələri var. Respublikamız dost ölkəyə keyfiyyətli meyvə-tərəvəz və zeytun yağı ixrac edir və bu məhsullar əhali tərəfindən rəğbətlə qarşılanır. 17-ci Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı “Caspian Agro” və 29-cu Azərbaycan Beynəlxalq Qida Sənayesi “InterFood Azerbaijan” sərgilərində Belarusun kənd təsərrüfatının bütün sahələrini təmsil edən 42 şirkətin iştirakı da bunun bariz ifadəsidir.

Belarusun Baş nazirinin müavini İqor Petroşenko həmin sərgilərinin açılış mərasimində bununla bağlı deyib: “Bunlar bitkiçilik, heyvandarlıq, baytarlıq, kənd təsərrüfatı texnikaları istehsal edən şirkətlərdir. Belarus Azərbaycana kənd təsərrüfatında geniş tətbiq olunan traktorlar ixrac edir. Azərbaycanın kənd təsərrüfatında istifadə etdiyi traktorların 70 faizi Belarus istehsalıdır. Belarus Azərbaycana daha çox ət və ət məhsulları, süd və süd məhsulları ixrac edir. Bakıda Belarus brendi ilə 6 mağaza fəaliyyət göstərir. Bu mağazalarda satılan ət və süd məhsulları yerli əhali tərəfindən məmnuniyyətlə alınır. Yaxın gələcəkdə Azərbaycanın regionlarında da Belarus mağazalarının açılması istiqamətində Azərbaycanın müvafiq qurumları ilə razılaşma əldə etmişik”. Baş nazirin müavini yeni mağazaların açılışında iştirak etmək üçün bir daha Bakıya gələcəyini də vurğulayıb.

*Vaqif BAYRAMOV*
*XQ*

## Ekspert rəyi

**Emin BAĞIROV,**
**iqtisadi şərhçi**



Bu gün Belarus şirkətlərinin ölkəmizin sənaye müəssisələri ilə sıx əməkdaşlığı mövcuddur. Məsələn, “Naftan” ASC Belarusun iri neft-kimya sahəsində istehsal prosesi ilə məşğul olan şirkətlərdən biridir və Azərbaycanın “Tech oil” şirkəti, Sumqayıt Sənaye Parkı ilə 10 ilə yaxındır ki, əməkdaşlıq münasibətindədir. “Caspian Agro” və “InterFood Azerbaijan” sərgilərində “Naftan” şirkətinin marketinqin idarə edilməsi üzrə rəis müavini Anton İvanov bildirib ki, şirkət Azərbaycana ildə 1000 tondan çox mühərrik, sənaye və hidravlik yağlar ixrac edir. Bu məhsullar kənd təsərrüfatında istifadə edilən avtomobil, müxtəlif profilli traktor, kombayn və digər maşın və mexanizmlər üçün işlədilir. A.İvanov, eyni zamanda, qeyd edib ki, Azərbaycanın SOCAR şirkəti ilə də sıx əməkdaşlıq əlaqələri var: “Biz şirkətdən (SOCAR) propilen, polietilen və digər neft-kimya məhsullarını alırıq. Bundan başqa, Belarusun 2 böyük neft emalı zavodu (NEZ) var. Bunlardan biri Novopolsk NEZ, digəri isə Mozirsk NEZ-dir. Hər iki zavod Rusiya ilə yanaşı, Azərbaycandan da neft alır. Həmçinin SOCAR-ın “Belneftkimya” şirkəti ilə də əməkdaşlığı var”.

A.İvanov nəzərə çatdırıb ki, “Naftan” ASC 1965-ci ildə dövlət müəssisəsi kimi yaradılıb. SSRİ dağıldıqdan sonra isə açıq səhmdar cəmiyyətə (ASC) çevrilib və bu gün yeni texnologiyaların tətbiqi ilə ildə 15 min tondan çox müxtəlif təyinatlı yağlar istehsal edir və ixraca yönəldir. ASC daxili bazarda da böyük paya malikdir.

“Naftan” ASC Azərbaycanda hazırda akademik Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu ilə əməkdaşlıq əlaqələrini davam etdirir. Bu səhmdar cəmiyyətin elmi laboratoriyalarında çalışan alimlər respublikamızdakı həmkarları ilə əlaqələr yaradaraq birgə elmi-tədqiqatlar aparır, müxtəlif elmi simpozium və konfranslarda neft-kimya sahəsindəki araşdırmaların nəticələrini müzakirə edirlər.

Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun respublikamıza dövlət səfəri zamanı imzalanan mühüm sənədlərin ikitərəfli münasibətlərin inkişafına güclü təkan verəcəyi də şəksizdir. Ölkələrimiz arasındakı hüquqi bazanın daha da genişlənməsinə xidmət edən həmin sənədlər malların mənşəyinin sertifikatlaşdırılmasında elektron sisteminin qarşılıqlı tətbiqinə, rəqabət siyasəti, dövlət satınalmaları, istehlakçı hüquqlarının müdafiəsi və reklam fəaliyyəti sahələrində əməkdaşlıq əlaqələrinin möhkəmlənməsinə təkan verəcəkdir. Azərbaycan-Belarus ikitərəfli münasibətlərinin perspektivləri barədə danışan Prezident İlham Əliyev geniş tərkibdəki görüşdə deyib: “Bir çox məsələlər – ikitərəfli gündəlik, regional və beynəlxalq məsələlər üzrə ətraflı danışdıq. Münasibətlərimizin strateji xarakterini bir daha təsdiq etdik. Ölkələrimiz arasında etimada, qarşılıqlı hörmətə, dostluğa və əməkdaşlığa əsaslanan kreativ tərəfdaşlığı çox yüksək qiymətləndiririk. Bu münasibətlər zamanın sınağından çıxıb və zənnimcə, Belarus ilə Azərbaycanın etibarlı dost olmaları heç kimdə şübhə doğurmur. Bu, dövlətlərarası münasibətlərimizin əsasıdır, çünki yalnız qarşılıqlı etimad şəraitində həmişə bütün vəziyyətlərdə ikitərəfli dəstəyə arxalanaraq irəliləmək mümkündür”.

Dövlətimizin başçısı sözlərinə əlavə edərək qeyd edib ki, qarşılıqlı fəaliyyətimizin perspektivlərinə baxdıqda böyük potensialı, əmtəə dövriyyəsinin artmasını və sənaye kooperasiyasında, kənd təsərrüfatında əməkdaşlığın genişləndirilməsini görürük. Əlbəttə, biz azad edilmiş ərazilərin bərpasında Belarus şirkətlərinin, müəssisələrinin iştirakına da şad olardıq...

İqtisadi sahədə əlaqələrin genişləndirilməsində birbaşa əmtəə ticarəti ilə yanaşı, qarşılıqlı faydalı birgə əməkdaşlıq layihələrinin həyata keçirilməsi də getdikcə mühüm əhəmiyyət kəsb edir. Belarus maşınqayıranları ilə Gəncə Avtomobil Zavodu arasında əməkdaşlıq sənaye kooperasiyası sahəsində səmərəli qarşılıqlı fəaliyyətin gözəl nümunəsi kimi ölkələrimiz üçün əlamətdar layihəyə çevrilib. Uzun illik birgə iş dövründə zavod bazasında 12 mindən çox Belarus traktoru, eləcə də 4 minə yaxın digər texnika (MAZ, MZKT, AMKODOR) yığılıb. Belarus tərəfi birgə istehsal olunan texnikanın, o cümlədən yüksək ekoloji standartlara cavab verən kombaynların və müasir minik avtomobillərinin (elektrobuslar) çeşidinin genişləndirilməsi istiqamətində birgə işi davam etdirmək əzmindədir.

Belarus digər texnikaların – tikinti, kommunal, dəmir yolu, qəza-xilasetmə və müxtəlif növ xüsusi texnikanın Azərbaycana tədarükünün təşkilində perspektiv görür. Döst ölkə Azərbaycana lift tədarükünün artırılmasında, eləcə də müvafiq istehlak həcmləri üçün onların yığılması istehsalının yaradılmasında maraqlıdır.

Bundan başqa, Azərbaycanda aqrar sektorun, o cümlədən heyvandarlığın inkişafı proqramlarının birgə həyata keçirilməsində ciddi potensial görünür. Heyvandarlıq komplekslərinin yaradılması, həmçinin damazlıq tələbatının ödənilməsi sahəsində zəngin qabaqcıl təcrübəmizi tətbiqi, Azərbaycan ərazisində baytarlıq preparatlarının birgə istehsalının yaradılması layihəsi yüksək aktuallıq kəsb edir.

Beləliklə, Belarus Prezidenti Aleksandr Lukaşenkonun Azərbaycan Respublikasına dövlət səfəri ölkələrimiz arasında əməkdaşlığın genişləndirilməsində yeni mərhələnin başlanğıcını qoymaqla yanaşı, illik ticarət dövriyyəsinin həcminin də əhəmiyyətli dərəcədə artırılmasına imkan yaradacaqdır.

# Paşinyan daha bir sınaqdan çıxmış kimi görünür

**Ermənistan–Azərbaycan şərti sərhədinin Qazax–İcevan hissəsində iki ölkənin dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə komissiyalarının aprelin 19-da keçirilən səkkizinci iclasında rəsmi İrəvanın 4 qeyri-eksklav kəndin ölkəmizə qaytarılmasına razılıq verməsi səbəbindən Hayastanda başlanan etirazlar davam edir. Ancaq onlar nə qədər çalışsalar da, aksiyalarda kütləviliyi təmin edə bilmirlər. Mayın 4-də Tavuş vilayətindən paytaxta yürüş edən və mayın 9-da paytaxta çatan etiraçıların indiyədək cəmi bir dəfə böyük mitinqi keçirməyə müvəffəq olublar. Erməni mənbələrinin məlumatına görə, mayın 9-da İrəvanın Respublika meydanında keçirilən etiraz aksiyasında 20-30 min nəfər iştirak edib.**

Özü sülhə qarşı olsa da, mitinq iştirakçıları qarşısına sülhün rəngi olan ağ libasda çıxan erməni apostol kilsəsinin Tavuş yeparxiyasının rəhbəri Baqrat Qalstanyan baş nazir Nikol Paşinyan hökumətini ölkənin təhlükəsizlik sistemini məhv etməkdə, siyasi uğursuzluqda və kilsəni hədəfə almaqda suçlayıb. O, istefa verməsi üçün Paşinyana bir saat vaxt verib. Vaxt bitib, amma Paşinyan istefa verməyib.

Yeri gəlmişkən, qeyd edək ki, mitinqin keçirildiyi saatlarda bir çox hökumət üzvləri, o cümlədən baş nazirin mətbuat katibi Nazeli Bağdasaryan sosial media hesablarında N.Paşinyanın fotosunu paylaşaraq, onun xalqın seçdiyi lider olduğunu yazıblar. Paşinyanın mitinqin gedişi zamanı istefa verməmdiyini görən arxiyepiskop növbəti məqsədlərinin parlamentdə etimadsızlıq səsverməsi ilə baş naziri vəzifəsindən azad etmək olduğunu bildirib. O, mitinqdən sonra bu məsələ ilə bağlı iki müxalif qüvvə – sabiq prezident Robert Koçaryanın “Hayastan” fraksiyasının və digər sabiq prezident Serj Sarkisyanın qurucusu, Artur Vanetsyanın isə lideri olduğu “Şərəfim var” fraksiyasının üzvləri ilə görüşüb. Hazırda parlamentdədəki 107 yerdən yalnız 35-i müxalifət bloklarına aiddir və etimadsızlıq səsverməsi təqdim etmək üçün onlara bir səs lazımdır. Baqrat mayın 12-də keçirilən mitinqdə Qalstanyan Koçaryan və Sarkisyan dövründə müxtəlif vəzifələrdə çalışmış bitərəf deputat İşxan Zakaryanla görüşdüyünü bildirib. Deyib ki, Zakaryan Paşinyana etimadsızlıq səsvermərsində iştirak etməyə hazırdır. Amma etimadsızlıq səsverməsinin parlamentdən keçməsi üçün 54 deputatın səsi lazımdır. Bu isə parlamentdəki hazırkı qüvvələr nisbətində qeyri-mümkündür.

Buna baxmayaraq, arxiyepiskop hələ də hansısa nəticə qazanacağına ümid edir. Mayın 16-da etiraz aksiyası zamanı jurnalistlərə açıqlama verən Baqrat tezliklə bütün siyasi palitranın böyük toplantısının olacağını və hamının orada olmasını istədiyini bildirib. Deyib ki, kimin hansı ideologiyaya sahib olmasının fərqi yoxdur: “Eyni zamanda, biz müəyyən ixtisas sahibləri, peşəkar icmalarla da görüşürük. İki gündən sonra tibb ictimaiyyəti ilə görüş olacaq. Ümid edirəm ki, biz tezliklə zabitlər icması, keçmiş zabitlərimiz, eləcə də mədəniyyət xadimləri, hüquqşünaslar, iqtisadçılar, vəkillərlə görüşəcəyik”.

Ancaq Qalstanyanın nə deməsindən, kiminlə, kimlərlə görüşməsindən asılı olmayaraq, görünən odur ki, hayların böyük əksəriyyəti etiraz aksiyalarına qatılmır. Bunun mühüm səbəbi ölkəni 20 il ərzində talan etmiş Koçaryan–Sarkisyan rejiminin yenidən hakimiyyətə gələ biləcəyidir. Koçaryan və Sarkisyanın hakimiyyətə qayıdışı yeni müharibənin anonsudur. Erməni xalqı isə yeni müharibə istəmir. Onlar başa düşürlər ki, müharibə olacağı təqdirdə ona nə Robertin oğlanları Levon və Sedrak, nə də Sarkisyanın yaxın qohumlarından kimsə qatılacaq. Ona görə də cəmiyyətin təmkinli davranışı diqqət çəkir. Hiss olunur ki, haylar İkinci Qarabağ müharibəsindən nəticə çıxarıblar və istənilən təxribatın nə ilə nəticələnəcəyini yaxşı bilirlər.

Bu gün Ermənistanda Qalstanyanın təşəbbüsü ilə başlanan “Vətən üçün Tavuş” hərəkatını yalnız ən radikal fiqurlar dəstəkləyir. Etirazlara qatılanlar arasında 1982-ci ildə Türkiyənin Los-Ancelesdəki baş konsulu Kamal Arıkanı qətlə yetirən “Erməni soyqırımı ədalət komandoları” adlı terror təşkilatının üzvü Hampiq Sasunyan, 1981-ci ildə Türkiyənin Parisdəki baş konsulluğuna hücum həyata keçirən ASALA mənsubu Baqrat Şişliyan da var idi.

Rusiyayönlü əvvəlki rejim tərəfindən dəstəklənən hərəkata digər bir radikal qrupun – Milli Demokratik Alyansın (MDA) qoşulması isə çoxlarını təəccübləndirdi. Çünki MDA, adətən, Qərbyönlü kimi tanınır və Ermənistanda tez-tez anti-Rusiya etirazları təşkil edir. Üstəlik, MDA ilə keçmiş rejim arasında müəyyən düşmənçilik mövcuddur.

Meydanlara çıxanlar arasında Birinci Qarabağ müharibəsinin iştirakçısı, ultramillətçi “Sasna Tsrer”in lideri olan Livan əsilli Jirair Səfilyan da olub. Səfilyan 2016-cı ildə silahlı üsyan yolu ilə hökuməti devirməyi planlaşdırdığı səbəbindən həbs edilmişdi. Onun silahlı qruplaşma tərəfdarları İrəvanda regional polis idarəsini mühasirəyə almışdılar. Silahlı qrup prezident S.Sarkisyanın istefasını tələb etmiş və Səfilyanın həbsdən azad edilməsi üçün danışıqlar aparmağa çalışmışdı. Girov böhranı üç polis əməkdaşının ölümü ilə nəticələnmişdi. Səfilyan yalnız Paşinyan hakimiyyətə gəldikdən sonra azadlığa buraxılmış və Ermənistan vətəndaşlığı almışdı. Lakin İkinci Qarabağ müharibəsindən sonra həm MDA, həm də vaxtilə Paşinyanı dəstəkləyən Səfilyan indi müxalifət sırasındadır.

Mitinqlərdə diqqəti cəlb edən həm də əlinə mikrofon alaraq çıxış edən şəxslərin sərhədyanı kəndlərdəki vəziyyəti, insanların narahatlığını dilə gətirməməsidir. Ümumiyyətlə, məsələlərə maksimalist yanaşan bu şəxslər açıq şəkildə bildirirlər ki, onların məqsədi hakimiyyətdən yaxa qurtarmaq, Ermənistan–Azərbaycan münasibətlərinin normallaşması prosesini dayandırmaqdır.

Ancaq erməni xalqı Paşinyanın siyasətindən razı olmasa da, əvvəlki rejimin geri dönməsinə də həvəsli deyil. Arxiyepiskopun ictimaiyyətə vəd etdiyi xaos, anarxiya, Azərbaycanla müharibə və daxili siyasətdə qeyri-müəyyənlikdir. Görünən odur ki, bu etiraz da Koçaryan, Sarkisyan və “Daşnaksütyun” tərəfdarlarının 2022-ci ildə təşkil etdiyi etirazlar kimi uğursuzluğa məhkumdur.

Paşinyan isə daha bir sınaqdan çıxmış kimi görünür. Amma Nikol 2026-cı ildə keçiriləcək parlament seçkilərində istədiyini nəticəni əldə etməyə də bilər. Ona görə də Paşinyan vaxt itirmədən qonşuları ilə münasibətləri normallaşdırmaq üçün daha cəsarətli addımlar atmalı, regional əməkdaşlığın və sərhədlərin müəyyənləşdirilməsinin Ermənistanın xeyrinə olduğunu sübut etməlidir.



Mövzu üzrə “XQ”yə açıqlama verən **“Qafqaz Strateji Araşdırmalar Mərkəzi”-nin sədr müavini, siyasi elmlər üzrə fəlsəfə doktoru Nazim Cəfərsoy** bildirdi ki, hazırda Ermənistanda baş verən proseslərə baxdığımız üç məqam diqqəti cəlb edir. Bunlardan birincisi, Paşinyanın 6 il öncəki metodunun təkrarlanmasıdır. Belə ki, B.Qalstanyan da bölgədən başlayaraq, paytaxta doğru hərəkət etdi. İkincisi, revanşist qüvvələr adlandırılan ənənəvi müxalifətin indiki aksiyalarla məsafə saxlamasıdır. Üçüncüsü isə kilsənin öz mövqeyini aktiv şəkildə ortaya qoymasıdır. Kilsə təkcə aktiv şəkildə mövqe ortaya qoymur, onun bir nümayəndəsi, yəni Qalstanyan prosesin liderliyinə iddia edir.

N.Cəfərsoy etiraz aksiyalarının hansısa nəticəsinin olub-olmayacağı məsələsinə də üç fərqli istiqamətdən baxmağın tərəfdarıdır. Birincisi, Ermənistan cəmiyyətinin proseslərə reaksiyasıdır. İkincisi, hakim təbəqənin, dövlət strukturlarının mövqeyidir. Üçüncüsü isə geosiyasi faktorun roludur: “Bu üç istiqamətdən baxdığımız zaman görərik ki, erməni xalqının müəyyən təbəqəsi prosesə maraq göstərir. Ancaq mitinqlərə qatılanlar əsasən ötən il Qarabağdan gedən ermənilərdir. Hazırda onlar ənənəvi erməni təfəkkürünün təmsilçiləri kimi çıxış edirlər. Erməni xalqının böyük hissəsi isə proseslərə daha təmkinli, daha məsafəli və ayıq yanaşır. Bu, həm yorulmaqdan, usanmaqdan, həm də meydana çıxanların ortaya aydın həll modeli qoymamasından irəli gələ bilər. “Tavuş bizim vətənimizdir, onu verməyək, yaxud Paşinyan satqındır” kimi ritorika insanlar üçün inandırıcı deyil. Baş verənlər erməni xalqının iqtidara dəstəyinin, hakimiyyətin dayaqlarının hələ də yetərincə güclü olduğunu göstərir. Ancaq xalq dəstəyi anlayışı dəyişkəndir. Bəzən, proseslərin sürətli inkişafı zamanı xalq dəstəyi hakimiyyətin arxasından qaça bilər və meydandakı aktiv qüvvə sayca az olsa da, prosesləri fərqli istiqamətə apara bilər”.

Politoloq bildirdi ki, proses zamanı hakimiyyətinin monolitliyi, dövlətin, əlaqədar strukturların mövqeyi də diqqəti çəkir. Burada da ilk ağla gələn hüquq-mühafizə orqanları, təhlükəsizlik xidməti və ordu olur: “Görünən odur ki, polis Paşinyanın aktiv dəstəkçisidir. Polis proseslərdə tam olaraq Paşinyanın tərəfdarı kimi çıxış edir. Bu, hakimiyyət üçün önəmli faktordur. Təhlükəsizlik xidməti də baş nazirə sadiqlik nümayiş etdirir. Ermənistan ordusu isə yeni müharibəyə nə psixoloji, nə də texniki baxımdan hazırdır. Onlar başa düşürlər ki, yeni müharibə yeni məğlubiyyət deməkdir”.

N.Cəfərsoy geosiyasi güc mərkəzlərindən heç birinin etiraz aksiyalarını dəstəkləmədiyini də vurğuladı. Qeyd etdi ki, onlar daha balanslı siyasət yürütməyə çalışırlar. Onun sözlərinə görə, bu isə etirazçıların şanslarını azaldan amillərdəndir.

**Türkiyənin Azərbaycandakı sabiq hərbi attaşesi, ehtiyatda olan general-mayor Yücel Karauz** isə bildirdi ki, revanşist



qüvvələrin müxtəlif təxribatlara əl atacaqları gözlənilən idi. Onun sözlərinə görə, Xocalı soyqırımını törədənlərin, işğal edilmiş əraziləri viran qoyan şəxslərin mövcud durumla barışması mümkün deyil. Çünki onların əlindən böyük bir mənfəət çıxıb. İndi isə onlar mühakimə olunacaqlarından qorxurlar: “Revanşistlərin təxribatlarının arxasında Azərbaycanla sülh əldə olunmasını istəməyən Qərbdəki müəyyən qüvvələr dayanır. Onları cəsarətləndirən məhz həmin qüvvələrdir. Türk diplomatlarına sui-qəsd edənlər, Xocalıda soyqırımı törədənlər, savaşmaq əvəzinə cəbhədən qaçanlar bu aksiyalarda öndədirlər”.

Y.Karauz qeyd etdi ki, erməni xalqı isə Azərbaycanla, Türkiyə ilə müharibə istəmir. Əksinə, iki ölkə ilə barışmaq istəyir. Çünki erməni xalqı Azərbaycanla sülh müqaviləsinin imzalanmayacağı təqdirdə dövlətçiliyinin böyük itkilərə məruz qalacağını anlayır. Digər tərəfdən erməni xalqı “ikinci Ukrayna” olmaqdan qorxur. Bu xalq 200 ildir başqalarının maşası olub, öz həyatını yaşamayıb.

Sabiq hərbi attaşenin fikrincə, yeganə çıxış yolu bölgənin sülh, sabitlik məkanı olmasındadır. Azərbaycan və Türkiyə ilə qonşu olan Ermənistanın, əslində, başqa şansı da yoxdur. Revanşistlərin uğur qazanmaları yalnız Ermənistanın dövlət kimi məhv olması sürətləndirə bilər.

*Səxavət HƏMİD*
*XQ*

Roza Cəlilova – 95

# “Gülüstan”ın ağ çiçəyi...

**Onun rəqsləri könüllərdə sevinc doğurub, tamaşaçılara səadət bəxş edib. O, sanki həyatının hər anını rəqslə yaşayıb. Sənətinə sevgisi gözlərindən, sözlərindən, səhnədəki izlərindən bilinir. Söhbət 95 yaşlı rəqqasə, xoreoqraf-baletmeyster, Xalq artisti Roza Cəlilovadan gedir.**



Minlərlə pərəstişkarları kimi, onun rəqslərinə həvəslə tamaşa etmişəm, xoş təbəssümünü görmüşəm, mənalı baxışları ilə rastlaşmışam. O, həmişə səhnədə şux görünüb. Sonuncu dəfə özünün 90 illik yubileyində rəqs edib, bir də Xalq artisti Fərhad Bədəlbəylinin yubileyində qonaq qismində iştirak edəndə, özündən asılı olmayaraq, həzin musiqi sədaları altında qollarını qaldırıb oynamağa başlayıb. Dediyinə görə, ömrünün bu çağında da evdə güzgü qarşısında müəyyən rəqs elementlərini ifa edir.



Roza Cəlilova ömrünün yarım əsrdən çox hissəsini səhnəyə həsr edib, oynaq ifaları ilə rəqslərə möhür vurub, baletdən xalq rəqslərinə böyük ustalıqla keçid edib. Amma kimisə təkrarlamayıb. Yeri gəlmişkən, o, Xalq artisti Əminə Dilbazi üçün qurulan rəqsləri oynamaqdan imtina edib. Yaxşı bilib və etiraf edib ki, həmin rəqslərdə Əminə Dilbazi öz imzasını çoxdan qoyub. Məşhurlaşandan sonra özü üçün ayrıca rəqslər qurulmasına nail olub. Daim öz dəst-xəttini göstərməyə çalışıb və buna uğurla nail olub. Bu, onun öz yaradıcılıq fəaliyyətinə həssas və canlı maraq hissi ilə yanaşmasından irəli gəlib.

O, 1929-cu il mayın 17-də Quba rayonunda doğulub. Bakı Xoreoqrafiya məktəbini bitirib. Opera və Balet Teatrının truppasında 2 il çalışdıqdan sonra dövlət filarmoniyasının Mahnı və Rəqs Ansamblına keçib. Əvvəlcə aparıcı solist kimi fəaliyyət göstərib, sonra isə 10 il (1965-1975-ci illər) həmin ansanbla rəhbərlik edib. Ümumdünya festivallarının və Beynəlxalq müsabiqələrin laureatı olub.

Sənətinin vurğunu Roza xanım uzun illər xoreoqraf kimi çalışıb. Onun 1989-cu ildə yaratdığı "Gülüstan" mahnı və rəqs ansamblı xeyli məşhurlaşıb. Həmin ansanblla vaxtaşırı xarici ölkələrə dəvət olunub. Buna görə də repertuarında Azərbaycanın milli rəqsləri ilə yanaşı, fars, hind və bir sıra başqa xalqların rəqsləri də geniş yer alıb. Səhnə fəaliyyətinin 30 ildən artıq dövrü ərzində Kanadada, Çexoslovakiyada, Efiopiyada, Çində, ABŞ-də, Türkiyədə, İraqda, Mərakeşdə qastrol səfərlərində olub. Müxtəlif dövrlərdə Azərbaycanın ayrı-ayrı yerlərində, o cümlədən, Naxçıvanda, Lənkəran, Şamaxı, Cəbrayıl, Saatlıda, müxtəlif folklor rəqs qrupları yaradıb. Bakı Dövlət Universitetinin nəzdindəki “Sevinc” rəqs ansamblına da rəhbərlik edib. Pedaqoji fəaliyyətini Milli Konservatoriyanın nəzdindəki gimnaziyada uğurla davam etdirib.

Hər zaman tamaşaçıların zövqünü oxşaması, onların rəğbətini qazanması "Şöhrət" ordenli Xalq artisti Roza Cəlilovanın illərcə çəkdiyi zəhmətin bəhrəsi idi. O, baletdən milli rəqslərə uğurla keçid etməklə bərabər, sənətində başqa iklərə də imza atıb. Azərbaycandan ABŞ-a ilk rəsmi dəvət əsasında, məhz onun yaratdığı “Gülüstan” rəqs ansanblı qastrol səfərinə gedib. Orada konsertləri böyük coşqu ilə qarşılanıb. Qastrol səfərində ölkələr arasında ən çox Azərbaycanın milli musiqiləri və rəqsləri bəyənilib və alqışlanıb. Xarici qastrol səfərlərində olanda onun rəqslərini hindlilər də görüb, bəyənib, yüksək dəyərləndiriblər. Ona hind rəqslərinə aid paltarlar və başqa əşyalar hədiyyə ediblər.

Qızğın təbiətli rəqqasə öz sənətinin yolunda hər çətinliyə dözüb, heç vaxt sənətdən bezməyib, əksinə, rəqqasə olması ilə böyük şərəf düyub. Artıq uzun illərdən bəri pensiyada olsa da, öz romanrik rəqslərindən elə şirin-şirin danışır ki, sanki indicə səhnədən ayrılıb, yenicə rəqsdən gəlib… Onun səhnə həyatı özünün yaratdığı “Gülüstan”a, özü isə həmin“Gülüstan”ın ağ çiçəyinə bənzəyir…

Prezidentin fərdi təqaüdçüsü olan ünlü xoreoqraf – baletmeyster, rəqqasə Roza Cəlilovaya bundan sonra da sağlam və bərəkətli ömür arzulayırıq.

***Həzi HƏSƏNLİ,***
***şair-publisist***

# Bilik – məlumat bazası təhsilin uğur qaynağıdır

**Məlum olduğu kimi, bu ilin yazı Azərbaycanda peşəkar xoreoqrafiya təhsilinin 95, Bakı Xoreoqrafiya Akademiyasının (BXA) isə 10 yaşının tamam olması ilə əlamətdardır. Bununla bağlı bir sıra yubiley tədbirləri keçirilib. Oxuculara təqdim etdiyimiz müsahibə isə akademiyanın həyatında mühüm rol oynayan kitabxana-informasiya mərkəzinin fəaliyyəti barədədir. Mərkəzin müdiri İradə Ağayeva həmsöhbətimizdir.**

***– İradə xanım, yaradıcı sahələr üzrə təhsil müəssisələrində kitabxana-informasiya şəbəkəsi də zəruri strukturdur. Bu, tələbələrin tədris prosesinə və intellektual inkişafına müsbət təsir göstərir. Xoreoqrafiya akademiyasında kitabxana-informasiya mərkəzinin işini necə təşkil edirsiniz?***

– Əvvəla qeyd edim ki, kitabxana, sadəcə, dərslik və digər ədəbiyyatın qorunub saxlandığı yer deyil, həm də nağıl və hekayələrin, elmi biliklərin və ilhamın iç-içə keçdiyi, gənclərin dünyagörüşünün formalaşmasına xidmət edən məxsusi bir ocaqdır. Hazırkı kompüter və internet dövründə ənənəvi çap məhsullarının rolunun guya günbəgün azalması ilə bağlı yanlış fikir var. Lakin rəqəmsal əsrdə belə kitabxanalar yeni texnologiyalara uyğunlaşaraq və elektron kitablara, onlayn resurslara və təhsil proqramlarına çıxışı təmin etməklə aktuallığını qoruyub saxlayır. Onlar informasiya boşluğunun doldurulmasında və əhalinin bütün təbəqələrinin informasiyaya bərabər çıxışının təmin edilməsində əsas rol oynayır. Beləliklə, kitabxana təkcə kitab anbarı deyil, həm də bilik və ideyaların daim dövr etdiyi, hər bir ziyarətçinin zənginləşdiyi canlı məkandır.

BXA-nın kitabxana-informasiya mərkəzi şagird və tələbələrimizi təhsil proqramları və tədqiqatlar üçün lazım olan kitab, jurnal və elmi mənbələrlə, eləcə də onlayn resurslarla təmin edir ki, bu da təhsil və araşdırma imkanlarını genişləndirir. Eyni zamanda mərkəzimiz akademiyada elmi iş üçün vacib olan informasiya savadlılığı vərdişlərinin inkişaf etdirilməsi üzrə təlimlər, seminarlar, mühazirələr, hətta ustad dərsləri kimi maarifləndirici tədbirlərin keçirildiyi zaman ən çox müraciət edilən zəruri bir sturktur bölməsinə çevrilir. Mən artıq 6 ildir ki, bu mərkəzə rəhbərlik edirəm. Təhsil ocağımız cəmi 10 yaşı olan akademiya kimi və daha öncə sırf məktəb kimi fəaliyyət göstərdiyi üçün burada xeyli işlərin görülməsinə ehtiyac vardı. Odur ki, ilk gündən kitab fondunun düzülüşünü, uçotunu və saxlanılmasını yenidən təşkil etdik. Bununla yanaşı, oxucu sorğularının öyrənilməsi əsasında kitabxana fondunun komplektləşdirilməsi üzrə təkliflər hazırlayıb rəhbərliyə təqdim etdik, oxuculara göstərilən abonement və oxu zalı xidmətlərinin bir qədər də təkmilləşdirilməsinə nail olduq.

***– Rəhbərlik etdiyiniz mərkəz akademiyada yaradıcı mühitin inkişafına hansı töhfələr verir?***

– Mərkəzimiz akademiyada yaradıcılıq mühitin yaradılması yolunda kifayət qədər səy göstərsə də, bəzən bizim fəaliyyətimizə lazımi dəyər verilmir. Bununla belə, yaradıcı mühitin formalaşmasında və innovativ ideyaların dəstəklənməsində mərkəzin rolu danılmazdır. Çünki biz oxucularımızı təkcə dərsliklər və elmi jurnallar deyil, həm də bədii ədəbiyyat, ədəbi jurnallar, musiqi yazıları və hətta filmlərlə belə təmin edirik. Bu müxtəlif materiallar tələbələrə və müəllimlərə müxtəlif mədəni və yaradıcı istiqamətlərlə tanış olmağa imkan verir, öz elmi və yaradıcı layihələrində yeni ideya və yanaşmaların yaranmasına töhfə verir.

***– Yəqin ki, keçirilən tədbirləri də, əsasən, siz təşkil edirsiniz.***

– Elədir. Biz ədəbi gecələr təşkil etməklə fərdi və kütləvi kitab təbliği işini aparırıq. Mütəmadi olaraq oxucu konfransları, ədəbiyyat icmalları, kitab sərgiləri və başqa tədbirlər keçiririk. Son iki-üç ildə bu qəbildən olan tədbirlər sırasında dahi bəstəkarların, görkəmli baletmeyster Qəmər Almaszadənin anım günlərini, Milli Müstəqillik və Milli Dirçəliş günlərinə, Zəfər Bayramına, Beynəlxaq İnsan Hüquqları Gününə aid toplantılar üçün təşkil olunmuş sərgiləri, Ümumdünya Kitab və Müəlliflik Hüququ Gününə həsr edilmiş “Hər kitab bir xəzinədir” və “Kitab ruhun qidasıdır” adlı müsamirələri, Beynəlxalq Kitab və Müəlliflik Hüququ Günü ilə əlaqədar mərasimi, Azərbaycanda ilk dəfə keçirilmiş I və II Türk Dünyası Ədəbiyyat və Kitab Festivalının açılışında xoreoqrafiya sənəti ilə bağlı kitab, foto sərgilərini, milli geyim və baletə aid rəsm əsərlərinin nümayişini və s.-ni göstərmək olar. Ulu öndər Heydər Əliyevin 100 illiyi çərçivəsində keçirilən “Gələcəyimizə çıraq ol” sosial layihəsinə dəstək vermişik.



Cəfər Cabbarlının 120 illiyinə həsr olunmuş “Mən bir sönməz ulduzam ki, daim işıq saçaram” adlı elmi-praktiki konfrans, demokrat ədib Cəlil Məmmədquluzadənin 150, Xalq yazıçısı İsmayıl Şıxlının 100, Xalq şairi Məmməd Arazın 85 illik yubileyləri də yaddaqalan olub. Bundan başqa, Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının səhnəsində oynanılan “Zəfər yolu” tamaşası ətrafında müzakirələr keçirmişik. Vaxtaşırı olaraq şagird və tələbə heyəti ilə II Qarabağ Müharibəsində iştirak etmiş əməkdaşların, məzunların, şəhidlərin ailə üzvlərinin görüşlərini də təşkil edirik.

***– Mərkəzinizin yerli və beynəlxalq əlaqələri necə inkişaf edir?***

– Ötən dövr ərzində fəaliyyətimizi həm də Qazaxıstan Milli Xoreoqrafiya Akademiyası və Bakı Xoreoqrafiya Akademiyası arasında bağlanmış kitabxana resurslarından tam istifadə etmək hüququ ilə bağlı müqavilələrə əsasən genişləndirmişik. Eyni zamanda Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti ilə birgə imzalanmış müqavilə üzrə BXA və ADMİU kitabxana-informasiya mərkəzləri arasında təcrübə mübadiləsi aparmışıq. Həmkarlarımızla Kitabxana işgüzar əməkdaşlıq şəraitində çalışırıq.

***– Müsahibə üçün sağ olun!***

***Əli NƏCƏFXANLI***
***XQ***

# Özbəkistanda birlik və qardaşlıq görüşü

**Daşkənd Toxuculuq və Yüngül Sənaye İnstitutunda “Biz bir torpağın övladlarıyıq” adlı tədbir keçirilib.**

Xalqlar arasında dostluğa aid tədbirdə Özbəkistanda akkreditə olunmuş diplomatik korpusların və Daşkənddəki mədəniyyət mərkəzlərinin nümayəndələri, jurnalistlər, yazıçılar, universitetin professor-müəllim heyəti, tələbələr iştirak ediblər. Tədbirdə Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi (AMM) də təmsil olunub.



İnstitutun elm və innovasiyalar üzrə prorektoru Azamat Eşonkulov Özbəkistanda yaşayan xalqlar arasında sülhün və tolerantlığın qorunmasının ölkənin daxili siyasətinin əsasını təşkil etdiyini vurğulayıb. AMM-in nümayəndəsi Yusif Məmmədov ortaq türk dəyərlərindən danışıb, ölkələrimizdə müxtəlif millətlərin və dini konfessiya nümayəndələrinin multikultural dəyərlərə hörmət, sülh, əmin-amanlıq şəraitində yaşadığını qeyd edib.

İştirakçılar Azərbaycan Mədəniyyət Mərkəzi üçün ayrılan guşədə ölkəmizin mədəniyyəti, ədəbiyyatı, incəsənətini əks etdirən kitab sərgisi, həmçinin ağac, saxsı və digər materiallardan hazırlanan suvenirlərlə tanış olublar. Gecənin bədii hissəsində müxtəlif ölkələrin nümayəndələri, o cümlədən AMM nəzdindəki “Azərbaycan” rəqs ansamblının üzvləri öz xalqlarının milli rəqslərini ifa ediblər.

Özbəkistan Yazıçılar Birliyinin üzvü, şair Qulamdan Taqayeva dostluq, vətənpərvərlik haqqında şeirlər oxuyub.

Tədbirdə fəal iştirakına görə Azərbaycan Mədəniyyət Mərkəzi Fəxri Fərman və xatirə hədiyyələrlə təltif edilib.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin xüsusi müxbiri***
**Daşkənd**

XQ-də görüş

# Media ana dilinin saf güzgüsü olmalıdır



**Dünən “Xalq qəzeti” redaksiyasında AMEA Nəsimi adına Dilçilik İnstitutu nitq mədəniyyəti və monitorinq şöbəsinin əməkdaşları ilə keçirilən görüşdə ölkə mediasında dil, üslub normalarına və orfoqrafiya qaydalarına necə əməl edilməsi diqqət mərkəzində oldu.**

“Xalq qəzeti”nin baş redaktoru Əflatun Amaşov qonaqları salamlayaraq Dilçilik İnstitutunun müstəqillik dövründə dövlət dilinin rəsmi statusunun bərqərar edilməsində, Azərbaycan dilinin qorunması və zənginləşdirilməsində müstəsna xidmətini qeyd etdi. O bildirdi ki, rəhbərlik etdiyi kollektiv fəaliyyətində dil norma və qaydalarını rəhbər tutmaqla yanaşı, həm də dövlətin dil siyasətinin gerçəkləşdirilməsinə öz töhfəsini verməyə çalışır. Qəzetdə dillə bağlı üstün tələblərə necə əməl edilməsini öyrənmək məqsədilə bu ilin aprel ayının bir həftəlik sayları araşdırılmaq üçün instituta göndərilib. Bu gün həmin təhlilin nəticələri birgə müzakirə ediləcək.

Dilçilik İnstitutu nitq mədəniyyəti və monitorinq şöbəsinin rəhbəri, filologiya üzrə fəlsəfə doktoru, dosent Vəfa Abdullayeva-Nəbiyeva bildirdi ki, çalışdığı qurumda 2013-cü ildən fəaliyyət göstərən və hazırda onun rəhbərlik etdiyi şöbənin əsas elmi-tədqiqat fəaliyyəti Azərbaycan dilinin dövlət dili kimi inkişafı və dilin təmizliyinin qorunması, ədəbi dil normalarının pozulmasının qarşısının alınması üçün təkliflər hazırlanması ilə bağlıdır.

Qeyd edildi ki, şöbə əməkdaşları mediada, reklamlarda, eləcə də cəmiyyətin dildən geniş istifadə edən digər sferalarında Azərbaycan dilinin fonetik və qrammatik normalarına riayət olunmasının təmin edilməsini daim izləyir, dəyərləndirir. Mediada Azərbaycan dilinin normalarına əməl edilməsi səviyyəsini müəyyənləşdirmək məqsədilə ardıcıl monitorinqlər keçirilir, nəticələr təhlil edilir və jurnalistlər üçün müvafiq dil təlimləri təşkil edilir.

Sonra şöbə müdiri və əməkdaşlar – fəlsəfə doktorları Sevinc Məmmədova, Gülnar Cəfərova “Xalq qəzeti”nin bir həftəlik saylarının monitorinqinin nəticələri barədə dil kateqoriyaları, üslub normaları və orfoqrafiya qaydaları üzrə təqdimatlarla çıxış etdilər. Dilçi alimlər qəzetin fəaliyyətində, əsasən, elmi tələblərə və təcrübi normalara əməl edildiyini vurğuladılar, yol verilmiş müəyyən pozuntuları nəzərə çatdırdılar.

Aparılan geniş diskussiyada redaksiya əməkdaşları aparılmış monitorinqin onlar üçün faydalı olduğunu dedilər, dilin inkişafı tələbindən irəli gələn bir sıra hallara elmi münasibət bildirilməsinin zəruriliyini söylədilər. Müzakirədə idman terminlərinin orfoqrafiya lüğətində kifayət qədər əksini tapmaması, dilimizə rus dilindən daxil olmuş bir sıra ölkə adlarının, coğrafi və digər terminlərin orijinalına və beynəlxalq versiyasına uyğunlaşdırılması kimi təkliflər maraqla qarşılandı.

Sonda redaksiya ilə AMEA Dilçilik İnstitutu arasında illər boyu davam edən yaradıcı əməkdaşlığı yeni istiqamətlər üzrə genişləndirmək qərara alındı.

***T.RÜSTƏMLİ***
***XQ***

# Sumqayıtda “Yaşıl dünya naminə həmrəylik” forumu

**Cari ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi ilə əlaqədar Sumqayıt Dövlət Universitetində (SDU) forum keçirilib.**

SOCAR Polimer MMC–nin, “Sumqayıt Texnologiyalar Parkı” MMC və “Glensol” şirkətinin sponsurluğu ilə SDU-nun, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin Abşeron–Xızı Regional filialının və digər qurumların dəstəyi ilə təşkil olunan forumu universitetin rektoru Rüfət Əzizov açaraq deyib ki, Azərbaycanda COP29-un keçirilməsi üzrə tədbirlər və “Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində bu tədbirin təşkili gənclər arasında ekoloji maarifləndirmə səviyyəsinin yüksəldilməsi və bu sahədə elmi-tədqiqatların aparılması baxımından xüsusi əhəmiyyət kəsb edir. Rektor COP29-un ölkənin siyasi-iqtisadi həyatında önəmli bir hadisə olduğunu, ölkəmizin 2030-cu ilə qədər sosial-iqtisadi inkişafını nəzərdə tutan prioritetlərdə təmiz ətraf mühit və yaşıl artımın ayrıca yer aldığını diqqətə çatdırıb. O əlavə edib ki, Sumqayıt Dövlət Universiteti və Azərbaycan Dövlət Neft və Sənaye Universiteti beynəlxalq reytinq təşkilatı olan “Times Higher Education”un illik “qlobal təsir” forumuna birgə evsahibliyi edəcəklər.




Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov çıxışında Azərbaycanın dünyanın ən böyük və mühüm dövlətlərarası tədbirlərindən olan COP29-a evsahibliyi etməsini beynəlxalq ictimaiyyət tərəfindən ölkəmizə olan böyük ehtiramın təzahürü kimi dəyərləndirib. O bildirib ki, ölkənin hər yerində olduğu kimi, Sumqayıtda da “Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində müxtəlif tədbirlər, o cümlədən ağacəkmə aksiyaları həyata keçirilir. Gənclik şəhəri Azərbaycanda “yaşıl dünya” naminə çağırışların öz təcəssümünü uğurla tapdığı ünvanlardan biridir. Adambaşına düşən yaşıllıq həcminə görə Sumqayıt respublikamızın şəhərləri arasında öncüllər sırasına çıxıb. Hələ bir neçə il əvvəl Sumqayıtda Dənizkənarı bulvarın yaradılması bu istiqamətdə görülən işlərin miqyasına aydınlıq gətirir. Prezident İlham Əliyevin yüksək diqqət və qayğısı nəticəsində həyata keçirilən kompleks quruculuq nümunələri Sumqayıtı gözəl, o cümlədən “ağıllı şəhər” konsepsiyasının tətbiq olunduğu modern, ekoloji baxımdan təmiz, “yaşıl şəhər”ə çevirib.

Milli Məclisin deputatı, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili çıxış edərək bildirib ki, “Yaşıl dünya naminə həmrəylik” forumu gənclərimizin ekoloji maariflənməsi və cəmiyyətdə ətraf mühitə qarşı məsuliyyət hissinin gücləndirilməsi baxımından mühüm bir addımdır. Natiq Azərbaycanda bu istiqamətdə mühüm layihələr həyata keçirildiyini, o cümlədən Qarabağ və Şərqi Zəngəzur zonasının “Yaşıl Enerji Zonası” elan edildiyini vurğulayıb.

Qeyd edilib ki, son illər ərzində Sumqayıtda görülən işlər, xüsusilə Kimya Sənaye Parkının təsis edilməsi və mövcud sənaye müəssisələrinin müasir texnologiyalar əsasında yenilənməsi şəhərin ekoloji vəziyyətinin yaxşılaşdırılmasında mühüm rol oynamışdır.

Milli Məclisin deputatı Nigar Arpadarai, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Dövlət Məşğulluq Agentliyinin İdarə Heyətinin sədri Mustafa Abbasbəyli, Neft Kimya Prosesləri İnstitutunun baş direktoru Vaqif Abbasov da çıxış edərək müzakirə olunan mövzuya münasibətlərini bildiriblər.

Sonra “Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində ağacəkmə aksiyası keçirilib. Forumdan sonra qonaqlar “Yaşıl iş yerləri” sərgisi ilə tanış olublar. Sərgidə ölkəmizdə fəaliyyət göstərən müxtəlif sektorlardan 70-dən çox qurum və şirkət təmsil olunub. Şirkət nümayəndələri tərəfindən tələbə və məzunlar Azərbaycanın ən iri özəl şirkətləri və dövlət qurumlarında vakansiyalar, işəgötürmə prosedurları haqqında məlumat alıblar.

Forum sessiyalar üzrə davam edib.

***Ə.ƏLİYEV***
***XQ***

# Hərdən tənhalığa çəkilin...

## (yaşantı)

**Bəzən işə-gücə, ailə qayğılarına, dost-tanışla münasibətlərə, bir də narahat dünyamızda baş verən mühüm olaylara başımız o qədər qarışır ki, həftənin necə ötüb keçdiyini o qədər də hiss etmirik. Onda ayılırıq ki, aylar calanıb birinə, yaz yay olub və ili də yarı eləmişik. Sonra da yayın qızmar çağları başlayır və kölgələnməyə sərin yer axtarırıq. Yarpaq tökümü və ilk payız yelləri əsməyə başlayanda isə təəssüflə: "daha ilin axırına nə qaldı ki...", - deyirik.**



Quşlar dəstə-dəstə cənuba doğru qatarlananda, dağların zirvələrinə ilk qar ələnəndə, torpağa ilk qırov düşəndə: "bu il nə tez ötdü", yaxud "ömrümüzün bir ili də keçdi", deyib, kövrəlirik. Çünki ömrümzün sarayından düşən kərpic qızıldan da qat-qat qiymətlidir. Çünki o illər bir də geri dönməyəcək, o günlərin, ayların sevincini bir daha olduğu kimi yaşamayacağıq. Geridə qalan illərdə baş verənləri ancaq qəlbimizin hansı qatındasa özünə yer etmiş xatirələrdə axtarmalı, onların istisinə qızınmalıyıq.

Hərdən təbiətin qoynuna çəkilib onun nəfəsini, səsini dinləyin. Sakit axan bulağın həzinliyinə, yarpaqların özünəməxsus xışıltısına, sonu ilğıma dönən çölün sakitliyinə qulaq verin, qarışqaların yem daşımasına, quşların cikkiltisinə, buludların səmada hərəkətinə diqqət yetirin, Günəşə boylanan yaşıl otları, ləçəyinə şeh düşmüş ətirli gülləri seyr edin... Bu zaman ruhunuz təzələnəcək və bu gözəlim dünya sizlərə daha yaşamalı gələcək, ağrı-acınız dağılıb gedəcək.

Sakit bir yaz axşamı darıxanda, qışın qarı dünyanı öz təmizliyinə, bəyazlığına bələyəndə iz düşməyən yollara, qar altında yatan çölə, ağaclara baxıb düşünün. Lap uşaqlığınızdan başlayın. Ananızın qolları arasında şirin yuxuya getdiyiniz çağları, atanızın boynuna minib dünyanı seyr etmənizi, gecələr ulduzlu səmaya baxıb öz ulduzunuzu axtarmanızı, rəngli yuxularınızda qılıncla divi öldürmənizi, ilk dəfə parta arxasında oturduğunuz o unudulmaz günləri, həyətinizə ilk ağac əkməyinizi, yaşıdlarınızla payız leysanından sonra göbələk, qulançar yığmanızı, imtahanlardan aldığınız qiymətləri, ilk görüşə getməyinizi xatırlayıb, göz önünə gətirin.... Onda bir daha yəqin edəcəksiniz ki, bu dünya necə yaşamalı, gözəl və şirindir.

Bu dünya elə şirindir ki, necə gözəl, rahat yaşasa da, heç kəs "dünyadan doydum" deyə bilmir...

Həyətimizdən iki ev o yana Orucalı babanın evi vardı. ("Qarlı aşırım" filmindəki kərbəlayini görmüş, Orucalı kişini görmüş). Başında həmişə uzun tüklü qara papaq olardı. Əyninə dəri gödəkcə geyinərdi. Uzun qaşlarının altında qartal kimi baxışları həmişə nəsə axtarırdı.

O, nağıl kimi adam idi. Gəncliyində başına gələnləri danışanda heyrət edirdim. Ətraf kəndlərdən olan cavanların heç biri onun kürəyini yerə vura bilməmişdi. Ərinmiş yağı stəkanla, qaymağı kasa ilə içərdi.

Günlərin bir günü - tərəkəmələrin yaylağa üz tutduqları bir vaxtda Orucalı kişi çardaqda oturub ətrafa baxırmış. Görür ki, onlara məxsus yoncalıqda bir sürü otlayır. Tez əmisi oğlu Pənahı çağırıb deyir ki, get sürünü biçənəkdən çıxar. Pənah dabrıya-dabrıya gedir və bir azdan "af-uf" eləyə-eləyə qayıdır. Orucalı soruşur ki, nə oldu, səni kim vurdu? Pənah bildirir ki, qağa, onlar 8 nəfər idi, gücüm çatmadı. Orucalı bunu eşidib əsəbiləşir. Bəlgəyi qoluna dolayır və uzun çomağını götürüb gedir yoncalığa. Görür ki, sürü sahibləri bu yerin adamları deyillər. Buna görə də məsələni sakitliklə həll etmək istəyir. Amma hiss edir ki, çağrılmamış qonaqlar onu da əzişdirmək fikrindədirlər. Buna görə də fürsəti fövtə vermir. Elə ilk zərbə ilə birini yerə sərir. Ağacını fırladaraq ikincinin də əl-qolunu açmağa imkan vermir. Üzərinə şığıyan ən ucaboylu çobanın zərbəsinə zərbə ilə cavab verir. Ağaclar göydə şaqqıldayır. Lakin Orucalı kişi tez əyilərək ayağı ilə rəqibinin yanına güclü zərbə endirir... Altıncı da yerə yıxılandan sonra qalan iki nəfər ağaclarını yerə qoymalı olurlar. Orucalı kişi sürünün ağzını kəndə sarı döndərir. Sonra ürəyi yumşalır və sürü sahiblərinə deyir ki, heyvanlarınızı götürüb gedin...

Orucalı kişi qocalanda qıçlarını "qızıl yel" tutmuşdu. Buna görə əyninə sırıqlı şalvar və kürk geyinir, yaz-yay aylarında evinin yan balkonunda yatırdı. Bəzən ağrıların təsirindən kişi pələng kimi bağırırdı. Bir az sakitləşəndən sonra qəmli-qəmli oxuyurdu. Onun bu oxuması çoxlarını kövrəldirdi. Hərdən mən onun yanına gedir, şirin söhbətlərinə qulaq asırdım.

Orucalı baba maraqlı adam idi. Atını çox sevirdi. Xəstə olanda atı həyətdə özünə yaxın bir yerə, gözlərinin qabağına bağlatdırardı. Tez-tez atı ilə söhbət edərdi. Elə danışardı ki, elə bil yaxın dostu ilə söhbətləşir. Orucalı baba mənə deyirdi ki, yaxşı at sürməyi öyrənsən, atımı sənə verərəm. Amma mən bilirdim ki, o, bu sözləri elə belə deyir, atını mənə qıymaz.

Danışırdılar ki, bir gün kişi oğlanlarını yanına çağırıb deyir ki, atı yəhərləyin, məni də əlinizlə qaldırıb qoyun yəhərin üstünə. Qoy son dəfə kəndin ətrafını gəzib, görüm. Dediyi kimi də eləyirlər. Biri atın yüyənini tutur, digəri atın yanı ilə gedir və kişinin yəhərdən düşməməsi üçün çalışır. Kişi at üstündə gəzdikcə gözlərindən gilə-gilə yaş axıdır və deyir ki, dünya səndən doymadım! Sonra onu yenə evin yan eyvanındakı yatağına qoyurlar. Kişi yastığa dirsəklənib xeyli uzaqlara baxır. Bir də görürlər ki, elə yastığa dirsəkləndiyi şəkildə canını tapşırıb və sakitcə bu dünyadan köçüb.

Onu da deyirlər ki, Orucalı kişini dəfn etmək üçün həyətdən çıxaranda atı bərkdən kişnəyib və bir müddət ayaqlarını yerə döyüb....

Hərdən evdə tək olanda ailəniz haqqında düşünün. Əzizləriniz işdən yorğun dönərkən sizi görüb sevinməsini, bir süfrə başında oturub deyə-gülə nahar etmənizi, böyük qardaş və bacınızın toyunu, ailənizdə baş vermiş ağır itkini xatırlayın. Sonra iş yoldaşlarınızı, çətin günün dostları və xeyirxah insanlar haqqında düşünün.

Hərdən tənhalığa çəkilib bir insan kimi dünyaya gəlişinizə, sizə sağlam əl-ayaq, işıqlı dünya, övlad, bir parça çörək verdiyinə görə O gözəgörünməzə dua edin. Bu həyatda görüb-götürdükləriniz salıb-itirdiklərinizdən çoxdursa, demək, yaşamağa dəyər.

Ömür sular kimi axıb gedir – bəzən bulanıq, bəzən duru. Günlərimiz rəngli də olur, qara da. Gözlərimiz bəzən sevincdən yaşarır, bəzən kədərdən. O da olur ki, həyatda elə də gərəkli olmayan şeyləri əldə etmək üçün ömrümüzün bir parçasını bada veririk. Amma itirilmiş vaxt üçün heç təəssüflənmirik, göz yaşı axıtmırıq.

Halbuki, insan üçün dünyada ən dəyərli şey vaxtdır. İnsan son nəfəsində bir il yox, bir ay yox, bircə saat yaşamaq üçün hər şeyindən keçməyə hazır olur...

Bütün sadaladıqlarımızı daha dərindən dərk etmək üçün hərdən tənhalığa çəkilin. O zaman çox mətləbləri anlayacaqsınız.

**Səməd MƏLİKZADƏ**

Hüquq guşəsi

# Boşanma zamanı əmlak bölgüsü

**Məlumdur ki, ailələr dağıldığı zaman bir çox mübahisəli məsələlər ortaya çıxır. Onlardan biri ər-arvad ayrıldıqdan sonra daşınmaz və daşınar əmlakın kimin sərəncamında qalmasıdır. Bununla bağlı tanınmış vəkil Hicrət Hüseynzadə aşağıdakıları bildirdi:**

– "Ailə Məcəlləsinin 36.1-ci maddəsinə əsasən, ər-arvadın ümumi əmlakının bölünməsi həm nikah dövründə, həm də nikah pozulduqdan sonra aparıla bilər. Ümumi əmlakda onların payları bərabər hesab edilir.



Ayrı-ayrı hallarda məhkəmə yetkinlik yaşına çatmayan uşaqların mənafeyini və ya ərin (arvadın) diqqətəlayiq mənafeyini, o cümlədən ər-arvaddan biri üzürsüz səbəbdən gəlir əldə etmədiyi və ya birgə mülkiyyəti ailənin mənafeyinə zidd olaraq sərf etdiyi hallarda onların birgə mülkiyyətinin bölünməsi zamanı payları bərabər bölməyə bilər.

Bundan başqa, ər-arvaddan birinə, dəyəri ona çatası payın dəyərini aşan əmlak verildikdə, bunun əvəzində digərinə müvafiq məbləğdə pul və ya başqa kompensasiya verə bilər.

Ailə Məcəlləsinin 34-cü maddəsinə əsasən, nikaha daxil olanadək onlara məxsus olan əmlak, habelə nikah dövründə hədiyyə şəklində və ya vərəsəlik qaydasında, digər əvəzsiz əqdlər üzrə əldə etdikləri əmlak ər-arvadın hər birinin ayrıca mülkiyyətindədir. Boşanma zamanı vərəsəliklə əldə edilmiş ev bölünməyəcək, lakin ipoteka ilə alınan ev birgə nikah dövrü ərzində alınmışsa, o ev bölünəcək.

**Hüquqşünas sonda dedi:**

– Əgər mülkiyyət birgə yaşayış vaxtı alınıbsa, boşanma zamanı tərəflər arasında yarı bölünür. Həmçinin, əgər qadın evləndikdən sonra həyat yoldaşının yaxud qayınata və qayınanasının evində qeydiyyata düşübsə, bu zaman ona həmin evdə yaşamaq hüququ verilir. Lakin ər buna etiraz etdikdə və qadın da həmin evdə yaşamaq istəmirsə, bu zaman ona kompensasiya verilir.

*Hazırladı:*
***P.ƏFƏNDİYEV***
***XQ***

# Slovakiya Prezidenti seçkiləri dayandırmağa çağırıb

**Slovakiyanın səlahiyyət müddəti başa çatmaqda olan prezidenti Zuzana Çaputova təklif edib ki, ölkədəki bütün partiyalar Baş nazir Robert Fitzoya qarşı sui-qəsd cəhdindən sonra Avropada seçkilərlə bağlı seçki kampaniyasını dayandırsınlar.**

"Reuters" xəbər verir ki, Slovakiya prezidenti tərəflərə müraciət edib ki, onlar birlikdə ölkədəki gərgin vəziyyəti sakitləşdirsinlər. Fikonun siyasi rəqibi olan Çaputova dünənki sui-qəsdin "demokratiyaya hücum" olduğunu bildirib.

"Gəlin, nifrət və qarşılıqlı ittihamlar dairəsindən çıxaq. Dünən baş verənlər fərdi bir hərəkət idi, lakin gərgin nifrət mühiti bizim kollektiv işimizin nəticəsidir",– o deyib.

***XQ***

# "Şamil Qurbanov: ömrün fikir dünyası"



**Bakı Dövlət Universitetinin filologiya fakültəsində türkologiya kafedrasının təşkilatçılığı ilə "Şamil Qurbanov: ömrün fikir dünyası" mövzusunda elmi seminar keçirilib.**

Məşğələ Azərbaycanın tanınmış dövlət xadimi, ədəbiyyatşünas, filologiya elmləri doktoru, professor Şamil Qurbanovun 90 illik yubileyinə həsr olunub.

Elmi məclisdə kafedranın dosenti Fatima Dursunova Şamil Qurbanovun həyat və yaradıcılığı haqqında ətraflı məlumat verib. O, qeyd edib ki, tanınmış alim 22 kitabın, 300-dən çox məqalənin, o cümlədən "Açılmamış səhifələr", "Ədəbi dostluq", "Ömrün fikir dünyası", "Ömər Faiq Nemanzadə", "Nəriman Nərimanov dünyası", "Cəmaləddin Əfqani", "Atatürk və Nərimanov" kimi qiymətli əsərlərin müəllifidir.

Daha sonra bildirilib ki, Şamil Qurbanov Azərbaycan ədəbiyyatında yeni səhifələr açıb, indiyə qədər məlum olmayan və ya az məlum olan şəxsiyyətləri üzə çıxarıb. Onun Şeyx Cəmaləddin Əfqani, Ömər Faiq Nemanzadə, Hüseyn Minasazov, Rəhimbəy Məlikov, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Məhəmməd Əmin Rəsulzadə, Nəriman Nərimanov haqqında dəyərli tədqiqat əsərləri var.

Yubiley məclisində fakültənin müəllim-professor heyəti, tələbələri və qonaqlar iştirak ediblər.

***XQ***

# Rusiya İslam aləminə qapı açıb

## Kazan forumuna 85 ölkədən 18 min nümayəndə gəlib

**Mayın 14-dən 19-dək davam edəcək nüfuzlu beynəlxalq tədbirin Təşkilat Komitəsinin yaydığı məlumatda qeyd olunur ki, Tatarıstan paytaxtı Kazanda keçirilən Forumun devizi "Rusiya–İslam dünyası: İslam Əməkdaşlıq Təşkilatı (İƏT) ölkələri ilə Rusiya Federasiyasının regionları arasında əlaqələrin gücləndirilməsi"-dir. Tədbirdə İslam dünyasının aparıcı mütəxəssisləri iqtisadiyyat, təhsil, sosial və mədəniyyət sahələrində əməkdaşlığın perspektivlərini müzakirə edirlər.**



Kazan Forumunun əsas məqsədi beynəlxalq layihə və proqramlara diqqət yetirməklə Rusiyada və İslam dünyasında maliyyə institutlarının inkişafına kömək etməkdir. Plenar iclası mayın 17-nə nəzərdə tutulan tədbirdə yerli və xarici ekspertlər Rusiya ilə İƏT ölkələri arasında müxtəlif sahələrdə qarşılıqlı fəaliyyət perspektivlərini müzakirə edəcək və forumun nəticələrini ümumiləşdirəcəklər.

Forum çərçivəsində təşkil olunan Rusiya Halal Sərgisində dünyanın hər yerindən 4500 çeşiddə halal sertifikatlı məhsullar, o cümlədən qida, xidmət, investisiya imkanları və infrastruktur layihələri nümayiş etdirilir.

Forumun "Etimad və əməkdaşlıq" adlanan geniş işgüzar proqramı ilə yanaşı, mədəni tədbirlər, o cümlədən moda nümayişləri, gənc aşpazlar üçün müsabiqələr, ekskursiyalar da nəzərdə tutulub. Kazan Forumunda, həmçinin Afrika, Mərkəzi və Şərqi Asiyadan olan memarlar, investorlar, maliyyə institutları və şirkətlər iştirak edirlər.

Forumun saytında yer alan xəbərə görə, iştirakçılar turizm, biznes, texnologiya, İslam maliyyəsi, investisiyalar və digər mövzuları müzakirə edəcəklər. Tədbirin Təşkilat Komitəsinin üzvü, Kazan şəhərinin meri İlsur Metşinin sözlərinə görə, hazırlıq işləri yüksək səviyyədə aparılıb: "Bu, İslam dünyası ilə dialoq üçün mühüm platformadır. Ümid edirik ki, bu platforma və forum şəhərimizin daha geniş coğrafiyada tanınmasına və siyasi çəkisinin artmasına töhfə verəcək".

***İ.HƏSƏNQALA***
***XQ***

## "Ceyranbatan Dəmir Beton "ASC səhmdarlarının nəzərinə!

28 iyun 2024-cü il saat 11.00-da Abşeron rayonunun Ceyranbatan qəsəbəsində məscidin yanındakı binanın qarşısındakı bir mərtəbəli binada "Ceyranbatan Dəmir Beton "ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Yığıncağın gündəliyi:

1. Cəmiyyətin 2023-cü il üçün illik balansının, mənfəət və zərər hesabatlarının müzakirəsi və təsdiqi.
2. Digər məsələlər.

Ümumi yığıncaqda bütün səhmdarların şəxsiyyətini təsdiq edən sənədlə iştirakı vacibdir.

Əlaqə telefonu – 050-361-61-65.

***"Ceyranbatan Dəmir Beton "ASC-nin idarə heyəti***

## "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyəti

yüksək gərginlikli avadanlıqlarda qüsurların aradan qaldırılması üçün xidmətlərin satın alınması məqsədilə

AÇIQ MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.portofbaku.com səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Zərflərin təqdim edilməsi üçün son tarix 30 may 2024-cü il saat 17.00-dəkdir. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu: +994 12 599 00 03 (daxili 3705).

Ünvan- AZ1010, Bakı şəhəri, Nəsimi rayonu, Ü.Hacıbəyov küçəsi 140.

## "Akkord Mingəçevir Maşınqayırma zavodu" ASC səhmdarlarının nəzərinə!

28 iyun 2024-cü il saat 11.00-da "Akkord Mingəçevir Maşınqayırma zavodu" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Yığıncağın gündəliyi:

1. "Akkord Mingəçevir Maşınqayırma zavodu" ASC-nin 2023-cü il üçün maliyyə hesabatının müzakirəsi və təsdiqi.

Ünvan – Mingəçevir şəhəri, Gəncə şossesi 3.

## "İnşaat Konstruksiyaları Zavodu" ASC səhmdarlarının nəzərinə!

28 iyun 2024-cü il saat 11.00-da Bakı şəhəri, Nizami rayonu, K.Balakişiyev küçəsi 2 nömrəli ünvanda "İnşaat Konstruksiyaları Zavodu" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. ASC-nin 2023-cü il üçün maliyyə-təsərrüfat fəaliyyətinin hesabatı.
2. ASC-nin gəlirlə işləməməsinin səbəblərinin araşdırılması və yeni maliyyə mənbələrinin cəlb edilməsi.
3. Digər məsələlər.

Telefon- 077-320-03-70.

Ünvan – Bakı, Nizami rayonu, K.Balakişiyev küçəsi 2.

***İdarə heyəti***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 102 (30506) 17 may 2024-cü il, cümə

İDMAN

## Hədbolçularımızın ilk qələbəsi



**Qadın həndbolçulardan ibarət Azərbaycan millisi Özbəkistanın paytaxtı Daşkənddə keçirilən Mərkəzi Asiya açıq çempionatında ilk oyununda qələbə qazanıb.**

Yığmamız ilk görüşdə yerli OKMK klubunu 30:28 hesabı ilə məğlub edib. Azərbaycan yığması A qrupunda növbəti matçlarda Qazaxıstanın "Almatı Region" və Özbəkistanın ROPSTTM kollektivləri ilə mübarizə aparacaq.

Qeyd edək ki, turnir mayın 21-də başa çatacaq.

## Avropa çempionatında heyət bəllidir



**Budapeştdə bədii gimnastika üzrə keçiriləcək Avropa çempionatında iştirak edəcək Azərbaycan yığmasının heyəti müəyyənləşib.**

Fərdi birincilikdə Zöhrə Ağamirova, Kamilla Seyidzadə və İlona Zeynalova çıxış edəcəklər. Qrup hərəkətləri üzrə komandada Ləman Əlimuradova, Yelizaveta Luzan, Zeynəb Hümmətova, Güllü Ağalarzadə, Kamilla Əliyeva və Darya Sorokina mübarizə aparacaqlar. Yeniyetmələrin yarışında isə ölkəmizi Gövhər İbrahimova, Şəms Ağahüseynova, İlahə Bahadırova və Fidan Qurbanlı təmsil edəcəklər.

Qeyd edək ki, Avropa çempionatı Paris Yay Olimpiya Oyunlarına lisenziya xarakteri daşıyır. Mayın 22-dən 26-dək davam edəcək turnirə, ümumilikdə 302 idmançı qatılacaq.

## Paraatletlərimizin Yaponiya sınağı

**Paraatletika üzrə Azərbaycan millisi Yaponiyanın Kobe şəhərində keçiriləcək dünya çempionatında mübarizə aparacaq.**




Yarışda komandamızın üzvlərindən Orxan Aslanov, Səid Nəcəfzadə (hər ikisi uzunluğa tullanma), Samir Nəbiyev, Rüfət Rəfiyev (hər ikisi nüvə itələmə) və Lamiyə Vəliyeva (qaçış) çıxış edəcəklər.

Yarış mayın 17-dən 25-dək davam edəcək.

*LQ URBANOVA*
*XQ*

# "Retro Azad"ın avtomobil muzeyi...

**"Lap uşaq yaşlarımdan məndə texnikaya, xüsusilə avtomobillərə qarşı böyük maraq olub. Zaman keçdikcə, yaşa dolduqca həmin maraq hissi də böyüyüb. Oyuncaq maşınlarla başlanan maraq böyüdükcə belə bir qarajın və kolleksiyanın yaranmasına səbəb olub", – deyə Bakının Novxanı qəsəbəsindəki şəxsi evində retro maşınlardan ibarət ikimərtəbəli qarajın sahibi Azad Kərimov özünün yaratdığı bu nadir avtomobil muzeyi haqqında məlumat verir.**

### Hitlerin sifarişi ilə istehsal edilən, Stalinin sevdiyi, Hüsnü Mübarəkin qarajından gələn maşınlar



Hamısı işlək vəziyyətdə olan bu avtomobillər arasında hansı model yoxdur: 1931-ci ildə istehsal olunmuş "Ford Model A", 1941-ci ildə buraxılmış "Cadillac Fleetwood", "Willys MB", 1947-ci il tarixli "Chevrolet"...

Onların arasında Hitlerin çertyoju ilə istehsal edileni də var, Stalinin ən çox sevdiyi də, Misirdən Hüsnü Mübarəkin qarajından gələni də... 1982-ci ildə istehsal edilən və SSRİ xarici işlər nazirinin istifadə etdiyi ZİM də bu qarajdadır.



Ən yaxşısı Azadın özünü dinləməkdir: "Avstriya istehsalı olan "Steyr-daimler"i Nabranda istifadəsiz vəziyyətdə bir həyətdə gördüm. Avtomobilin içərisinə torpaq töküb gül əkmişdilər, tamam bərbad və yararsız vəziyyətdə idi. Sahibi ilə danışıb onu əldə etdim, Bakıya gətirib yığdıraraq ikinci həyat verdim. Avtomobili mənə bağışlayan adam yığılandan sonra onu görəndə gözlərinə inanmadı".

Azad Kərimovun sözlərinə görə, vaxtilə Avstriyada buraxılan həmin maşınlardan dünyada çox az sayda qalıb, 1939-cu ilin istehsalıdır. 1957-ci ilin istehsalı olan "Pobeda-Sport"dan isə indi dünyada cəmi 6-sı qalıb...

Azada bu cür retro avtomobil və ehtiyat hissələri hədiyyə edənlər də olub, özünün pulla aldığı da. Məsələn, 1967-ci il istehsalı olan "Volkswagen Beetle" markalı avtomobilə 400 manat ödəyib. Maşını təzələyərək qızının 18 yaşında ona bağışlayıb. 1981-ci ildə isə "Zaporojest" markalı maşını yığdıraraq qardaşına hədiyyə verib.

Avtomobil həvəskarı deyir ki, vaxtilə küçələrin yaraşığı olan QAZ-21 markalı "Volqa"nın isə üç modeli buraxılıb. Şəxsi minik avtomobili olmaqla yanaşı, sovet vaxtı ən çox ondan taksi kimi istifadə edilib. Təkərinin diskində "T" hərfi yazılan, qabaq şüşəsində sərnişinsiz olduğunu müştərilərə bildirən yaşıl işıq yanan həmin nəqliyyat vasitəsi kolleksiyanın ən maraqlı nümunələrindəndir. Onlara verilən adlar da maraq doğurur: "Ulduz", "Köpək balığının ağzı", "Balinanın bığı" ...

Hər birinin spesifik özəlliyi olan həmin maşınlar təkcə zahiri görkəmi, yaraşığı və dizaynı ilə deyil, mühərriki, orijinal siqnal səsi və digər xüsusiyyətləri ilə də fərqlənir. Məsələn, 1952-ci ildə istehsal edilən və məmurların istifadəsindən ötrü nəzərdə tutulan ZİM avtomobilində cangüdənlər üçün ayrıca oturacaq var. Zahirən mini-avtobusu xatırladan avtomobillərdən biri isə əsl səfər maşınıdır: içərisində yataq yeri, qaz plitəsi, qab-qacaq yumaq üçün yeri, soyuducusu, kondisioneri və tualeti var. Burada göldə sürmək üçün istifadə edilən, həm ayaqla idarə edilən, həm də mühərriklə işləyən nəqliyyat vasitəsinə də rast gəlmək mümkündür. Ötən əsrin 80-ci illərinin istehsalı olan motosiklet də öz unikallığı ilə diqqəti cəlb edir. Onun soyuducusu, kondisioneri, maqnitofonu, sənəd və yük yığmaq üçün xüsusi yeri var.



Qarajda "Cadillac", "Packard", "Pobeda", "Lincoln Town Car", hətta İkinci Dünya müharibəsindən sonra müharibə əlillərinə verilən və camaat arasında "invalidka" adlandırılan avtomobil də var.

Azad deyir: "Boş vaxtlarımda, şənbə və bazar günləri bu maşınların sükanı arxasına keçir və onları idarə etməkdən zövq alıram. Ümumiyyətlə, təxminən 40 il ərzində ərsəyə gələn bu qarajda dincəlir, yorğunluqdan xilas oluram. Onları izləmək və hərdən sükanı arxasında oturmaq mənim üçün ən böyük istirahətdir".

Onun qarajındakı az və limitli sayda istifadə edilən müxtəlif ölkələrə məxsus avtomobillərdən reklam, fotosessiya, klip və film çəkilişləri üçün istifadə edənlər də olur. Hər il onlar Bakıda keçirilən klassik avtomobillərin sərgisində nümayiş etdirilir.

Kolleksiyaçı avtomobillərlə yanaşı qarajda ötən illərin yadıgarı olan, indi istifadədən çıxmış və ya istifadə edilməyən çoxlu əşyalar da toplayıb: qədim tərəzi, cəhrə, çəllək, telefon aparatları, taksofon, sualtı dəniz gəmisində istifadə olunan telefon, uşaqlar üçün oyuncaq maşınlar, küçədə istifadə olunan su aparatları, ağ-qara televizor, radioqəbuledici, fotoaparatlar, paltartikən maşın, kino nümayiş etdirən aparat, müxtəlif çamadanlar, yazı makinası, musiqi qutusu, motosiklətlər, XİX əsrə aid pianino və s.

Hətta Azadın ixtisasca stomatoloq olan nənəsindən yadigar qalan 1875-ci ilə məxsus pasiyentlər üçün oturacaq da onların arasındadır. Görünür, elə bu marağına görə də onu "Retro Azad" adlandırırlar.

**Süleyman QARADAĞLI**

Hava

## Yağış, duman və külək

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, mayın 17-də Bakıda və Abşeron yarımadasında bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir.**



Səhər yarımadanın bəzi yerlərində havanın qısa müddətə intensivləşəcəyi, şimşək çaxacağı ehtimalı var. Gündüz yağıntılar tədricən kəsiləcək. Mülayim şimal-qərb küləyi əsəcək, gündüz yarımadanın bəzi yerlərində arabir güclənəcək. Gecə 11-13°, gündüz 14-17° isti olacaq. Atmosfer təzyiqi 763 mm civə sütunu, nisbi rütubət gecə və gündüz 70-80 faiz olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, bəzi dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 10-14°, gündüz 17-22° isti, dağlarda gecə 1° şaxtadan 3°-dək isti, gündüz 5-10° isti olacaq.

*Q. QASIMOV*
*XQ*

# Dənizkənarı bulvar mayda



Elşən AĞALAR (foto)

## "Biz mehriban ailəyik"



**Bakının Nərimanov rayonunda yerləşən M.Şəhriyar adına 193 saylı tam orta məktəbdə Beynəlxalq Ailə Günü ilə bağlı şənlik keçirildi.**

Məktəbin direktoru Nihal Hacıyeva qonaqları bayram münasibətilə təbrik edərək onlara təhsil ocağı ilə yaxından əməkdaşlığa görə təşəkkürünü bildirdi. Çıxış edənlər "Beynəlxalq Ailə Günü"nün əhəmiyyətindən, Azərbaycan ailələrinə məxsus milli-mənəvi, əxlaqi dəyərlərin qorunub saxlanılaraq gələcək nəslə ötürülməsinin vacibliyindən bəhs etdilər.

Yığıncağa toplaşan ailələrin bir qismi mahnı oxuyub, əl işlərini nümayiş etdirib. Valideyn Ruhəngiz Babayevanın ifasında " Biz mehriban ailəyik" mahnısı xüsusi rəğbətlə qarşılandı.

*Zülfiyyə ZİYA*
*XQ*

*✓ Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyi tərəfindən Hüseynov Elxan Əlisəttar oğlunun adına Bakı şəhəri, Sabunçu rayonunun Buzovna qəsəbəsində yerləşən 6 nömrəli yaşayış binasının 24 nömrəli mənzilinə imtiyazlı şəxslərə verilmiş mənzilin təhvil-təslim sənədi itdiyi üçün etibarsız sayılır.*

**ALLAH RƏHMƏT ELƏSİN**

Vasif İmanov və Pirallahı Rayon İcra Hakimiyyətinin kollektivi Bakı Şəhər İcra Hakimiyyətinin aparat rəhbəri Ayaz İmaməliyevə dayısı

**NEYMAN HACIYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Asif Əsgərov və Nəsimi Rayon İcra Hakimiyyətinin kollektivi Bakı Şəhər İcra Hakimiyyətinin aparat rəhbəri Ayaz İmaməliyevə dayısı

**NEYMAN HACIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Şirvan şəhərindən İlqar Abbasov Tofiq Qasımova qardaşı, Zaur Qasımova atası

**POLAD QASIMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3940
SİFARİŞ 962
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Vaqif BAYRAMOV
Çapa imzalanmışdır 00:00